Xalqın qəzeti!

# Xalq qəzeti

№ 131 (30247) 22 iyun 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**İqtisadi müstəqillik mütləq gücləndirilməlidir. Keçən il bizim ümumi daxili məhsulumuz 134 milyard manata çatıb. Bu da, təxminən, 80 milyard dollara bərabər olan rəqəmdir. Xarici ticarət də artıb, 50 milyard dolları ötüb, müsbət saldo 25 milyard dollar təşkil edib.**

# Tərəqqi və rifah büdcəsi




**Prezident İlham Əliyev təsdiq etdiyi 13 iyun 2023-cü il tarixli "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunda dəyişikliyə əsasən, cari il dövlət büdcəsinin gəlirləri 33 milyard 890 milyon 500 min manat, xərcləri 36 milyard 624 min 800 min manat məbləğində müəyyənləşdirilib.**

Xatırladaq ki, "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Qanunun 1-ci və 2-ci maddələrində edilən dəyişikliklərə görə, yuxarıda diqqətə çatdırılan göstəricilər dövlət büdcəsinə yenidən baxılmanı şərtləndirən amillərə əsaslanıb.

*(ardı 7-ci səhifədə)*

## Qarabağ və Şərqi Zəngəzurda müasir yol şəbəkəsi yaradılır



Səhifə ⇨ 7

## Hədəfdə Paşinyanın "strategiyası"dır

**Ermənistan baş naziri Nikol Paşinyanın siyasətindən həm ölkə daxilində müxtəlif qüvvələr, həm də xaricdə yaşayan haylar ciddi narazıdırlar. Əgər ölkə daxilində Paşinyandan narazılıq müxalifətin vaxtaşırı keçirdiyi kütləvi aksiyalar, piketlər, oğlu Aşotun qaçırılması və sair kimi fərqli formalarda özünü göstərirsə, xaricdəki ermənilər öz iradlarını əsasən mediadakı çıxışları ilə nümayiş etdirirlər.**



Paşinyandan Rusiyadakı ermənilər daha çox narazılıq edirlər. Bu, bir tərəfdən onun İkinci Qarabağ müharibəsində biabırçı məğlubiyyətə uğraması ilə əlaqədardırsa, digər tərəfdən İrəvan-Moskva münasibətlərinin sərinləşməsi ilə bilavasitə bağlıdır. Münasibətlərin sərinləşməsinə dair çox nümunə gətirmək olar. İş o yerə çatıb ki, Ermənistanın konstitusiya məhkəməsi Beynəlxalq Cinayət Məhkəməsinin Vladimir Putinin həbs olunması barədə qərar çıxarılan gün Roma Statutuna qoşulub. Başqa sözlə desək, Ermənistan konstitusiya məhkəməsi Beynəlxalq Cinayət Məhkəməsinin Rusiya Prezidentinin həbsi barədə qərarını konstitusiyaya uyğun hesab edib.

*(ardı 4-cü səhifədə)*

## Azərbaycan Asiya İnkişaf Bankı ilə tərəfdaşlığa xüsusi diqqət yetirir




**Azərbaycan dünyanın tanınmış maliyyə qurumlarından sayılan Asiya İnkişaf Bankı (AİB) ilə fəal əməkdaşlıq edir. Bank illik məlumat bülletenində Azərbaycanla bağlı sosial və iqtisadi göstəricilər, eləcə də AİB-in ölkədə fəaliyyətləri ilə bağlı icmal və əlaqə məlumatları təqdim olunur.**

Bu günlərdə Asiya İnkişaf Bankının Direktorlar Şurasında Azərbaycan da daxil olmaqla 11 dövləti təmsil edən icraçı direktor Reyçl Tompsonun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib. Bank təmsilçiləri səfər çərçivəsində ölkəmizdə bir sıra yaddaqalan görüşlər keçirib.

*(ardı 7-ci səhifədə)*

## Lavrovun sülh naminə elegiyası

**Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı Xarici İşlər Nazirləri Şurasının iyunun 20-də keçirilmiş iclasının yekunları ilə bağlı jurnalistlərə açıqlamasında səsləndirdiyi fikirlər, əslində, yenilik deyil. Məlumdur ki, Moskva Azərbaycan-Ermənistan münasibətlərinin nizamlamasının Qərb formatına qısqanclıqla yanaşmaqdadır. Xüsusi məqam isə ondan ibarətdir ki, Lavrov bunu Rusiyanın hazırda danışıqlar prosesinə real töhfəsinin olmadığı şəraitdə dilə gətirir. O şəraiti yaradan isə Ermənistandır. Kreml isə sanki "Axırıncı aşırım" filmindəki Kərbalayi İsmayıl obrazıdır. Qəmlo demişkən, o, Şura hökumətinin, indiki halda Ermənistanın nazı ilə çox oynayır.**



Ancaq məsələdəki dramatizm bununla məhdudlaşmır. Lavrov əvvəlki açıqlamalarında daha çox Qərb vasitəçiliyi xəttinin aktivləşməsinə görə İrəvanı günahlandıran eyhamlar vururdusa, hazırda belə nəticəyə gəlmək olar ki, tərəzinin gözünə Azərbaycanı da qoyub. Diqqət yetirək və görək Rusiya XİN rəhbəri nə deyir: "Ermənistan və Azərbaycan anlamalıdırlar ki, Qərbin onlar arasında sülh yolu ilə nizamlamaya kömək etmək üçün səmimi istəyi yoxdur".

*(ardı 3-cü səhifədə)*

## Sözün kimi, adın da saxtadır, Ararat Mirzoyan!



**Otuz ilə yaxın Ermənistanın 7 rayonunu işğal altında bizmi saxlamışıq? Həmin rayonların maddi, mənəvi sərvətini bizmi talamışıq? Kəndlərdəki evlərin daşını daş üstündə bizmi qoymamışıq? Nəinki binaların inşaata yararlı materiallarını, üstəlik, məzarlıqlardakı mərmər baş və sinə daşlarını bizmi söküb satmışıq? Bununla da ürəyimiz soyumayıb, Qriqorian kilsələrini mal tövləsinə çevirmişik? Daha yurd-yuvasından didərgin saldığımız bir milyon insanın hansı əzab-əziyyətə qatlaşdığına baxıb bizmi rişxənd etmişik? Yox, insanlıqla bir araya sığmayan bu hərəkətləri edən biz deyilik, sizsiniz, Mirzoyan! Çünki biz erməni deyilik!**

*(ardı 3-cü səhifədə)*

## İslamda türklər və türklərin islamı

Səhifə ⇨ 9




## OPEC+ çərçivəsində ziddiyyətlər nədən qaynaqlanır?

**Son günlər dünya mediası Səudiyyə Ərəbistanının Rusiyanın neft hasilatını azaltma tempindən narazı olmasından, belə bir vəziyyətin isə son nəticədə neftin dünya bazarında qiymətlərinin artırılması planının həyata keçirilməsini çətinləşdirdiyindən yazır.**

*(ardı 10-cu səhifədə)*

## Dünya daha nə birqütblü, nə də çoxqütblü olacaq



Səhifə ⇨ 10

## Hansı ölkələr İranda casusluqla məşğuldur?

Səhifə ⇨ 10

# Ceyhun Bayramov görüşlər keçirib





**Azərbaycanın Xarici İşlər Naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiyanın kralı III Çarlzla görüşüb.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin "Twitter" səhifəsində məlumat paylaşılıb.

Bildirilib ki, Ceyhun Bayramov Böyük Britaniyaya işgüzar səfəri çərçivəsində Ukraynanın Bərpası Konfransı öncəsində III Çarlzın Müqəddəs Ceyms Sarayında təşkil etdiyi qəbulda iştirak edib.

***

Birləşmiş Krallığa işgüzar səfər çərçivəsində xarici işlər naziri Ceyhun Bayramov dünən Birləşmiş Krallığın xarici işlər, birlik və inkişaf məsələləri üzrə dövlət katibi Ceyms Kleverli ilə görüşüb.



Tərəflər Azərbaycan-Birləşmiş Krallıq arasında Strateji Dialoqun gündəliyində duran məsələləri, siyasi, iqtisadi, enerji və humanitar sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri, ölkəmizin təşəbbüsü ilə həyata keçirilən strateji enerji və nəqliyyat layihələri, habelə regional təhlükəsizlik və postmünaqişə vəziyyəti ilə bağlı müzakirələr aparıblar. İki ölkə arasında mövcud dialoq, qarşılıqlı səfərlər və təmasların, o cümlədən siyasi məsləhətləşmələrin münasibətlərin inkişafına mühüm töhfə verdiyini bildiriblər.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

***

Sonra xarici işlər naziri Ceyhun Bayramov Albaniyanın Avropa və xarici işlər naziri Olta Xaçka ilə görüşüb.

Söhbət zamanı tərəflər iki ölkə arasında ikitərəfli müstəvidə və çoxtərəfli əməkdaşlıq formatları çərçivəsində mövcud olan əməkdaşlıq əlaqələri barədə fikir mübadiləsi aparıblar. Beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı əsasda dəstəkdən məmnunluq ifadə edilib.

Tərəflər, həmçinin enerji sahəsində əməkdaşlıq, ikitərəfli iqtisadi-ticarət əlaqələrinin inkişaf perspektivləri, regional təhlükəsizlik məsələləri, eləcə də qarşılıqlı maraq doğuran digər mövzular barədə fikir mübadiləsi aparıblar.

rin və ikitərəfli görüşlərin əhəmiyyətini vurğulayıblar.

Qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

***

Həmin gün Ceyhun Bayramov ilə Şimali Makedoniyanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani arasında da görüş keçirilib.

Söhbət zamanı Azərbaycan-Şimali Makedoniya arasında ikitərəfli əlaqələr, ATƏT gündəliyində duran məsələlər, habelə sülh prosesinin cari vəziyyəti müzakirə edilib. Tərəflər iki ölkə arasında əlaqələrin inkişafı üçün müxtəlif səviyyələrdə qarşılıqlı səfərlə-

***

Görüşdə tərəflər iki ölkə arasında əlaqələrin inkişafı üçün müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin və ikitərəfli görüşlərin əhəmiyyətini vurğulayıblar.

Görüş zamanı, həmçinin Azərbaycanın keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması üzrə səyləri, münaqişədən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya işləri barədə prioritetləri barədə məlumat verilib. Əsas məqsəd olan sülh müqaviləsinin imzalanması ilə Azərbaycan və Ermənistan arasında dövlətlərarası səviyyədə normallaşmaya dair ölkəmizin baxışı diqqətə çatdırılıb. Ermənistanın bu cür səylərə zərbə vuran maneələri və hərbi-siyasi təxribatları qeyd olunub.

***

Ceyhun Bayramov Birləşmiş Krallığa işgüzar səfəri çərçivəsində Ukrayna Bərpa Konfransında iştirak və çıxış edib.

Ceyhun Bayramov çıxışında çoxsaylı insan itkisi və humanitar fəlakətə səbəb olan Ukrayna ətrafında yaranmış vəziyyətin Avropada sülh və təhlükəsizliyə böyük təhdid olduğunu bildirib. Bu xüsusda, Azərbaycanın yaranmış bu böhranın Ukraynanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində ən qısa zamanda həllini tapmasını dəstəklədiyi qeyd olunub.

Nazir Ceyhun Bayramov, Azərbaycanın vəziyyətin gərginləşdiyi ilk günlərdən, 2022-ci il fevralın 27-dən başlayaraq Ukraynaya ilk humanitar yardımlarını göndərdiyini diqqətə çatdırıb. Ceyhun Bayramov Azərbaycanın ötən əsrin 90-cı illərindəki acı təcrübəsinə istinadən müharibə və münaqişə dövründə mülki əhalinin, xüsusilə də uşaqların cəmiyyətin ən həssas seqmentlərindən birini təşkil etdiyini yaxşı anladığımızı bildirib. Bu xüsusda, ölkəmiz tərəfindən Ukraynadan olan 100 uşağa tibbi və sosial-psixoloji reabilitasiya xidmətlərinin göstərildiyi, ilin sonuna qədər bu rəqəmin iki dəfə artırılmasının planlaşdırıldığı qeyd edilib.

Azərbaycanın postmünaqişə dövründə bərpa və yenidənqurma təcrübəsinə istinad edən nazir Ceyhun Bayramov, Ermənistan işğalından azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işlərinin aparıldığını qeyd edib. Bu xüsusda, Ermənistan tərəfindən dəqiq mina xəritələrinin verilməməsinin, habelə mina təhdidinin davam etdirilməsinin görülən işlərə hədə törətdiyi diqqətə çatdırılıb. Mövcud çətinliklərə baxmayaraq, Azərbaycanın mina təmizləmə sahəsində də Ukrayna üçün avadanlıq təmin etmək niyyətində olduğu bildirilib.

Nazir Ceyhun Bayramov, Azərbaycanın postmünaqişə dövründə bərpa işləri ilə bağlı təcrübəsini və dəstəyini əsirgəmədiyini diqqətə çatdıraraq, ölkəmizin artıq Ukraynada aparılan bir sıra quruculuq işlərinə, o cümlədən İrpin şəhərində məktəbin bərpa edilməsinə dəstək göstərdiyini qeyd edib.

Ukraynada bərpa və yenidənqurma səylərinə göstərdiyimiz dəstəyimizin bundan sonra da davam etdiriləcəyi bildirilib.

*"Xalq qəzeti"*

# Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün komissiya yaradıldı




**Gədəbəy rayonunun Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılması və mövcud vəziyyətin qiymətləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun Sərəncamı ilə komissiya yaradılıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev komissiyanın sədri təyin edilib.

Komissiyanın tərkibinə səhiyyə nazirinin müavini, fövqəladə hallar nazirinin müavini, kənd təsərrüfatı nazirinin müavini, Nazirlər Kabineti Aparatının Sənaye və energetika şöbəsinin müdiri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi və Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı daxildir.

Komissiyaya tapşırılır ki:

1. Gədəbəy rayonunun Söyüdlü kəndində tullantıxana sahəsində monitorinqlərin aparılmasını və mövcud vəziyyətin qiymətləndirilməsini təmin etsin;

2. Sakinlərin sağlamlığının və ətraf mühitin qorunması sahəsində vətəndaşların müraciətlərinin araşdırılmasını təmin etsin;

3. Monitorinqin və qiymətləndirmənin nəticələrinə uyğun olaraq müvafiq təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

*"Xalq qəzeti"*

# Azərbaycan Ermənistanın nifrət və zorakılıq siyasətinin hədəfində

## Avropa Şurası xalqımızın münaqişədən əziyyət çəkdiyini bildirib

**Avropa Şurasının İrqçilik və Dözümsüzlüyə qarşı Komissiyası tərəfindən 6-cı monitorinq dövrü çərçivəsində Azərbaycan üzrə növbəti hesabat hazırlanıb. Sənəddə 2016-cı ildə tərtib olunmuş hesabatdan ötən müddət ərzində ölkəmizdə müvafiq sahələrdə müsbət irəliləyişlərin olduğu vurğulanıb.**

Hesabatda ECRI-nin Azərbaycan əhalisinin, o cümlədən çoxsaylı məcburi köçkünlərin uzun müddət davam etmiş münaqişədən və toqquşmalardan əziyyət çəkdiyini anladığı qeyd olunub.

Sənəddə inklüziv təhsil sahəsində insan hüquqları mövzularının 2020-ci ildən etibarən kurrikuluma daxil edildiyi, internet məkanında irqçi nifrət nitqinin qarşısının alınması məqsədilə qanunvericiliyə əməli dəyişikliklər olunduğu qeyd olunub. Əmək miqrantlarının Azərbaycan vətəndaşları ilə bərabər sosial müdafiə hüquqlarından istifadəsinin, eləcə də qaçqınların əmək bazarına çıxış əldə etməsinin təmin olunduğu diqqətə çatdırılıb.

Hesabatda, həmçinin multikulturalizm və tolerantlığın Azərbaycan cəmiyyətinin tərkib hissəsi olduğu vurğulanıb.

ECRI-nin Ermənistan üzrə hazırladığı növbəti hesabatda isə ölkənin siyasi və ictimai həyatında vaxtaşırı olaraq nifrət nitqi ilə bağlı insidentlərin, o cümlədən zorakılığa çağırış hallarının baş verdiyi qeyd olunub. Bu xüsusda, nifrət nitqinə misal olaraq Ermənistanda daxili bölünmələrə yol açmaq və sülh danışıqlarına əngəl törətmək məqsədilə siyasi opponentlərin qaralanması üçün "azərbaycanlı" və "türk" ifadələrindən istifadə edildiyi bildirilib.

Bununla yanaşı, Ermənistanda azərbaycanlı icmasının artıq mövcud olmadığı, ölkədə yaşayan və ya ziyarətə gələn türklərin isə sayının naməlum olduğu vurğulanıb.




ECRI tərəfindən Ermənistan tərəfinə verilmiş 2 aralıq və 15 əsas tövsiyə arasında ölkə rəhbərliyinə cəmiyyətdə müxtəlifliyin və tolerantlığın əhəmiyyəti barədə məlumatlılığın artırılması sahəsində işin aparılması, siyasi-ictimai, dini xadimlər və nüfuzlu şəxslər vasitəsilə nifrət nitqinə qarşı güclü əks reaksiyanın verilməsi, seçkili orqanlar və siyasi partiyalar üçün müvafiq davranış qaydalarının müəyyənləşdirilməsi, habelə təhsil sahəsində islahatlar yolu ilə etnik və dini mənsubiyyətinə görə ayrı-seçkiliyin aradan qaldırılması və s. xüsusi yer tutur.

*"Xalq qəzeti"*

# "Qarabağ xanlığı: Tarixi və mədəni kimlik"

**Dünən Roma Milli Mərkəzi Kitabxanasında Heydər Əliyev Fondunun himayəsi və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin dəstəyi ilə çap edilmiş "Qarabağ xanlığı: Tarixi və mədəni kimlik" adlı albom-kitabın italyan dilində nəşrinin təqdimatı keçirilib.**






Kitabxananın foyesində iyulun 1-dək davam edəcək "Qarabağın mədəni irsinin inciləri" adlı sərginin açılışı olub. Tədbir iştirakçıları sərgidə nümayiş edilən, Gürcüstan Milli Muzeyinin kolleksiyalarında qorunan, Qarabağ xanlığına (1747-1822-ci illər) aid mədəni artefaktların rəsmləri ilə tanış olublar.

Kitabın təqdimatı ilə bağlı keçirilən konfransda italyan alim və professorlar, ictimaiyyət nümayəndələri iştirak ediblər. Açılış nitqi ilə çıxış edən kitabxananın direktoru Stefano Kampanolo və Azərbaycanın İtaliyadakı səfiri Rəşad Aslanov beş dildə işıq üzü görmüş nəşrin italyan dilində dərc edilməsini bu ölkənin ictimaiyyəti arasında Qafqazın incisi Şuşa və Qarabağ bölgəsində qədim tarixi, Azərbaycan mədəni irsi haqqında geniş məlumatın və təsəvvürlərin formalaşmasında mühüm rol oynayacağını bildiriblər.

Müzakirələrə "Qarabağın Azərbaycan milli kimliyindəki rolu" mövzusunda məruzə ilə yekun vuran Azərbaycan Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri Elşad İskəndərov işğal dövründə Qarabağ bölgəsində Ermənistan tərəfindən Azərbaycan mədəni və dini irsinin məhv edildiyini, gürcü alimləri tərəfindən Qarabağ xanlığı irsinin dərindən tədqiq olunmasının bu bölgənin Azərbaycan milli kimliyindəki rolu haqqında tarixi həqiqətlərin üzə çıxması baxımından xüsusi əhəmiyyət daşıdığını qeyd edib.

Müəlliflər qrupunun rəhbəri professor Eldar Nadiradze olan "Qarabağ xanlığı. Tarixi və mədəni kimlik" kitabında XIX əsrdə çar Rusiyasının Qarabağda həyata keçirdiyi hərbi və elmi ekspedisiyaları zamanı toplanan və hazırda Gürcüstan Milli Muzeyinin fondlarında saxlanılan, Qarabağ xanlığına aid olan 300-dən çox artefaktın rəsmi yer alıb. Kitab Azərbaycan, rus, ingilis, fransız, ərəb və italyan dillərində nəşr olunub.

*"Xalq qəzeti"*

# Hakan Fidan Blinkenlə Bakı–İrəvan münasibətlərini müzakirə edib



**Türkiyənin xarici işlər naziri Hakan Fidan və ABŞ dövlət katibi Entoni Blinken Londonda görüşüblər.**

Türkiyə mətbuatı xəbər verir ki, Ukraynanın Bərpası Konfransı çərçivəsində bir araya gələn Hakan Fidan və Blinkenin müzakirə etdiyi məsələlər arasında Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması mövzusu da olub.

Görüşdə eləcə də Ukraynadakı vəziyyət, NATO-nun genişlənməsi və ikitərəfli əlaqələr müzakirə mövzusu olub.

Bir daha qeyd edək ki, müzakirələr Ukraynanın yenidən qurulmasına dair ikigünlük beynəlxalq konfrans çərçivəsində baş tutub.

*"Xalq qəzeti"*

# Lavrovun sülh naminə elegiyası

## *Rusiyanın baş diplomatı hansı səmimiyyətdən danışır?*



(əvvəli 1-ci səhifədə)

Belədə dərhal bir sual meydana çıxır: Rusiya səmimidirmi? Yaxud, ölkə 44 günlük müharibədən sonrakı nizamlama prosesində səmimi davranıbmı? Yaxşı, bunu da bir kənara qoyuruq. Moskva Azərbaycan-Ermənistan danışıqlarının davam etdiyi 30 ilə yaxın müddətdə hansı səmimiyyəti nümayiş etdirib? Hələ biz nisbətən uzaq tarixə getmirik. Halbuki getməliyik. Nəzərə almalıyıq ki, o tarix həm də Rusiyanın tarixidir. Yəni, işğalçılıq tarixidir və bu, həm də erməni qövmünün Azərbaycan torpaqlarına Rusiya tərəfindən məqsədli şəkildə yerləşdirilməsinin tarixidir.

Əlbəttə, cənab Lavrovun diqqətinə 1813 və 1828-ci illərin Gülüstan və Türkmənçay müqavilələrini də çatdıra bilərik. Bilirik cavabını. Çox güman, deyəcək ki, ağlınız olardı, işğalla üzləşməzdiniz və haqlı da çıxacaq. Eynilə 30 ilə yaxın müddətdə də vasitəçilik adı ilə Rusiya bu deyimi bizə sırımaqdan başqa bir iş görmədi.



Ancaq Rusiya ötən müddətdə, dolayısı ilə işğalla barışmağımızı da istədi. Bunun üçün müxtəlif açıq və qapalı təzyiq üsullarına baş vurdu. Soyuq yanaşdıq, ölkənin belə mövqeyini qeyri-səmimi, dostluğa zidd davranışın nəticəsi kimi qiymətləndirmədik. Nəhayət, düşündük ki, qlobal siyasət deyilən bir məsələ var və bu siyasətdə gərək yıxılmayasan. Biz 30 il əvvəl böyük ölçüdə yıxılmışdıq. Ayağa qalxdıq. Düşündük ki, özümüz yıxılmışıqsa, ağlamamalıyıq.

Lavrovun şəxsində isə Rusiya bu gün ağlamaqla məşğuldur. Vaxtilə Cənubi Qafqaza perçimlədiyi erməni qövmünün əlində qalıb, bilmir nə etsin. Tutaq ki, Ermənistan nəyisə anlamalı imiş. Azərbaycanın anlamalı olduğu nədir? Özünün əzəli və əbədi torpağı olan Qarabağın taleyini müəyyənləşdirməyi Rusiyanın sonraya saxlamaq niyyətinimi? Bəlkə, Ermənistanın güclənib yenidən üstümüzə şığımasını gözləyək?

Əslində, Ermənistan da nəyisə anlamaq məcburiyyətində deyil. Ölkənin baş naziri deyir ki, Qarabağ da daxil olmaqla, 86,6 min kvadratkilometr ərazidə Azərbaycanın suveren hüquqlarını tanıyır. Burada baş sındırılacaq nə isə yoxdur. Görəsən, Rusiya düşünür ki, Nikol Paşinyanın bunu deməməli idi? Belə yanaşma nə dərəcədə səmimidir? Keçək, Rusiya XİN rəhbərinin digər fikrinə. “Təəssüf ki, indi ABŞ-ın və Avropa İttifaqının gördüyü işlərdə biz artıq danışıqlara kömək etmək arzusunu yox, regiona nüfuz etmək istəyini və Rusiya Federasiyasının qanuni maraqlarına təzyiq göstərmək, burada demək olar ki, həlledici rol oynayacaq bəzi qüvvələr kimi özünü təsdiqləmək istəyini görürük”, – deyə Lavrov bildirir. Azərbaycan öz qanuni haqqını istəyir. Bizə nə dəxli var ki, Avropa İttifaqı və ABŞ hansı məqsədi güdür? Bu yerdə də Azərbaycanla Ermənistanı eyniləşdirmək, əsla düzgün deyil.

Birincisi, Bakı illərdir balanslı siyasətinə sadiqdir. Yəni, heç bir halda özünü hansısa qlobal gücün mübarizə plasdarmı kimi görmək istəməyib. Heç indi də belə bir niyyəti yoxdur. Qərbin “altına yıxılıb” nankorluq edən Ermənistandır ki, onu da 30 ilə yaxın müddətdə bəsləyən məhz Rusiya olub. İrəvana görə Bakının qanuni istəklərinə üz çevirən axtarsaq, yenə Moskvanı görürük...

Qanuni maraqları var imiş! Harda yazılıb o qanun? Varmı elə bir sənəd ki, Cənubi Qafqazın Rusiyanın olduğunu təsdiqləsin? Qanuni haqq parçalayıb hökm sürməkdirmi? Cənubi Osetiya, Abxaziya, Dnestryanı, indi də Qarabağ?.. İstəmir də Ermənistan. Paşinyan daha necə deməlidir? Sərhəddə – Həkəri çayı üzərindəki körpüdə Azərbaycan hərbçisinə güllə atılır, Ermənistan Xarici İşlər Nazirliyi Rusiyanın ölkədəki səfirini çağırtdırıb deyir ki, məsələ sizlikdir. Yəni, təxribata görə, günahı Moskvada görür. Rusiya səfiri də XİN-dən çıxıb münaqişənin ancaq üçtərəfli bəyanat əsasında həllini rəhbər tutduğunu deyir. Faktiki olaraq, ittihamı üzərinə götürür. Budurmu səmimiyyət? Yaxşı, hərbçimizə güllə atan kim imiş?..

Rusiya 44 günlük müharibədən sonra yaxşı şans qazanmışdı ki, ədalətli vasitəçi olsun. Ölkə nə etdi? Özünün ermənipərəstlik duyğularına meydan tanıdı. İstədi ki, ondan üz döndərmiş İrəvana, necə deyərlər, şirinlik etsin. Alınmadı. Nə Paşinyan buna getdi, nə də böyük ölçüdə Ermənistanın ictimai rəyi. Nəticədə pusquda dayanmış Qərb bölgəyə yaxınlaşmağa başladı ki, həmin yaxınlaşmanın səbəbkarı yenə İrəvan oldu.

Bakı Azərbaycan-Ermənistan sərhədinin öz tərəfinə avropalı müşahidəçilərin gəlməsinə imkan vermədiyi – öz çapında Rusiyanın maraqlarını nəzərə aldığı, oyun qaydalarını pozmadığı halda, Paşinyan administrasiyası məsələ ilə ikiəlli razılaşdı. Bu gün də həmin missiya fəaliyyətdədir və Rusiyanın duruma təsir göstərəcək hansısa vəsiləsi yoxdur. Amma deyəsən, var. Qarabağda olan hərbi kontingent. Bölgədəki erməni separatizmi üçün silah-sursat daşınmasını müşahidə və müşayiət edən kontingent! Adları da var – sülhməramlı. Bəlkə, Lavrovun nəzərdə tutduğu səmimiyyət budur?

Bəli, Lavrov onda haqlıdır ki, Qərbin hərəkətləri onun “NATO və Aİ üzvlərinin sərhədlərindən uzaqda yerləşən regionlara genişlənmək istəyini əks etdirir və bunun vəziyyətin sabitləşməsinə kömək etmək üçün səmimi istəklə heç bir əlaqəsi yoxdur”. Həqiqətən, Qərb Ukraynada da elə etmişdi, yenə də eyni qaydada davam edir. Məsələ tam aydındır. Ancaq bunun Azərbaycana nə dəxli? Ölkəmiz Qarabağda hüquqi hakimiyyətini təmin etmək, haqqı olana sahiblənmək niyyətindədir. Rusiyanın əraziyə göndərdiyi Ruben Vardanyan kimi şarlatanlar isə Qarabağı müstəqil dövlət qismində görürlər. Moskvadakı bir sürü ekspert isə deyir ki, sən demə, Qarabağ erməniləri rusmeyilli imişlər, Paşinyan hakimiyyəti Rusiyaya qarşı çıxmaq üçün onları Azərbaycanın ixtiyarına verir. Belə bir absurdu düşünüb dövriyyəyə gətirmək hansı səmimiyyətin məhsulu ola bilər?

Burada yenə əvvəl vurğuladığımız məqama qayıdaq və diqqətə çatdıraq ki, Moskva 44 günlük müharibəyə son qoyan 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalanmasına nail olmaqla, regionda üstünlük qazanmışdı. Hətta, Qərb də onun sülhyaratma missiyasını alqışlamışdı. Bəs sonra nə oldu? Bu barədə danışdıq, yenidən üzərinə gəlmək istəməzdik. Ancaq Sergey Lavrovun növbəti fikirlərinə diqqət yetirməliyik. O deyir: "Biz digər beynəlxalq oyunçuların vasitəçilikdə əlini sınamasına qarşı deyilik... Əsas odur ki, bu vasitəçilik erməni və Azərbaycan xalqlarının, Ermənistan və Azərbaycan dövlətlərinin maraqlarının balansını əks etdirəcək razılaşmaların təmin edilməsi məqsədini güdməlidir”.

Nə maraq? Lavrov ziddiyyətli danışır, özünü faş edir. Bir tərəfdən deyir ki, “NATO və Aİ üzvlərinin sərhədlərindən uzaqda yerləşən regionlara genişlənmək istəyini əks etdirir və bunun vəziyyətin sabitləşməsinə kömək etmək üçün səmimi istəklə heç bir əlaqəsi yoxdur”, digər tərəfdən də xalqların marağından danışır. Bəs, Rusiya hansını seçir? Sual ritorikdir, çünki cavab bəllidir – birincini. Moskvanın xalqların maraqlarını təmin etmək kimi bir niyyətinin olduğu nağılına nə Ermənistanda, nə də Azərbaycanda inanan var.

Təsəvvür edin ki, o boyda Rusiyanın Cənubi Qafqazdakı “mövcudiyyət qalası” qismində Qarabağdakı erməni separatizmi görünürsə, hansı inamdan danışmaq mümkündür. Bu gün Azərbaycan Ermənistanın başına-gözünə döyə-döyə məcbur edir ki, separatizmdən əlini üzsün. Bunu hansı platformada gerçəkləşdirir, Qərbdə, ya Şərqdə heç fərqi yoxdur. Əsas odur ki, bacardığını edir, haqqına sahib çıxır. İndi Lavrov da durub xalqların və dövlətlərin maraqlarından dəm vurur. Halbuki ortada böyük haqq – Azərbaycanın haqqı var. O haqq ki, 30 ilədək müddətdə, obrazlı desək, boynuna kəndir salıb o tərəf-bu tərəfə fırladan Qərblə yanaşı, elə Rusiyanın özü də olmuşdu. Bu idimi səmimiyyət?

Sonda Lavrovun özünəməxsus səmimiyyət nümayişinin Azərbaycanı və Ermənistanı anti-Qərb ovqatına kökləmək motivindəki bir məqama da diqqət yetirək. Rusiya XİN başçısı ümid edir ki, Kremlin mövqeyini həm İrəvandakı, həm də Bakıdakı tərəfdaşları başa düşürlər. “Biz ən azı onlarla açıq şəkildə baş verənləri müzakirə edirik”. Görək, Cənubi Qafqaz xalqlarının maraq və mənafelərini düşündüyünü bildirən Kremlin xarici siyasət idarəsinin rəhbərinin fikri nədir? Çünki açıq danışmır. Yəni, demək istəyir ki, sülhə gəlməyin, bir-birinizi qırmağa davam edin? Yox, Lavrov belə pis fikrə düşməz. O, sülh istəyir, axı...

**Ə.RÜSTƏMOV,**
**“Xalq qəzeti”**

# Sözün kimi, adın da saxtadır, Ararat Mirzoyan!

## Minskdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələrin xarici işlər nazirləri Ararat Mirzoyanın “nağılı”na qulaq asıblar

(əvvəli 1-ci səhifədə)

Bunları Belarusun paytaxtı Minskdə keçirilən KTMT Xarici İşlər Nazirləri Şurasının iclasında Ermənistanın baş diplomatı Ararat Mirzoyanın Azərbaycanın ünvanına dediyi qırmızı yalanları nəzərdə tutub bildiririk. Fikirlərimizi bir qədər emosional tonda ifadə etməyimizin səbəbi həmin Mirzoyanın Belarus Prezidenti Aleksandr Lukaşenkonun hüzurunda Azərbaycan tərəfindən Ermənistanın suveren ərazilərinə qarşı işğalın davam etdiyini söyləməsidir. “Azərbaycanın hərəkətləri Cənubi Qafqazda sabitliyə nail olmaq səylərini əngəlləməyə yönəlib”,– deyən Mirzoyan işğal haqqında nağılına bölgədə, xüsusilə Ermənistan və Azərbaycan sərhədində və “Dağlıq Qarabağda” (?) baş verən son hadisələri də əlavə edib. Hayların naziri son günlər şərti sərhəddəki erməni mövqelərinin və mülki obyektlərin Azərbaycan tərəfindən hədələnməsindən də dəm vurub.

* * *

Minskdə KTMT Xarici İşlər Nazirləri Şurasının iclasını fürsət bilən Mirzoyanın Azərbaycanın ünvanına səsləndirdiyi yalan və böhtan dolu ittihamlar bununla bitmir. O, çıxışında “Dağlıq Qarabağda” (?) və onun ətrafında yaranmış vəziyyətə, o cümlədən Rusiya sülhməramlılarının məsuliyyət zonasında Azərbaycanın törətdiyi təxribatlara (?) iyunun 15-də Laçın yolunda Həkəri körpüsü yaxınlığında baş verən insidentə, burada qeyri-qanuni (?) şəkildə qurulmuş sərhəd-keçid məntəqəsi səbəbindən yaranmış humanitar böhrana (?) və getdikcə dərinləşən etnik təmizləmə təhlükəsinə (?) də toxunub.

Rəsmi İrəvanın son vaxtlar “vüsət alan” söz diplomatiyasının nəyə hesablandığını təxmin etmək çətin deyil. Sülh danışıqlarının intensivləşdiyi və nəticənin uzaqda olmadığı indiki mərhələdə ermənilər hər vasitə ilə prosesi tormozlamaq xəttini tutub. Bu zaman onlar çeşidli yalan və iftiralardan istifadə etməkdən belə çəkinmirlər. Şərti sərhəddə və Azərbaycanın Qarabağ iqtisadi rayonunda artan gərginlik İrəvanın son aylar müşahidə etdiyimiz davranış nümunələri ilə çox oxşardır. Yəni, Ermənistan hər dəfə sülh sazişi ilə bağlı qəti qərar qəbul etmək zərurəti yaranan həlledici məqamda bu məsuliyyətin altına girməməkdən ötrü analoji təxribatlara əl atır. Bu mənada Hayastan XİN-in başçısı Ararat Mirzoyanın Belarusun paytaxtında çıxışı ilə eyni gündə baş nazir Nikol Paşinyanın ölkə parlamentində söylədiyi nitqi arasında rahat paralellər tapmaq mümkündür.

* * *



2020-ci ildə 44 günlük müharibənin şəraitinin öyrənilməsi üzrə istintaq komissiyasında çıxış edən baş nazir Nikol Paşinyan özündən əvvəlki hakimiyyət yetkililərinin ünvanına ittihamlar yağdırıb. Onun sözlərinə görə, o zaman fəaliyyət göstərən hakimiyyət strukturları “Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü ilə heç bir əlaqəsinin olmadığını” deyirdilər. Çünki onlara görə, Dağlıq Qarabağ (?) eynilə Azərbaycan SSRİ-dən ayrıldığı kimi, 1991-ci ildə referendum yolu ilə Azərbaycan SSR-dən ayrılaraq müstəqillik (?) qazanıb. Amma bununla yanaşı, keçmiş hakimiyyət Qarabağın statusu ilə bağlı referendumun keçirilməsini nəzərdə tutan Madrid prinsiplərini qəbul etdi. Bununla da 1991-ci il referendumunun nəticələrinin “əhəmiyyətini və legitimliyini” sıfırladı. Bu prinsipləri qəbul etməklə Ermənistan faktiki olaraq Artsaxın (?) Azərbaycanın bir hissəsi olması ilə razılaşdı”. Hayastan baş naziri Robert Koçaryanı Qarabağdakı qondarma hakimiyyəti danışıqlarda iştirak imkanından məhrum etməkdə də suçlayıb: “Koçaryan Qarabağı hər cür müstəqillikdən (?) məhrum etdi və “DQ xalqı”nın iradəsini pozdu. Əslində, bu, “Dağlıq Qarabağ”ın beynəlxalq subyektivliyinin (?) sonu demək idi”.

Ermənistan baş naziri Nikol Paşinyanın məlum çıxışında səsləndirdiyi iddialarla bağlı Azərbaycan XİN şərh verib. Şərhdə deyilir ki, Ermənistan baş nazirinin müharibə zamanı hər bir danışıqdan və humanitar atəşkəsdən dərhal sonra müharibə zonasından kənar mülki əhalinin sıx yaşadığı Azərbaycan şəhərlərini raket atəşinə tutmasını və mülki əhalini qətlə yetirməsini danması Ermənistan tərəfinin faktları necə təhrif etdiyini bir daha göstərir.

XİN-in açıqlamasında qeyd olunur ki, Azərbaycanın, guya, 2011-ci ildən silahlanmanı və təxribatları artırmaqla vəziyyəti gərginləşdirdiyi barədə iddialar tamamilə əsassızdır: “Azərbaycan əraziləri işğal olunan andan etibarən BMT Təhlükəsizlik Şurasının və bir sıra digər beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında danışıqlar yolu ilə ərazilərinin geri qaytarılmasına səy göstərib. Bütün bunlara baxmayaraq, baş nazir Paşinyan tərəfindən şəxsən 2018-2019-cu illərdə nümayiş etdirilən təhrikçi ritorika da daxil olmaqla, uzun illər ərzində Ermənistan tərəfindən törədilən təcavüz aktının və təxribatların sülhə töhfə vermədiyi və 2020-ci ildə müharibə ilə nəticələndiyi hər kəsə məlumdur. Ermənistan tərəfinin tarixi səhvlərindən dərs çıxarması və post-müharibə dövründə sülh prosesinin uğurla nəticələnməsi işinə maneçilik törətmək səylərindən əl çəkməsi zəruridir”.

Bəli, İrəvanın Azərbaycanla sülh sazişini imzalamaqdan boyun qaçırması, sərhədlərin delimitasiya və demarkasiyasının aparılması əvəzinə, həmin şərti sərhəddə təxribatlar törətməsi onun başqa niyyətlər güddüyündən xəbər verir. Üstəlik, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycanın Qarabağ iqtisadi rayonundakı qanunsuz erməni silahlı dəstələrinin atəş açması rəsmi məhz İrəvanın bölgədə sabitliyi pozmaq cəhdi kimi də dəyərləndirilməlidir.

* * *

Qayıdaq Ararat Mirzoyanın Minskdə obıvatellərin diqqətinə üfürdüyü yalanlara. Diplomatik taktika və etiketlə qətiyyən bir araya sığmayan, özlərinin saxta və feyk versiyalarına uyan hayların baş diplomatı o anda azacıq geriyə boylansaydı, yaxın tarixin üzlərinə duracaq acı həqiqətlərin nəfəsini peysərində hiss edərdi.

Danışdıqların adın kimi saxtadır, Mirzoyan! Ararat Türkiyənin ərazisində yerləşən dağ zirvəsidir. Bunu coğrafiya kitablarınız bir yana, dövlət gerbinizə salmaqla necə bir riyakarlığa yol verdiyinizi baş naziriniz özü etiraf elədi. Hər şeyinizi bax bu cür saxta və yalanların üzərində bina etdiyinizdəndir ki, indi dörd tərəfiniz laxlamağa başlayıb. Yıxılmaq və batmaq qorxusundan yapışmağa saman çöpü arayırsınız. Amma əmin olun. Ətəyinə əl uzatdığınız KTMT indi sizi heç o saman çöpünə də layiq bilmir...

**İmran BƏDİRXANLI,**
**“Xalq qəzeti”**

# Paşinyanın “Günah keçisi” manifesti

## *Yaxud Nikolun “yetim məğlubiyyətinə ögey ata” axtarışı*

**Ötən sayımızda bu mövzuya toxunmuşduq. Bu gün bir qədər də ətraflı nəzər salmağı düşünürük. Ona görə də sərlövhəmiz dünənki yazımızın başlığını xatırladır. Əlbəttə, bir qədər fərqli formada. Bəli, mövzumuz prinsip etibarilə dəyişməzdir: Ermənistanın baş naziri Nikol Paşinyanın 44 günlük müharibə şəraitinin öyrənilməsi üzrə istintaq komissiyasının iyunun 20-də keçirilmiş iclasındakı çıxışı.**

Əvvəla, bildirək ki, haqqında söz açdığımız çıxış hay siyasi dairələrində böyük ajiotaj doğurub. Əslində, onu bir qədər də körükləyib desək, daha yerinə düşər. Özü də ajiotajın sərhədləri Ermənistanı aşıb. Baş nazirin söylədiklərinə Rusiyanın siyasi dairələrindən də reaksiyalar gəlməkdədir. Bu barədə yazımızın sonunda söz açacağıq.

### “Keçi axtarışında” preambula

Hələlik onu deyək ki, Nikol sanki 44 günlük müharibədən sonrakı “günah keçisi” axtarışlarını təzələmiş kimi görünür. O, ölkənin özündən əvvəlki rəhbərliyinə yüklənir. Konkret olaraq, sabiq prezidentlər Robert Koçaryan və Serj Sarkisyana. Elə görüntü yaradır ki, istər 44 günlük müharibədəki məğlubiyyət, istərsə də siyasi-diplomatik müstəvidə Qarabağın və Azərbaycanın işğal edilmiş digər torpaqlarının əldən çıxması onların yarıtmaz fəaliyyətinin nəticəsidir.

Nikolun arqumentləri maraqlıdır. O anlamda ki, bütün günahları öz üzərindən atmaq üçün kifayət qədər müxtəlif məqamlara toxunur. Əlbəttə, bizim üçün əsas olan onun dedikləri fonunda Ermənistanın ictimai-siyasi həyatındakı deqradasiyanın qabarıq şəkildə özünü göstərməsidir. Belə nəticəyə gələ bilərik ki, ölkə əhalisi ötən müddətdə total şəkildə aldadılıb. Nəzərə alaq ki, illüziyaların reallıq kimi təqdimatı erməni xəstəliyinin bariz təzahür formasıdır. Əslində, Paşinyanın fikirləri həm də həmin xəstəliyin alt qatlarının mükəmməl təsviridir.

### Koçaryan – “buynuzlu keçi”

Başlayaq Nikolun Ermənistanın ikinci prezidenti Robert Koçaryana ünvanlanmış tənqidlərindən. O bildirir ki, Koçaryan Azərbaycanla danışıqları bağlı qapılar arxasında aparıb. Prosesdə Qarabağın Azərbaycanın tərkibindəki statusu məqbul hesab edilib. Lakin əhalinin bundan xəbəri olmayıb. İctimai bəyanatlar və dövlət təbliğatı səviyyəsində tamam fərqli məsələlər gündəmə gətirilib. Məsələn, həmin vaxt Ermənistan telekanalları Qarabağın və yeddi rayonun ölkənin tərkibindəki vahid xəritəsini göstərməyə başlayıblar. Oxşar xəritələr ictimai yerlərdə, hətta dövlət qurumlarında da asılıb. Necə deyərlər, arxayınlıq formalaşdırılıb.

Ümumən Koçaryanın apardığı danışıqların heç birində Qarabağa aidiyyatı olmayan rayonların qaytarılmaması kimi məqam yer almayıb. Azərbaycanla Ermənistan arasında danışıqlar gedə-gedə yeddi rayonun erməni toponimləri dövriyyəyə buraxılıb. Füzuli Varanda, Ağdam Akna, Qubadlı Sanasar, Zəngilan Kovsakan, Cəbrayıl Mehakavan, Kəlbəcər Karvaçar, Laçın Kaşatağ adlandırılıb. Danışıqlar isə Azərbaycan toponimlərindən istifadə olunmaqda davam edib, vətən elan edilən əraziləri alaq otları basıb, bəzi hallarda generallar hərbi qulluqçuların əməyindən istifadə edərək, orada buğda əkiblər. Bundan əvvəl isə birinci prezident Levon Ter-Petrosyanın “ələ keçirilmiş ərazilər”, daha sonra keçmiş xarici işlər naziri Vardan Oskanyan isə “işğal edilmiş ərazilər” ifadələrini işlədib. Yəni, Nikol demək istəyib ki, bu şəxslər də Qarabağı və digər yeddi rayonu Ermənistan torpaqları kimi görməyiblər.

N.Paşinyan deyib ki, Ermənistan hakimiyyəti Qarabağın statusu ilə bağlı referendumun keçirilməsini nəzərdə tutan Madrid prinsipləri ilə razılaşdığı üçün 1991-ci il Qarabağda ərazinin öz müqəddəratını təyin etməsi ilə bağlı reallaşmış referendumun nəticələri və legitimliyi şübhə altına düşüb.

“Koçaryan Qarabağı istənilən müstəqillikdən məhrum etdi və Qarabağ xalqının iradəsini pozdu. Üstəlik, o, bölgəni beynəlxalq səviyyədə tanınma statusundan da məhrum etdi”, – deyən Nikol ikinci prezidenti 1998-ci il seçkilərində saxtakarlıqla hakimiyyətə yiyələnməkdə və qeyri-legitim formada dövlət başçısı postunu tutmaqda da ittiham edib. Onun sözlərinə görə, həmin vaxt qüvvədə olan qanunvericilik Koçaryanın prezidentliyə namizədliyini irəli sürməsinə imkan vermirdi. Robert Qarabağın beynəlxalq səviyyədə tanınma və legitimlik əldə etmək şanslarını dünya ictimaiyyətinin Ermənistanda hakimiyyətin qəsbinə göz yumması üçün qurban verib.

### Sarkisyan – “buynuzsuz keçi”

Bəs, üçüncü prezident Serj Sarkisyan nə edib? Paşinyanın bildirdiyinə görə, Sarkisyan konstruktiv danışıqçı imicini qazanmağa çalışıb və “pis danışıqlar yaxşı müharibədən yaxşıdır” kimi təhlükəli tezis irəli sürüb. Başa düşməyib ki, “pis danışıqlar” yolu Azərbaycana müharibəyə hazırlaşmaq imkanı verib. Bundan əlavə, Ermənistan hakimiyyətinin bu cür yanaşması yalvarış kimi səslənib. Azərbaycan isə əksinə, “mənə istədiyimi sülh yolu ilə ver, əks halda müharibə yolu ilə əldə edəcəyəm” prinsipini əsas götürərək savaşa hazırlıq görüb.

Paşinyanın fikrincə, Madrid prinsiplərinin qəbulu nəinki 1991-ci ildə Qarabağda keçirilmiş referendumun nəticələrini



heçə endirdi, eyni zamanda, imkan verdi ki, Azərbaycan Qarabağ ətrafındakı yeddi rayonun məsələsini də Qarabağ müstəvisinə çıxarsın. Madrid prinsipləri, daha sonra 2010-cu ildə Ermənistanın inzibati-ərazi bölgüsü haqqında qanun qəbul edildi ki, ikinci sənəddə yeddi rayon “Dağlıq Qarabağ Respublikası” deyil, Azərbaycanın ərazisi kimi tanındı.

Bütün bunlarla yanaşı, Ermənistan tərəfi “plebissit keçirmək vədi” aldı. Halbuki, onun keçirilməsinin vaxtı de-fakto Azərbaycanın istəyindən asılı idi. Çünki qərarın konsensusla qəbulu əsas götürülürdü. Belə bir şəraitdə plebissitin, yəni referendumun təşkilində maraqlı tərəf sonradan onun necə düzənləməyi və ya heç olmamasını diktə edir. Bundan əlavə, proses zamanı hansı sualın veriləcəyi ilə bağlı heç bir məhdudiyyət yox idi. Əgər tərəflər məsələdə razılığa gəlməsələr, onda proses sadəcə baş tutmamış sayılır, nəticədə Qarabağ statussuz, başqa sözlə desək, Azərbaycanın tərkibində qalırdı. Baş nazir onu da xatırladıb ki, Ermənistan tərəfi Sarkisyanın hakimiyyəti illərində çoxsaylı risklər görüb və onları idarə etməyə çalışıb. Kazan prosesi vasitəsilə Qarabağa aralıq statusu verməyə çalışıb.

### Baş nazir “demokratiyanın qladiatoru” qiyafəsində

Bəli, Paşinyanın 44 günlük müharibə şəraitinin öyrənilməsi üzrə istintaq komissiyasının iclasında səsləndirdikləri, onun ancaq Azərbaycanın gücü ilə hesablaşmasının nəticəsidir. Daha doğrusu, o, sübut edir ki, yalnız Bakının gücü torpaqların işğaldan azad edilməsinə gətirə bilərdi. Bu məqamı heç də əbəs yerə vurğulamadıq. Çünki yuxarıda da bildirdiyimiz ki, Nikol hazırda 44 günlük müharibəyə görə sanki “günah keçisi” axtarışındadır. Və o keçi qismində həm ölkənin ikinci, həm də üçüncü prezidentini görür. Hərçənd, baş nazirin Sarkisyandan çox Koçaryanın üstünə getdiyi aşkardır.

Nikolun çıxışındakı qeyri-səmimilik isə bundadır ki, o, Qarabağın yalnız əvvəlki hakimiyyətlərin səhvi səbəbindən, belə demək mümkünsə, əldən çıxdığı düşüncəsindədir. Yəni, Paşinyan üçün bölgənin əbədi və əzəli Azərbaycan torpağı olması məntiqi yaddır. O, əsl həqiqətləri dilə gətirməkdən uzaqdır. Sanki Qarabağ danışıqlar masası arxasında uduzulmuş ərazidir. Baş nazir oyunda özünün iştirak etmədiyini bildirir, məsuliyyəti boynundan atır.

Nəzərə alaq ki, “Qarabağ Ermənistandır– nöqtə” bəyanatını verən, “yeni ərazilər uğrunda yeni müharibə” şüarını irəli sürən nə Koçaryan idi, nə də Sarkisyan. Bunu Paşinyan etmişdi. Baş nazirin söylədiklərindən belə nəticə çıxarmaq olar: O, hakimiyyətə yiyələnəndə də indi dilə gətirdiyi qənaətə gələrək görüb ki, Qarabağın, o cümlədən digər Azərbaycan torpaqlarının Ermənistana məxsusluğunun təsdiqi üçün şans qalmayıb. Səmimi olsaydı, torpaqları müharibəsiz qaytarardı. Başqa sözlə, şanssızlığını əvvəldən bilər və bəyan edərdi. Etmədi və özünü “demokratiyanın qladiatoru” kimi apararaq, ölkəmizə qarşı demarş xətti götürdü. Nəticədə Ermənistan üçün böyük rüsvayçılıqla sona çatmış 44 günlük müharibə qaçılmaza çevrildi.

Bir məqamı da vurğulayaq ki, Paşinyan 44 günlük müharibə şəraitinin öyrənilməsi üzrə istintaq komissiyasının iclasının qapalı yox, açıq şəkildə keçirilməsini istəyib. Yəni, özü bütün suallara açıq cavab verməyi vacib sayıb. Bu da təsadüfi deyil. Nikol yaxşı başa düşür ki, Qarabağ da daxil olmaqla, Azərbaycanın 86,6 min kvadratkilometr ərazidə suverliyini tanıması ona qarşı ciddi təzyiqlər doğurub. Buna görə çalışır ki, müharibə və Qarabağ danışıqları ilə bağlı bütün detalları açıqlasın və həmin təzyiqləri özündən uzaqlaşdırsın. Beləliklə də hakimiyyətini saxlamaq üçün mənəvi immunitet qazansın.

### Məğlubiyyət insanı “yetim gününə” qoyur

İndi isə gələk sonda bildirəcəyimizi vurğuladığımız məqama. Bəli, Ermənistan baş nazirinin sözləri Rusiya siyasi dairələrində də müzakirəyə səbəb olub. Bu baxımdan Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun tərkibindəki Beynəlxalq Tədqiqatlar İnstitutunun Avro-Atlantika Təhlükəsizlik Mərkəzinin aparıcı elmi işçisi, politoloq Sergey Markedonovun bildirdikləri maraqlıdır. Markedonov “Don kazakı” teleqram kanalında N.Paşinyanın nə üçün İkinci Qarabağ müharibəsi müstəvisində tarixə baş vurduğuna 5 müstəvidə özünəməxsus izah verib. Həmin izahatı təqdim edirik:

**1.** Ermənistanın baş naziri ictimai məkanda İkinci Qarabağ müharibəsinin nəticələri mövzusunu yenidən gündəmə gətirir. Siyasətçi tarixçi deyil. Paşinyanın mənbəşünaslıq problemləri ilə peşəkarcasına məşğul olması ehtimalı azdır. Onun fərqli motivasiyası varmı? Bu nədədir? Onun “İyun tezisləri”nin indi ortaya çıxması təsadüfdürmü? Bu tezislərin dilə gətirilməsinin siyasi nəticələri olacaqmı?

**2.** Demək olmaz ki, 2023-cü il iyunun 20-də N.Paşinyan İkinci Qarabağ müharibəsi empirizmində (və bütövlükdə, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli prosesində) prinsipial olaraq yeni bir şey kəşf etdi. Prezident Vladimir Putin Rusiyanın vasitəçiliyi və atəşkəs variantları haqqında dəfələrlə danışmışdı. Əslində, Putinin baxış bucağı daha geniş idi. Bu gün Paşinyanın sözlərində yeni heç nə yoxdur. Sual yaranır: Nəyə görə, indi “yaraları qanatmaqla” məşğuldur?

**3.** Çünki Ermənistan xoşagəlməz və dəhşətli sayılacaq spektrdə qərar qəbul etmək üçün çətin çağırışlar və perspektivlərlə üzləşib. 1994-2020-ci illərdəki status-kvoya qayıtmaq mümkün deyil. Hətta, baş nazirin alovlu əleyhdarları da bunu başa düşürlər. Hərbi resurslar və kritik ictimai dəstək yoxdur. Kənar oyunçular da İrəvanın ötən illərdəki maksimalist planlarını həyata keçirməyə həvəsli deyillər. Beləliklə, qeyri-populyar qərarların qaçılmazlığı zərurəti yaranır. Nəticədə Ermənistan cəmiyyəti və siyasətçiləri ardıcıl hekayələr tapmaq məcburiyyətindədirlər. Hətta bu, acı dərman formatında olsa belə lazımdır. Güzəştlərin və məğlubiyyətlərin qaçılmazlığı haqqında tezislərin fəal şəkildə təbliği də buna görədir.

**4.** Paşinyan siyasi prezentizmlə məşğul olur. Məsuliyyəti sələflərinin, o cümlədən Rusiyanın üstünə atır? Bəli, təbii ki, o, alim deyil, siyasətçidir. O, konkret şəraitdə hakimiyyətini saxlamaq istəyir. Halbuki vəziyyətin indiki şəklə düşməsində onun da günahı var. Bunu inkar etmək çətindir. Amma obyektivlik naminə biz digər “məğlubiyyət atalarını” tanımalıyıq. Burada bir məqam var: adətən məğlubiyyət “yetimdir”, zəfərin isə “valideynləri” çox olur!

**5.** Ermənistan cəmiyyəti və bütövlükdə, siyasi sinfi Nikol Paşinyan və Robert Koçaryan arasındakı münaqişədən kənardakı mürəkkəb sistemli problemləri dəfələrlə müzakirə etməli olacaq. Hazırda isə ölkədə siyasi gündəmi yalnız xəyallar müəyyən edir.

**Ə.CAHANGİROĞLU,**
**“Xalq qəzeti”**

# Hədəfdə Paşinyanın “strategiyası”dır

## *Erməni politoloq Gevorq Mirzayan Hayastan baş nazirini “top atəşi”nə tutur*

**(əvvəli 1-ci səhifədə)**

Paşinyan hökumətinin qondarma “erməni soyqırımı”nın tanınması prosesinin başa çatdığını elan etməsi, baş nazirin diaspor üzrə səlahiyyətli nümayəndəsi Zare Sinanyanın “erməni soyqırımı” mövzusunun Ermənistanın xarici siyasət gündəliyindən çıxarıldığını etiraf etməsi Rusiya haylarını Paşinyandan narazı salan əsas məqamlardandır. Hətta, Rusiyadakı erməni diaspor və lobbisinin əsas fiqurlarından olan Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini Konstantin Zatulinin və “Russian Today” dövlət telekanalının, “Rusiya bu gün” (RİA-Novosti) və “Sputnik” informasiya agentliyi kimi nəhəng media şəbəkəsinin baş redaktoru Marqarita Simonyanın Ermənistana girişi qadağan edilib.

***

Rusiyada Paşinyandan ciddi narazı olan haylardan biri də politoloq, ictimai xadim Gevorq Mirzayandır. Məlumat üçün bildirək ki, G.Mirzayan 1984-cü ildə Daşkənddə anadan olub. Kuban Dövlət Universitetini bitirib. Siyasi elmlər üzrə namizəddir, ABŞ üzrə ixtisaslaşıb. 2005-ci ildən 2016-cı ilədək Rusiya Elmlər Akademiyasının ABŞ və Kanada İnstitutunun elmi işçisi olub. Hazırda Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin politologiya kafedrasının dosentidir. 2007-ci ildən “Ekspert”, “Snob” jurnallarının və digər nəşrlərin dünya siyasəti şöbəsinin köşə yazarıdır. Hazırda “Komsomolskaya pravda” radiosunun efirində qlobal siyasət üzrə analitik kimi



çıxış edir. Azərbaycan cəmiyyəti Mirzayanı əsasən 2016-cı ilin aprel döyüşləri və ondan sonrakı günlərdə Rusiyanın müxtəlif telekanallarındakı tok-şoularda etdiyi bədnam çıxışlarından tanıyır.

G.Mirzayan bu yaxınlarda “Vzqlyad” qəzetində N.Paşinyanın siyasətinə qarşı ciddi tənqidi məqalə ilə çıxış edib. “Qarabağın təslim edilməsi Paşinyanın strategiyasında sonuncudan əvvəlki addımdır” sərlövhəli məqalədə müəllif yazır ki, N. Paşinyan postsovet məkanında bəlkə də ən inadkar siyasətçilərdən biridir: “2018-ci ildə hakimiyyətə gəldikdən sonra o, ardıcıl olaraq fəaliyyət proqramını icra etdi və indi öz strategiyasının son addımının – Qarabağın təslim edilməsinin astanasındadır. Paşinyan bu yaxınlarda deyib ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tam olaraq tanıyır və İrəvan da Azərbaycanın eyni addımı atmasını gözləyir. O, əlavə edib ki, bu qarşılıqlı tanınmalar tərəflər arasında tamhüquqlu sülh müqaviləsinin imzalanması üçün əsas ola bilər. İlk baxışda Nikol Vovayeviçin bu bəyanatında qəribə və fitnəkar heç nə yoxdur. Birincisi, Ermənistan əvvəllər də “dqr”i (dırnaq işarəsi bizimdir-S.H.) Azərbaycanın bir hissəsi kimi formal olaraq tanıyıb. Erməni məmurlar və fəallar bunu inkar edirlər – lakin İrəvan rəsmən nə “dqr”in müstəqilliyini, nə də onu Ermənistanın bir hissəsi kimi tanıyıb. Beləliklə, məlum olur ki, o, Azərbaycanın Qarabağın faktiki “müstəqillik” əldə etməmişdən əvvəlki ərazi bütövlüyünü tanıyıb. Əslində, Qarabağ məsələsi ilə bağlı bütün sülh danışıqları bu ümumi etiraf əsasında gedirdi.

İkincisi, Paşinyan, deyəsən, prioritetlər sistemi qurmağa çalışır. Onun üçün əsas prioritet Ermənistanın ərazi bütövlüyü və təhlükəsizliyidir. Çünki Azərbaycan indi sərhədlərin müəyyənləşmədiyi bəhanəsi ilə Ermənistan ərazisinə müdaxilə (?) edir. Paşinyan isə Bakının işğaldan (?) imtina etməsini Qarabağın Ermənistan tərəfindən Azərbaycan ərazisi kimi tanınması ilə dəyişməyə çalışır. İrəvan hələ Ermənistana nəzarət edə bilər, lakin Qarabağa artıq nəzarət etmək mümkün deyil. 2020-ci ildə İkinci Qarabağ müharibəsində qələbədən sonra Azərbaycan qoşunları özünü elan etmiş “respublika”nın bir hissəsini “işğal” edib, qalan hissə isə yalnız Rusiya sülhməramlılarının bölgəyə gətirilməsinə görə de-fakto “müstəqilliyini” qoruyub saxlayıb”.

Göründüyü kimi, G.Mirzayan məsələyə birtərəfli və qərəzli yanaşır. O, Ermənistanın Qarabağ məsələsində üzləşdiyi duruma görə məsuliyyəti bütünlüklə Paşinyanın üzərinə atır. Halbuki, Azərbaycan öz ordusunun hesabına işğal altındakı torpaqlarını azad edib. Ölkəmizdə ordu quruculuğu prosesi yüksək sürətlə gedirdi və Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Azərbaycanın haqlı davasında zəfər çalacağı şübhə doğurmurdu. Post-müharibə dövründə də qalib tərəf kimi Azərbaycan şərtləri diktə edir. Bu baxımdan Paşinyanın rəsmi Bakı ilə razılaşmaya getməkdən başqa çarəsi yoxdur.

Erməni politoloq daha sonra yazır: “Qarabağdakı ermənilərin müstəqilliyi çox güman ki, maksimum daha iki il davam edəcək – 2025-ci ildə Rusiya sülhməramlılarının mandatı başa çatır, bundan sonra Bakı onu yeniləməkdən tamamilə imtina edə bilər. Ruslar gedəndən sonra isə onları qoruyan olmayacaq. Azərbaycan Prezidenti artıq bəyan edib ki, yerli sakinlər ya Azərbaycan vətəndaşlığını qəbul etməli, ya da yaşamaq üçün başqa yer axtarmalıdırlar. Aydındır ki, yalnız bir seçim var – mühacirət etmək. Yerli əhali Azərbaycan vətəndaşlığını qəbul etsə belə, bu, onları ayrı-seçkilikdən və təqiblərdən qoruya bilməz – Azərbaycanda ermənilərə dehumanist yanaşan bütöv nəsillər yetişib. Ona görə də Paşinyan onsuz da itirəcəyini (Qarabağı) Ermənistanın azadlığı və təhlükəsizliyi naminə faktiki olaraq dəyişir. Və bu, çox məntiqli addım kimi görünür”.

G.Mirzoyan bu yerdə yenə regiondan xəbərsiz olduğunu nümayiş etdirir. Onun nəzərinə çatdırmağı özümüzə borc bilirik ki, Azərbaycanda ermənilərə dehumanist yanaşan yox, vətənpərvər gənclik yetişib. Azərbaycanda 30 mindən çox erməni yaşayır. 2021-ci ilin oktyabrında Lenta.ru saytı Bakıda yaşayan ermənilərdən reportaj hazırlamışdı. “Ermənilər Azərbaycanda necə yaşayırlar və iki müharibədən sonra niyə hələ də sülhə inanırlar” sərlövhəli məqalə saytın bazasında durur. G.Mirzoyanın bu reportajla tanış olması məsləhətdir. Yaxud, Ermənistan silahlı qüvvələrinin 13 il (1994-2007) baş qərargah rəisi, bir il (2007-2008) isə müdafiə naziri olan general-polkovnik Mikael Arutyunyanın bacısı Zoya Arutyunyan Kürdəmir rayonunun Şıxımlı kəndində öz ömrünü yaşamaqdadır. Məgər, onlara kimsə “gözün üstdə qaşın var” deyir? Bütün bu faktlar ortada ikən Rusiyada yaşayan erməninin bu cür fikirlər səsləndirməsi acı təəssüf doğurur. Özünü alim adlandıran, Rusiyanın akademik dairələrinə sıryan şəxs bütöv bir xalqın demonlaşdırmasını həyata keçirməzdən qabaq yaxşı-yaxşı düşünməlidir. Əks-təqdirdə onun obyektivliyi ciddi sual altına düşəcək. Mirzayan bu yanaşma ilə ənənəvi hay təfəkkürünə mənsub olduğunu ortaya qoyur. Belələri dünyanın harasına getsələr də, öz xəstə düşüncələrindən əl çəkməzlər. Necə deyərlər, donuz rəngini dəyişər, xasiyyətini yox.

***Səxavət HƏMİD,***
***“Xalq qəzeti”***

# Heydər Əliyev: “Nizami Gəncəvini dahi azərbaycanlı kimi dünyaya təqdim etməliyik...”

**“Xalq qəzeti”nin 2023-cü il – Heydər Əliyev ilinə həsr etdiyi “Heydər Əliyev xatirələr işığında” layihəsində ilk qonağımız olan görkəmli dövlət xadimi və diplomat Həsən Həsənovla 6 hissədən ibarət söhbətimiz oxucular arasında böyük maraqla qarşılandığı üçün təkrar görüşüb geniş müsahibə almaq qərarına gəldik. Beləliklə, xatirələr dolu 7-ci söhbətimizi təqdim edirik.**



## VII SÖHBƏT

**– Həsən müəllim, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illər təkcə sosial-iqtisadi intibah dövrü olmadı, həm də elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın, incəsənətimizin intibah dövrü idi. Azərbaycanda bu intibaha yol açmaq üçün Heydər Əliyevin təbii ki, sehirli çubuğu yox idi. Bəs buna necə nail olurdu?**

– İstənilən fəaliyyət sahəsində, xüsusilə dövlət idarəçiliyində sistemli yanaşma olmalıdır. Bir var təsadüfi diqqət, bir də var daimi, ardıcıl fəaliyyət. Təsadüfi diqqətlə, təbii ki, nə mədəniyyətdə, nə elmdə, nə də iqtisadiyyatda intibah ola bilməzdi. 1981-ci ildə mən Azərbaycan KP MK-nın ideoloji katibi təyin ediləndə, artıq bu proseslər geniş vüsət almışdı. Bir gün Heydər Əliyev mənə dedi, “Azərbaycan tarixi”nin, “Azərbaycan ədəbiyyatı tarixi”nın, hətta “Azərbaycan fəlsəfəsi tarixi”nin çoxcildliyini hazırlayıb nəşr etməliyik. Bu nəşrlərin üzərində ciddi iş başlamışdı və böyük şəkildə gedirdi. Amma bütün bunlara baxmayaraq, həmin dövrdə elmimiz Heydər Əliyevin istədiyi səviyyədə, potensialda və bu işləri görməyə hazır səviyyədə deyildi. Niyə bunu deyirəm?

Məsələn, həmin illərdə Azərbaycanın fəlsəfə tarixinin rus dilində nəşri ilə bağlı ciddi diskussiya gedirdi. Diskussiya nəşri necə adlandırmaq ətrafında aparılırdı: “İstoriya filosofii Azerbaydjana” (“Azərbaycanın fəlsəfə tarixi”), yaxud “İstoriya Azerbaydjanskoy fiosofii” (Azərbaycan fəlsəfəsinin tarixi”). Burada fərq nədən ibarət idi: Nəşr “İstoriya filosofii Azerbaydjana” olsa, o zaman respublikamızın ərazisində yaranan hər hansı fəlsəfədən söhbət gedir, yəni sırf milli fəlsəfə nəzərə alınmamış olurdu. Bir qism alimlərimiz isə deyirdilər ki, “İstoriya Azerbaydjanskoy filosofii” olmalıdır. Burada artıq milli mənsubiyyət ehtiva olunurdu.

Eynilə “Azərbaycan tarixi” nəşrində də bu məsələ ortaya çıxdı. Məsələn, akademik İqrar Əliyev qədim Azərbaycanda yaşayan xalqların türk əsilli olmasını inkar edirdi. Bizim ölkəmizdə iki məfhum var, Azərbaycan milləti və Azərbaycan xalqı. Azərbaycan milləti o deməkdir ki, azərbaycanlılar özlərini türk əsilli sayırlar. Ulu babalarımız bir etnosa aid olaraq dilləri də eynidir. Həmçinin Azərbaycanda yaşayan ləzgilər, talışlar, avarlar, udinlər, kürdlər və digər millətlərin də milli mənsubiyyətləri, tarixləri, öz dilləri, folklorları və adət-ənənələri var. Belə ki, bütün millətlər birlikdə Azərbaycan xalqını təmsil edirik. Yəni, bu dövlətdə, bu torpaqda yaşayan hər millət öz mənsubiyyəti, tarixi və adət-ənənələri ilə qürur duyur. Amma bütün bu millətlər bu torpağın sahibidirlər və vahid bir Azərbaycan xalqıdırlar. İkinci Qarabağ müharibəsi də göstərdi ki, milli mənsubiyyətindən asılı olmayaraq, hamı vahid Azərbaycan xalqı kimi ayağa qalxıb öz torpaqlarını işğaldan xilas etdi.

Sovet dövründə tarixçilərimiz arasında kəskin mübahisələr yarandığı üçün ortaya fundamental bir tədqiqat əsəri qoymaq mümkün olmadı. Digər sahələrdə də belə tendensiyalar müşahidə edilirdi. Burdan çıxış edərək deyirəm ki, Heydər Əliyev elmimizi, incəsənətimizi qabaqlayırdı. Yəni, Heydər Əliyev görürdü ki, hansı işləri həyata keçirmək lazımdır, hansı elmi sahələrdə fundamental əsərlər yazıb nəşr edilməlidir. Ona görə də Heydər Əliyevin yaratdığı və impuls verdiyi təşəbbüslər artıq müəyyən dövrdən sonra bir çox sahələrdə intibaha gətirib çıxardı və bu da milli özünüdərkə meydan açdı. Məsələn, akademik Ziya Bünyadov “Atabəylər dövləti” tarixi tədqiqat əsərini yazıb nəşr etdirdi və əsər Dövlət mükafatına layiq görüldü. Buna qədər Azərbaycan tarixi üzrə heç bir əsərə dövlət mükafatı verilməmişdi.

Məhz həmin dövrdə və bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə “Babək”, “Dədə Qorqud”, “Nizami”, “Üzeyir Hacıbəyov” kimi bədii tarixi filmlər çəkildi. Silsilə romanlar, tarixi əsərlər yazıldı. Əlbəttə, bütün bunlar milli düşüncənin formalaşmasına böyük töhfə oldu. Heydər Əliyevin uzaqgörənliklə həyata keçirdiyi siyasətin mahiyyətində bu məsələ dururdu.

Heydər Əliyev həmin illərdə Bakının inkişafına xüsusi diqqət yetirirdi. Bir çox möhtəşəm binalar, mədəniyyət müəssisələri, hotellər inşa olundu, parklar, xiyabanlar salındı. Bütün bunlar onun birbaşa nəzarəti ilə həyata keçirilirdi. İşinin başdan aşmasına baxmayaraq, şəhərsalmaya xüsusi diqqətlə yanaşırdı.

**– Azərbaycanda ədəbiyyat, incəsənət adamlarına, musiqiçilərimizə yüksək dövlət mükafatlarının verilməsi, onların istedadlarının ittifaq səviyyəsində yüksək dəyərləndirilməsi üçün Heydər Əliyev xeyli iş görüb. Bununla bağlı yaddaşınızda hansı xatirələr qalıb?**

– Söhbətlərimizin birində soruşdum ki: “Siz bütün bunlara necə nail olursunuz? Axı bizimkilərdən təltif olunan şəxslərin sayı həddindən çoxdur”. Dedi: “Həsən, Moskvada Siyasi Büroda da bu sualı mənə verdilər”. Soruşdum: “Kim verdi?” Dedi: “Ukraynanın birinci katibi soruşdu ki, Heydər Əliyeviç, Azərbaycan Ukraynanın beşdə biri boydadır və əhalisi də Azərbaycan əhalisindən bir neçə dəfə çoxdur. Amma sizdə Sosialist Əməyi Qəhrəmanları bizimkilərdən xeyli çoxdur. Bu necə olur?” Bir az da səbirsizlik edib soruşdum ki, “siz nə cavab verdiniz?” Gülümsəyib dedi: “Dedim, əvvəla bu insanları mən Mərkəzi Komitənin aparatında böyütməmişəm ki. Onlar illərlə elmdə, mədəniyyətdə, incəsənətdə, fəaliyyət göstərən şəxslərdir. Sadəcə, mən onları dəyərləndirməyi bacarıram. Onların sovet mədəniyyəti çərçivəsində yerlərini müəyyənləşdirib Sosialist Əməyi Qəhrəmanı adına təqdim edirəm. Varınızdısa, Siz də təqdim edin”.

Bax, o zaman Heydər Əliyev belə bir formula dedi. Bu cavabından belə nəticə çıxırdı ki, “Zər qədrini zərgər bilər”. Rəşid Behbudov, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rüstəm, Rəsul Rza, Süleyman Rəhimov və digər şəxslərə həm şəxsi diqqət göstərirdi, həm də onların öz sahələrində inkişafına təkan verirdi. Yadımdadır, hətta o zaman Heydər Əliyev Azərbaycan Neft Akademiyasının rektoru olmuş İsmayıl İbrahimovu 1982-ci ildə SSRİ Dövlət Mükafatına təqdim etdi, 1986-cı ildə isə ona Sosialist Əməyi Qəhrəmanı adının verilməsinə nail oldu.

**– Həsən müəllim, istərdik ki, Heydər Əliyevin Azərbaycan gənclərinin ittifaqın ən tanınmış ali məktəblərinə göndərilməsi ideyasının necə meydana gəlməsilə bağlı da fikirlərinizi açıqlayasınız, çünki bu da, sizin, yəni ideoloji katibin tabeliyində olan məsələ idi.**

– Ümumiyyətlə, Heydər Əliyev çox kreativ şəxsiyyət idi. Novatorluğu da bundan irəli gəlirdi. Adam var kreativlik təkcə onun sözündə müşahidə edilir. Yəni, ideyanı verdi, ancaq onu həyata keçirməyin yollarını göstərmədi və ya həyata keçirmədi. Heydər Əliyev bütün bu silsiləni – yəni, hansısa təşəbbüsünün yarandığı gündən reallaşacağı günə qədər inkişaf etdirirdi. İdeya ondan irəli gəldi ki, bizdə sənayenin və kənd təsərrüfatının əksər sahələrində müvafiq ali təhsilli mütəxəssislər yox idi.

Ancaq bir misal gətirəcəm. Naxçıvanski adına Hərbi Məktəb də belə ideyalardan biri idi. Heydər Əliyev hərbi məktəbin yaradılması təklifi ilə ilk dəfə Moskvaya müraciət edəndə, Kreml onu bu ideyadan daşındırmağa çalışdı. Heydər Əliyev təkid etdi. Moskva kompromis təklif etdi ki, Rusiya və Ukraynada mövcud olan Suvorov Hərbi Məktəbinin, Naximov adına Hərbi-Dənizçilik Məktəbinin Bakıda filiallarını açaq. Heydər Əliyev etiraz etdi və dedi ki, bizə filiallar lazım deyil. Bizə özümüzün idarə edə biləcəyimiz hərbi orta məktəb lazımdır. O zaman Sovet İttifaqında ancaq Rusiyanın və Ukraynanın hərbi məktəbləri var idi, başqa heç bir respublikanın öz hərbi məktəbi yox idi. Heydər Əliyev ideyanı da verdi, onu həyata da keçirdi. Hər il o məktəbə gedər, oradakı vəziyyətlə maraqlanardı.

Heydər Əliyevin Kremldə böyük nüfuzu vardı və sözü keçirdi. Ona qədər Azərbaycanın heç bir rəhbərinin sovet rəhbərliyi ilə birbaşa əlaqəsi yox idi. Hətta Mircəfər Bağırov belə, birbaşa Stalinə söz deyə bilməyib. Moskvada onun lobbiçiliyini Beriya edirmiş, nə sözü olurmuş, ona deyirmiş. Yeganə Heydər Əliyev idi ki, SSRİ rəhbərliyi ilə birbaşa əlaqə yaratmışdı və sözünü bilavasitə birinci şəxsə deyirdi. Məsələn, Məişət Kondisionerləri Zavodunun tikintisini Ukraynaya vermişdilər, hətta qərar da var idi. Heydər Əliyev o qərarın dəyişdirilməsinə və zavodun Bakıda tikilməsinə nail oldu.

**– Həsən müəllim, siz Azərbaycanın üç ayrı-ayrı regionlarında rəhbər olmusunuz – Səbail, Sumqayıt, Gəncə. Heydər Əliyev bu təyinatları verəndə hansı keyfiyyətlərinizi əsas götürürdü?**

– Heydər Əliyev məni 26-lar rayon partiya komitəsinə başçı göndərəndə məni şərti desəm, “qiyabi tanıyırdı”. O zaman Heydər Əliyevlə birbaşa əlaqələrimi barmaqla saymaq olardı. Amma haqqımdakı məlumatların sayı, onda lazımi qədər idi. Bu barədə ötən söhbətimizdə danışmışam. Bu, nə deməkdi. Adətən haradasa bir münaqişəli iş olanda Heydər Əliyev Mərkəzi Komitənin katiblərindən soruşurdu ki, kim bunu yoluna qoya bilər? Onlar da Həsən Həsənov deyib işi mənə tapşırırdılar. O zaman nazirlə rayon partiya komitəsinin birinci katibləri arasında iki belə münaqişəni müsbət həll etmişdim. Bir dəfə Şamxorun (indiki Şəmkir rayonu) birinci katibi ilə tikinti materialları naziri arasında, bir dəfə də Zaqatalanın birinci katibi ilə tikinti naziri arasında. Bu məsələlərin həlli bir qədər çətinləşmişdi. Problemi aradan qaldırmağı mənə həvalə etdilər. Getdim və vəziyyəti nizamladım, münasibətləri qaydasına qoydum. Təbii ki, bu barədə birbaşa Heydər Əliyevə deyil, tapşırığı mənə çatdıran MK-nın katibinə məlumat verdim. O da Heydər Əliyevə məruzə etmişdi ki, Həsən Həsənov gedib məsələni yoluna qoyub.

Sovet dövründə belə bir qayda var idi: MK-nın işçiləri vaxtaşırı hansısa məsələ haqqında Siyasi Büroda çıxış edirdilər. Məsələn, Qaradağ rayon partiya komitəsi bu ərazidəki tikinti materialları müəssisələrinə necə rəhbərlik edir? Bu haqda məruzə hazırlamağı mənə tapşırmışdılar. Mən də məsələni araşdırıb Siyasi Büroda çıxış etdim. Sonra Naxçıvanla bağlı məruzə hazırladım. Bir dəfə də bir neçə nazirin işdə yol verdikləri əyintilər haqqında məruzəni mənə tapşırmışdılar. Bu çıxışlar zamanı Heydər Əliyev birbaşa məni görür, dinləyir və çoxlu suallar verirdi. Elə bu zaman onunla birbaşa ünsiyyət imkanı yaranırdı. Əgər bu görüşlər və məlumatlar nəticəsində Heydər Əliyev adamı daxilən qəbul etmirdisə, düşünürəm ki, ona ciddi vəzifə də tapşırmazdı.

Mən MK-nın tikinti şöbəsində işləyən sırf mühəndis məmur idim. Heydər Əliyev məni 26 Bakı komissarı rayonuna (indiki Səbaıl) göndərəndə, incəsənətə, ədəbiyyata və tarixə olan marağım haqqında heç kimdə məlumat yox idi. Ona görə bir çoxu deyirdi ki, axı bu adam (yəni mən) sırf inşaatçıdır rayon isə ziyalılar rayonudur, Yazıçılar, Bəstəkarlar, Rəssamlar ittifaqları burda, Elmlər Akademiyası, universitetlər bu rayonda, inşaatçı-mühəndis bunlara necə rəhbərlik edəcək? Bu rayonda vaxtilə Şıxəli Qurbanov, sonra ali təhsil naziri olan Qurban Əliyev, “Vışka” qəzetinin baş redaktoru olan Fazil Muradəliyev, Elmlər Akademiyasında çalışan alim Zeynalov kimi şəxslər işləmişdilər. Yəni, mənə qədər tikinti meydançasından olan bir mühəndis orda işləməmişdi. Heydər Əliyev isə yəqin düşünürdü ki, “Həsən Həsənov bunu bacaracaq”. Bakı Şəhər Partiya Komitəsinin birinci katibi Əli Kərimovun çox sərt şəkildə etiraz etməsinə baxmayaraq, Heydər Əliyev fikrindən dönmədi. Birinci katib seçiləndən sonra Heydər Əliyev təkid etdi ki, mən şəhər partiya komitəsinin büro üzvü olum. Əli Kərimov buna da etiraz etməyə cəhd göstərdi. Heydər Əliyev yenə təkid etdi. Mən özüm də düşünürdüm ki, Heydər Əliyev məni lazımınca tanımır, amma necə olur, bu qədər qərarında israrlıdır. Yalnız 26-lar rayonunda işləyəndə bildi ki, mənim ədəbiyyata, tarixə, incəsənətə böyük marağım var. Bu barədə ötən söhbətimizdə danışmışam...

Sumqayıta birinci katib getməyim də belə oldu ki, Kamran Bağırov Sumqayıt şəhər partiya komitəsinin birinci katibi işləyirdi. Heydər Əliyev onu Mərkəzi Komitəyə katib vəzifəsinə gətirdi, məni də göndərdi onun yerinə. Sumqayıt fəhlə şəhəri idi. Bu dəfə dedilər, bu adam aktyorlarla, yazıçılarla işləyib, indi fəhlələrlə necə dil tapacaq? Buna baxmayaraq, işlədim, amma az işlədim, hər halda yəqin qənaətbəxş işlədim. Çünki Heydər Əliyev ordan məni Gəncəyə göndərdi. Açığı ora çox ehtiyatla getdim. Özümə inanmırdım ki, Gəncədə uğurla işləyə bilərəm. Heydər Əliyev büroda dedi bilirəm getmək istəmirsən, amma gedəcəksən və işləyəcəksən. Nə deyə bilərdim. Bircə onu söylədim: “Heydər Əliyeviç, çox sağ olun ki, mənim getmək istəməməyimi burda dediniz, amma Gəncəyə getmək istəməməyim işimə təsir etməyəcək”. Bircə bunu dedim və bu da kifayət etdi. Gəncədə işlədiyim ilk günlərdə də ağız büzənlər var idi: “Gəncə nə Bakıdır, şairlərlə, aktyorlarla işləyib gününü keçirəsən, nə də Sumqayıtdır ki, fəhlə sinfi hər çıxışını alqışlasın, Gəncə Gəncədir. Görək, burada nə edə biləcək”. Bütün bu hadisələr məndə formalaşmağa başlayan bir fikri tam qətiləşdirdi ki, Heydər Əliyevin insanları tanımaq, onları dəyərləndirmək intuisiyası çox güclüdür.

**– Bizə məlumdur ki, Heydər Əliyev Nizami Gəncəvi yaradıcılığına, irsinə böyük qayğı ilə yanaşıb. Siz Gəncədə çalışarkən, Ulu öndərlə Nizami Gəncəvi və onun irsi ilə bağlı söhbətləriniz və onun Nizami ilə bağlı tapşırıqları olurdumu?**

– Hələ mən Gəncəyə təyinat almamışdan əvvəl, Şərqşünaslıq İnstitutunda Heydər Əliyevin təşəbbüsü ilə xüsusi olaraq Nizami şöbəsi təşkil olundu. Həmin dövrdə çox böyük nizamişünas alimimiz Rüstəm Əliyev də şöbəyə müdir təyin olunmuşdu.

Gəncəyə gedəndə Heydər Əliyev mənə bir neçə tapşırıq verdi və onlardan da ən birincisi elə Nizami Gəncəvi ilə bağlı idi. Dedi: “Həsən, biz gərək Nizami Gəncəvinin adını ucaldaq. Çünki biz dünyada bir çox halda Nizami ilə tanınırıq. Ona görə də gərək Nizamini bir Azərbaycanlı dahi kimi dünyaya təqdim edə bilək. Sən bax, gör Gəncədə Nizami ilə bağlı nə kimi tədbirlər keçirə, işlər görə bilərsən”.

Gəncədə o zaman Nizaminin məqbərəsi əhəng daşından tikilmişdi. Yaxınlığında da Aluminium zavodu var idi. O dövrün texnologiyası baxımından çox keyfiyyətsiz bir zavod idi. Onun tozu məqbərəyə hopur və əhəng daşını eroziyaya uğradırdı. Heydər Əliyev dedi: “Həsən, mənə bir neçə nəfər deyib ki, zavod məqbərəni məhv edir və məqbərəni Gəncənin mərkəzinə köçürmək lazımdır. Mən hələ ki, bir qərar verməmişəm. Sən özün bu məsələ ilə ciddi maraqlan və fikrini mənə söylə, görək məqbərəni köçürməyə dəyər, yoxsa yox”. Yəni, Heydər Əliyev hər hansı məsələni kiminsə fikrinə əsaslanıb həll etmirdi. Hər iş ciddi araşdırılır, öyrənilir, sonra qərar verirdi.

Mən məsələni dərindən öyrəndim və bir müddət sonra ona dedim: “Heydər Əliyeviç, məqbərəni köçürməyə ehtiyac yoxdur”. Təkliflərimi və görəcəyimiz tədbirləri söylədim, razılaşdı. Doğrudur, məqbərəni çox da dəbdəbəli düzəldə bilmədik. Amma bəzi tədbirlər görüb onu tarixi yerində saxladıq. Nizami ilə bağlı şəhərdə çoxlu xatirə guşələri yaratmağa nail olduq. Məqbərənin ətrafını təmizlədik, yaşıllıqlar saldıq, çoxlu ağaclar əkdik. Hər il Gəncədə Nizami Poeziya günləri keçirirdik. Bakıdan, ittifaqın bir çox yerlərindən qonaqlar dəvət edirdik. Hətta Ermənistandan nümayəndələr gəlirdi. Bir dəfə də məqbərənin önündə tədbirin açılışında erməni nümayəndəsi çıxış edəndə qayıtdı ki, “Velikiy Armyanskiy poet Nizami Gəncəvi”. Mən də onun yanında durmuşdum. Ətrafdakılar başladı gülüşməyə. Mən sakitləşdirdim ki, insandır səhv edib, çaşıb. Amma bu sırf standart erməni yanaşması idi...

Zərdabi memarlıq abidəsinin (əvvələr məscid idi) həyətində Nizami Poeziya Teatrı yaratdıq. Ən görkəmli hadisələrdən biri bu oldu. Yay dövrü idi, Heydər Əliyev Xanlar rayonuna (indiki Göygöl) kənd təsərrüfatı ilə bağlı səfərə gəlmişdi. Onu müşayiət edən bir neçə nəfər həmin gün Gəncəyə gəlib tamaşaya baxdılar. Heydər Əliyevin Gəncəyə gəlməyi nəzərdə tutulmamışdı. Lakin tamaşanı görənlər təəssüratlarını ona söyləmişdilər və mənə xəbər gəldi ki, Heydər Əliyev tamaşaya gəlmək istəyir. Hamı həyəcan içində idi. Tamaşa bitəndən sonra Heydər Əliyev özünəməxsus tərzdə yaratdığımız teatrın ideyasına, Nizaminin ölməz poeziyasına, aktyorların oyununa yüksək qiymət verdi. Bu Nizami Poeziya Teatrının ən əlamətdar hadisələrindən oldu.

Gəncədə və Bakıda silsilə tədbirlər davam etdi və beləcə Nizami sovet respublikalarının ədəbi ictimaiyyəti arasında Azərbaycan klassik ədəbiyyatının, poeziyasının ən tanınmış simalarından birinə çevrildi. Heydər Əliyevin qarşıma qoyduğu vəzifəni bu şəkildə yerinə yetirdim. Bir müddət sonra mən artıq MK-nın katibi vəzifəsində işləyəndə, Heydər Əliyevin dəstəyi ilə 1981-ci ildə Nizaminin Bakıda və Moskvada 840 illiyini keçirdik. Çox-çox sonralar, artıq müstəqillik illərində mən Baş nazir vəzifəsində çalışanda Nizami Gəncəvinin məqbərəsinin qranitdən tikilməsinə qərar verdim və o yer indiki görkəmini aldı.

**Söhbəti qələmə aldı:**
**İlqar RÜSTƏMOV,**
**“Xalq qəzeti”**

# Azərbaycan – Avstriya parlamentlərarası əlaqələr genişlənir

**Milli Məclisin Sədri Sahibə Qafarova Avstriyaya rəsmi səfəri çərçivəsində iyunun 21-də Avstriya Respublikası Parlamenti Federal Şurasının Sədri Günter Kovaks ilə görüşüb.**

G.Kovaks Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşı olduğunu, iki ölkənin parlamentlərarası əlaqələrini daha da inkişaf etdirmək üçün qarşılıqlı səfərlərin vacibliyini qeyd edib.

Azərbaycan parlamentinin rəhbəri S. Qafarova bu səfərin iki ölkə arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inamını ifadə edib. O, 30 il əvvəl ölkələrimiz arasında diplomatik münasibətlərin qurulduğunu diqqətə çatdırıb və ikitərəfli əlaqələrin dərinləşməsində dövlət başçılarının və hökumət rəsmilərinin qarşılıqlı səfərlərinin və iki ölkə arasında imzalanan sənədlərin əhəmiyyətindən danışıb.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycan işğal qurbanı olmasına baxmayaraq, regionda uzunmüddətli sülhün və sabitliyin təmin olunması üçün səy göstərir və Ermənistana sülh sazişi imzalamağı təklif edib.



Federal Şuranın Sədri Günter Kovaks Azərbaycanın sülh təşəbbüslərini təqdir etdiklərini və dəstəklədiklərini bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

***Ə.BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Əməkdaşlığın istiqamətləri və gündəlikdəki məsələlər müzakirə edilib



**İqtisadiyyat naziri Mikayıl Cabbarov ilə Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiya rəhbəri Anna Bordonun başçılıq etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə əməkdaşlığın istiqamətləri və gündəlikdəki məsələlər müzakirə edilib.**

İqtisadiyyat Nazirliyindən bildirilib ki, nazir Azərbaycanın beynəlxalq maliyyə qurumları ilə əməkdaşlığının çoxşaxəli olduğunu vurğulayıb, ölkəmizdə qabaqcıl beynəlxalq təcrübənin və texnoloji yeniliklərin tətbiqi baxımından əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən söz açıb.

Mikayıl Cabbarov ölkəmizin makroiqtisadi göstəriciləri və proqnozlar, struktur islahatları nəticəsində əldə edilmiş irəliləyişlər, vergi siyasəti və inzibatçılığı sahəsində reallaşdırılan islahatlar barədə məlumat verib.

Anna Bordon Azərbaycanda aparılan iqtisadi islahatların bir çox beynəlxalq maliyyə qurumları tərəfindən dəstəkləndiyini bildirib, həyata keçirilən sosial-iqtisadi siyasət nəticəsində əldə olunan uğurları vurğulayıb, tərəfdaşlığa dair fikirlərini bölüşüb.

Görüşdə tərəflər arasında əməkdaşlığın istiqamətləri və gündəlikdəki məsələlər barədə fikir mübadiləsi aparılıb.

***"Xalq qəzeti"***

# Məhkəmə-Hüquq Şurasına yeni üzvlər seçilib





Dünən ölkə məhkəmələrini təmsil edən 130 hakimin iştirakı ilə konfrans keçirilib.

Ali Məhkəmə, Apellyasiya və birinci instansiya məhkəmələrinin nümayəndələri ayrı-ayrılıqda Məhkəmə-Hüquq Şurası üzvlüyünə namizədlər irəli sürüb.

Seçkilərin nəticələrinə əsasən Ali Məhkəmənin sədri İnam Kərimov, həmin məhkəmənin sədr müavini Çingiz Əsgərov və Mülki kollegiyanın sədri Sənan Hacıyev, apellyasiya instansiya məhkəmələri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, Bakı Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov, Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayev və birinci instansiya məhkəmələri üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinin sədri İsmayıl Xəlilov, Lənkəran Rayon Məhkəməsinin sədri Kamran Süleymanov və Yevlax Rayon Məhkəməsinin sədri Toğrul Əliyev Məhkəmə-Hüquq Şurasının üzvü seçiliblər.

Həmçinin konfransda hüquq ictimaiyyətinin nümayəndəsi qismində Səfa Mirzəyev açıq səsvermə yolu ilə Məhkəmə-Hüquq Şurasının üzvü seçilib.

Bununla da hakimlərin konfransı işinə yekun vurub.

***"Xalq qəzeti"***

# Erməni təxribat-diversiya qrupunun işinə Ağır Cinayətlər Məhkəməsində baxılacaq

**Mayın 26-da Azərbaycan-Ermənistan dövlət sərhədinin Zəngilan rayonunun Rəzdərə kəndi ərazisindən keçən hissəsində Ermənistan Silahlı Qüvvələrinin təxribat-diversiya qrupu tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədinin pozulması faktına dair Baş Prokurorluğun İstintaq idarəsində aparılan cinayət işinin ibtidai istintaqı tamamlanıb.**



İstintaqla Ermənistan Respublikasının vətəndaşları olan erməni hərbi qulluqçuları – Ovagimyan Arutyun Yurikoviç və Kazaryan Karen Aşotoviçin qeyriləri ilə qabaqcadan əlbir olan bir qrup şəxs halında cari il mayın 26-sı saat 19 radələrində Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini qanunsuz əldə etdikləri odlu silah və döyüş sursatları ilə Dövlət Sərhəd Xidmətinin Zəngilan sərhəd dəstəsinin xidmətdə olan hərbi qulluqçularına qarşı zor tətbiq etməklə qanunsuz keçərək, odlu silah və döyüş sursatlarını qabaqcadan əlbir olan bir qrup şəxs halında qaçaqmalçılıq yolu ilə Zəngilan rayonunun Rəzdərə kəndinə keçirməklə ölkəmizdə terror aktı törədəcəkləri ilə hədələmələri, bu məqsədlə Azərbaycan Respublikasının Zəngilan rayonu Rəzdərə kəndi ərazisində yerləşən və dövlət sərhədini mühafizə edən Azərbaycan Respublikasının hərbi hissəsinin hərbi qulluqçularına silahla atəş açaraq hücum etmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

İstintaqla, həmçinin, müəyyən edilmişdir ki, ordumuzun hərbi qulluqçuları tərəfindən hücumlarının qarşısı qətiyyətlə alınaraq qaçmağa çalışan erməni diversiya qrupunun adları qeyd olunan üzvləri saxlanılan zaman Ovagimyan Arutyun Yurikoviçdən cinayətin aləti olan 1 ədəd "Kalaşnikov" markalı "AKM" modelli odlu silah və içərisində 10 ədəd 5.45 mm kalibrli döyüş patronları olan 1 ədəd daraq götürülüb.

Ovagimyan Arutyun Yurikoviç və Kazaryan Karen Aşotoviçə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silah və döyüş sursatının qaçaqmalçılığı), 214.2.1, 214.2.3 (terrorçuluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silahdan istifadə etməklə törədildikdə), 228.2.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah əldə etmə, daşıma, saxlama), 283.2.1 (zor tətbiq etməklə milli düşmənçiliyin salınmasına aşkar surətdə yönələn hərəkətlər etmə) və 318.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən zor tətbiq etməklə Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə yekun ittihamlar elan edilərək cinayət işi 21 iyun 2023-cü il tarixdə baxılması üçün Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 200** **Bakı şəhəri, 20 iyun 2023-cü il**

***"Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nın təsdiq edilməsi və "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 548 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 mart tarixli 975 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə"nin 5.2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı" təsdiq edilsin (əlavə olunur).

**2.** "Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 548 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2744; 2019, № 5, maddə 944, № 8, maddə 1467; 2022, № 8, maddə 968) 1-ci hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 201** **Bakı şəhəri, 20 iyun 2023-cü il**

***"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydalarının və normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 117 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydalarının və normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 117 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 785, № 11, maddə 1943) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydaları"nın 6-cı, 10-cu hissələrində və 12-ci hissənin birinci, ikinci cümlələrində "Təchizat İdarəsi" sözləri "Maddi-Texniki Təminat Baş İdarəsi" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə – "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin böyük, orta, kiçik rəis və sıravi heyətlərinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Norması" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

*Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin aparatında 2023-cü ilin iyul ayında vətəndaşların qəbulu cədvəli

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini**<br>Eyyubov Yaqub Abdulla oğlu | 3 |
| **Baş nazirin müavini**<br>Əhmədov Əli Cavad oğlu | 4 |
| **Baş nazirin müavini**<br>Mustafayev Şahin Abdulla oğlu | 5 |
| **Aparatın rəhbəri**<br>Məmmədov Rüfət Tofiq oğlu | 6 |
| **İqtisadiyyat şöbəsinin müdiri**<br>Əmiraslanov Azər Kamal oğlu | 7 |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri**<br>Rüstəmli Ruslan Rüstəm oğlu | 10 |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri**<br>Paşayev Zakir İlqar oğlu | 11 |
| **Hüquq və qanunvericilik** şöbəsi**nin** müdiri<br>Qasımlı Xalid Akif oğlu | 25 |
| **Sosial məsələlər şöbəsinin müdiri**<br>Rəhimov Niyazi Süleyman oğlu | 13,26 |
| **Humanitar məsələlər şöbəsinin müdiri vəzifəsini icra edən**<br>Həbibbəyli Ərəstü İsa oğlu | 14 |
| **Sənaye və energetika** şöbəsi**nin müdiri**<br>Hacızadə Elşən Mahmud oğlu | 17,27 |
| **Aqrar və ekologiya şöbəsinin müdiri**<br>Qasımov Lətif Cəfər oğlu | 18,28 |
| **Regionların inkişafı şöbəsinin müdiri**<br>Məcidov İlkin Sabir oğlu | 19 |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri**<br>Mustafayev Feyruz Rəvayət oğlu | 20,31 |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri**<br>Pənahov Musa Sədi oğlu | 21 |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri**<br>**Məmmədov Anar Rəhim oğlu** | 12,24 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68**
**Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Qəbulla bağlı əlaqə nömrələri: (012)492-19-23, (012)492-88-96.**

# Almaniya Prezidenti "Zərifə Əliyeva" gəmi-bərəsində olub

**Almaniya Prezidenti Frank-Valter Staynmayer, Qazaxıstanın Baş naziri Alixan Smailov və Kurık limanının direktoru Serik Axmetov "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Kurık limanına (Qazaxıstan) yan almış RoPax tipli "Zərifə Əliyeva" gəmi-bərəsində olublar.**

ASCO-dan bildirilib ki, Almaniya Prezidentinə "Zərifə Əliyeva" gəmi-bərəsinin ASCO-nun donanmasındakı digər bərələrlə birgə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yükdaşıma zəncirinin inkişafında mühüm rol oynaması ilə bağlı məlumat verilib.

Gəminin kapitanı Təhmiraz İsmayılov Frank-Valter Staynmayerə bildirib ki, "Zərifə Əliyeva" gəmi-bərəsi Azərbaycanda istehsal olunub. Bu gəmi yükgötürmə qabiliyyətinə görə Xəzərdə hazırda mövcud bərələrdən böyük olmaqla, 100 sərnişin, 56 sistern tipli vaqon və ya 50 yük avtomobili/TİR daşımaq imkanına malikdir.

Qeyd edək ki, Qazaxıstan Prezidenti Kasım-Comart Tokayevin dəvəti ilə Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Qazaxıstana rəsmi səfərə gəlib.

***"Xalq qəzeti"***

# Tərəqqi və rifah büdcəsi



(əvvəli 1-ci səhifədə)

Həmin amillər sırasında, ilk növbədə, işğaldan azad olunan Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı və sürətli bərpa-yenidənqurma işlərinin aparılması, vaxtilə öz doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımızın mərhələli şəkildə ata-baba yurdlarına qayıdışının təmin edilməsi, bu zəmində ölkə Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasının sürətləndirilməsi prioritetləri xüsusu yer tutur.

Büdcəyə dəyişikliklərin edilməsini zəruri edən məsələlərdən biri də Silahlı Qüvvələrimizin müdafiə qabiliyyətinin artırılması, ölkənin sərhədlərinin möhkəmləndirilməsi, daxildə və xaricdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi, dünyada gedən geosiyasi proseslərə, artan təhdidlərə və təhlükələrə, habelə qonşu dövlətlər tərəfindən respublikamıza qarşı baş qaldıra biləcək istənilən təhdidin qarşısının alınması üçün hazırlıq səviyyəsinin yüksəldilməsidir.

Bütün bunlarla bərabər, beynəlxalq yardım proqramları və müqavilələr üzrə imzalanan öhdəliklərin qarşılanması, dövlət borcunun idarə edilməsi üzrə yeni yanaşmanın tətbiqi və bir sıra digər zəruri dövlət xərclərinin həyata keçirilməsi üçün dövlət büdcəsinə yenidən baxılmanı şərtləndirib.

Onu da qeyd edək ki, cari ilin ötən dövrü ərzində dövlət büdcəsinin gəlirlərinin proqnozlara qarşı əhəmiyyətli dərəcədə çox olması, ölkə iqtisadiyyatının sosial-iqtisadi inkişafına dair keçən ilin payızında verilmiş proqnozun yenilənməsi və ümumi daxili məhsulun (ÜDM) əvvəlki proqnozla müqayisədə 5,6 milyard manat artırılması bu ilin dövlət büdcəsində əlavə maliyyə resurslarının yaranmasını, həmçinin onların bölünməsini zəruri edib.

Yeri gəlmişkən, Maliyyə Nazirliyinin təqdim etdiyi 2023-cü ilin yanvar-aprel aylarının makro-fiskal nəticələri və yenilənmiş makroiqtisadi proqnozlara diqqət yetirək. Əvvəlcə xatırladaq ki, bu ilin ilk dörd ayında ölkədə 40 milyard manatlıq, o cümlədən qeyri-neft-qaz sektorunda 22,7 milyard manatlıq ÜDM istehsal olunub. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə ÜDM real ifadədə 0,1 faiz, qeyri-neft sektoru üzrə isə 3,1 faiz artıb.

## Ekspert rəyi

**Vəkil HÜSEYNOV, iqtisadçı-ekspert**



Azərbaycanın qeyri-neft-qaz sektorunun dinamik inkişafını bildirən rəqəmlər əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Hazırda ölkəmizdə ÜDM istehsalının böyük bir hissəsinin sənayenin payına düşməsi uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Azərbaycanda lazım olan bütün istehsalat sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühiti, siyasi sabitlik, xalq-iqtidar birliyi, təhlükəsizlik təmin edilib, əlverişli coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var.

Sənaye zonaları və aqroparkların təşəkkülü də belə demək mümkünsə, bax, bu cür əlverişli mühitin məhsuludur. Bu müəssisələrdə sahibkarlar üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur. Belə ki, sahibkarlara təşkilati dəstəklə yanaşı, vergi və gömrük güzəştləri, eləcə də hazır infrastrukturla təminat təklif edilir.

Ötən ilin eyni dövrü ilə müqayisədə cari ilin yanvar-aprel ayları ərzində ölkə iqtisadiyyatının əksər sahələrində, o cümlədən kənd təsərrüfatında 3,5 faiz, tikintidə 10,1 faiz, informasiya və rabitə sahəsində 12,1 faiz real artım qeydə alınıb.

Bu ilin yanvar-mart ayları ərzində xarici ticarət üzrə əməliyyatların həcmi real ifadədə 2022-ci ilin eyni dövrü ilə müqayisədə 5,1 faiz artaraq 12,2 milyard ABŞ dollarına çatıb ki, bunun da 8,2 milyard ABŞ dolları ixrac əməliyyatlarının, 4 milyard ABŞ dolları isə idxal əməliyyatlarının payına düşüb. Nəticədə xarici ticarət hesabında 4,2 milyard ABŞ dolları həcmində müsbət saldo yaranıb. Eyni zamanda, xarici ticarət dövriyyəsində qeyri-neft məhsullarının ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə faktiki qiymətlərlə 23,2 faiz, real ifadədə 19,2 faiz artaraq 912,2 milyon ABŞ dollarına bərabər olub.

Yeri gəlmişkən, 2023-cü ilin yanvar-aprel aylarında "AzeriLight" markalı xam neftin bir barelinin orta ixrac qiyməti 85,8 ABŞ dollarına bərabər olub ki, bu da cari ilin təsdiqlənən büdcə parametrlərinin hesablanması zamanı götürülən qiymətdən 35,8 ABŞ dolları çoxdur.

Burada bir məqamı da vurğulamaq istərdik. Belə ki, cari ilin ilk dörd ayında qeyri-neft sektorundakı ÜDM-in göstəricilərində qeydə alınan müsbət meyillər, həmçinin neft qiymətinin artım dinamikası və inflyasiya səviyyəsinin sözügedən dövr ərzində yüksək (13,5 faiz) olması icmal və dövlət büdcəsinin gəlirlərinin artımını şərtləndirib. Belə ki, haqqında danışılan hesabat dövründə icmal büdcənin gəlirləri 21 milyard 262,8 milyon manat təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 9 milyard 154,7 milyon manat və ya 75,6 faiz çox olub. İcmal büdcə xərcləri isə 9 milyard 957,9 milyon manat həcmində qeydə alınıb. Belə bir göstərici isə ötən ilin eyni dövrü ilə müqayisədə 863,5 milyon manat və ya 9,5 faiz çox olub. Cari ilin ilk dörd ayında icmal büdcədə faktiki olaraq 11 milyard 304,9 milyon manat büdcə artıqlığı (profisit) yaranıb.

Dünyada gedən qlobal iqtisadi və geosiyasi proseslər, enerji daşıyıcılarının qiyməti, ötən ilin faktiki nəticələri və bu il üzrə müşahidə olunan tendensiyalar nəzərə alınmaqla, 2023-cü ilin may ayında İqtisadiyyat Nazirliyi tərəfindən cari il üzrə makroiqtisadi proqnozlar yenilənib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Çin də Zəngəzur dəhlizinə maraq göstərir

**Trans-Avrasiya yük daşımalarının beynəlxalq koordinasiya şurasının baş katibi Qenadi Bessonov mətbuata müsahibəsində Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu xəttinin tikintisinin reallaşdığını, bu işlərin Avrasiya İqtisadi İttifaqı təşkilatı çərçivəsində yaradılan nəqliyyat infrastrukturu birliyi tərəfindən həyata keçirildiyini vurğulayıb.**

Q.Bessonov, eyni zamanda, ötən ay keçirilən Çin-Orta Asiya sammitində Orta Asiya respublikalarının müvafiq qurumları ilə Çin arasında imzalanan sənəddə dəmir yolunun Qırğızıstan, Özbəkistan, Azərbaycan və Türkiyə ərazisindən keçərək Avropaya çatdırılmasının nəzərdə tutulduğunu bildirib. .



O qeyd edib ki, bu dəmir yolu marşrutu Çin ilə Avropa arasında ticarətin daha da intensiv xarakter almasına təkan verəcək. Azərbaycan da bu layihənin bir hissəsinə çevrilib və Zəngəzur dəhlizini yaratmaqla, Avropa ilə Asiya arasında körpü rolunu oynayacaq.

Q.Bessonovun sözlərinə görə, Zəngəzur dəhlizi müxtəlif seqmentlərdən ibarət olmaqla, Çin ilə Avropanı birləşdirəcək. Bu layihədə dünyanın iqtisadi nəhəngi hesab olunan Çinin xüsusi marağı var və Orta Asiya respublikaları ilə birlikdə sammit keçirib dəmir yolu xəttinin çəkilməsi barədə müqavilə imzalaması da təsadüfi xarakter daşımır.

Çin Avropa ilə ixrac-idxal əməliyyatlarını daha da genişləndirmək üçün qısa, təhlükəsiz və ucuz başa gələn yol axtarışındadır. Azərbaycanın həyata keçirmək istədiyi Zəngəzur dəhlizinin də Çin tərəfindən dəstəklənməsi təsadüfi deyil. Gələcəkdə yüklər qatarla Çindən çıxaraq Qırğızıstan-Özbəkistan-Qazaxıstan-Azərbaycan-Türkiyə üzərindən keçərək Avropaya və əks istiqamətə daşınacaq.

***"Xalq qəzeti"***



# Qarabağ və Şərqi Zəngəzurda müasir yol şəbəkəsi yaradılır

**Azərbaycanda yol infrastrukturunun inkişafı dövlətin mühüm prioritetləri sırasındadır. Respublikada yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər böyük sürətlə davam etdirilir.**

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrasına dair Tədbirlər Planına əsasən, 2026-cı ilədək ümumi uzunluğu 2264,5 kilometr təşkil edən 20 avtomobil yolu layihəsinin və Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma və torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub.

Bu layihələrdən uzunluğu 28,5 kilometr olan Tərtər-Çaylı-Suqovuşan-Talış avtomobil yolu 2020-ci ildə, uzunluğu 101,5 kilometr təşkil edən "Zəfər yolu" 2021-ci ildə inşa edilib. 2022-ci ildə Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun (uzunluğu 22 kilometr, 2-3 hərəkət zolaqlı) tikintisi başa çatdırılıb.

Ümumilikdə isə ötən il ərzində 803,5 kilometr uzunluğunda avtomobil yolları, prospekt və küçələr tikilib, yenidən qurulub və təmir olunub. Buraya respublika əhəmiyyətli - 234,3 kilometr, yerli əhəmiyyətli - 398 kilometr, Bakı şəhər yolları 171,2 kilometr təşkil edir.

Tədbirlər Planına uyğun olaraq, layihələrdən 12-sinin icrasının 2023-cü, 2 layihənin 2024-cü, 3 layihənin 2025-ci və 1 layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub.

***"Xalq qəzeti"***

# Tədarük məntəqələrinə 352 ton barama təhvil verilib

**Ölkənin tədarük məntəqələrinə barama təhvili davam edir. Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, 41 rayonun kümçüləri tərəfindən indiyədək tədarük məntəqələrinə 352 ton barama təhvil verilib.**

Məlumata görə, bu il ən çox yaş barama Zərdab rayonunda tədarük olunub. Yerli kümçülər 2023-cü il mövsümündə 52, 865 ton yaş barama təhvil veriblər. Bununla yanaşı, Ağcabədi (34,336 ton), Zaqatala (28,907 ton), Balakən (28,151 ton), Bərdə (21,117 ton), Tərtər (14,747 ton), Şəki (13,737 ton), Qax (12,385 ton), Füzuli (10,416 ton), Lənkəran (9,896 ton), Sabirabad (9,744 ton), Yevlax (9,583 ton) və Ağdam (9,210 ton) ən çox yaş barama tədarük edən rayonlardır.



Yeri gəlmişkən, kümçülərlə imzalanmış müqaviləyə əsasən, hazırda istehsal olunmuş yaş barama müvafiq qurum tərəfindən 5 manata təhvil alınır. Bundan əlavə, dövlət isə istehsal olunan hər kiloqram yaş baramaya görə kümçülərə 6 manat subsidiya ödəyir.

***"Xalq qəzeti"***

# Azərbaycan Asiya İnkişaf Bankı ilə tərəfdaşlığa xüsusi diqqət yetirir

(əvvəli 1-ci səhifədə)




Bankın nümayəndə heyəti iyunun 20-də Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovla görüşüb. Görüşdə Azərbaycanın beynəlxalq maliyyə qurumları, o cümlədən Asiya İnkişaf Bankı ilə tərəfdaşlığa önəm verdiyi, bankın ölkəmizə maliyyə-texniki dəstəyinin yüksək qiymətləndirildiyi diqqətə çatdırılıb. Qeyd olunub ki, AİB enerji, ətraf mühit, infrastruktur, tranzit-logistika, rəqəmsal inkişaf, dövlət-özəl sektor tərəfdaşlığı və digər istiqamətlər üzrə icra olunan layihələr çərçivəsində ölkəmizə dəstək göstərir. İqtisadiyyat naziri, həmçinin Milli Prioritetlər, 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində görülən işlər, işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işləri barədə məlumat verib, bu sahədə AİB ilə əməkdaşlıq imkanlarını vurğulayıb.

Asiya İnkişaf Bankında Azərbaycanın daxil olduğu ölkələr qrupu üzrə icraçı direktor xanım Reyçl Tomson təmsil etdiyi qurumun ölkəmizlə əlaqələrinin genişlənməsində marağını ifadə edib, birgə təşəbbüs və layihələrin Azərbaycanda dayanıqlı inkişafın təmin olunmasına töhfə verəcəyini qeyd edib. Tərəflər, həmçinin əsas inkişaf çağırışları, Azərbaycanın sosial-iqtisadi prioritetləri, həyata keçirilən birgə layihələr və Bankın Direktorlar Şurasında ölkəmizin səmərəli təmsilçiliyi barədə müzakirələr aparıblar.

Asiya İnkişaf Bankının nümayəndə heyəti İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində (İİTKM) də olub. İİTKM-in mətbuat xidmətindən aldığımız məlumata görə, mərkəzin icraçı direktoru Vüsal Qasımlı qonaqlara Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar, eləcə də rəhbərlik etdiyi qurumun fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd olunub ki, Asiya İnkişaf Bankının özəl sektorun inkişaf etdirilməsi, dövlət sektorunun səmərəliliyinin artırılması, infrastrukturun təkmilləşdirilməsi və insan kapitalının gücləndirilməsi məqsədi daşıyan 2019–2023-cü illər üzrə Ölkə Tərəfdaşlığı Strategiyası Azərbaycan hökumətinin strateji yol xəritələri ilə sıx uyğunlaşdırılıb. V. Qasımlı deyib ki, Asiya İnkişaf Bankının 2024-2028-ci illər üçün yeni Ölkə Tərəfdaşlığı Strategiyası da "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" ilə uyğunlaşdırılır. Həm strateji yol xəritələrinin, həm də sosial-iqtisadi inkişaf Strategiyasının monitorinq və qiymətləndirilməsini həyata keçirən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi bu baxımdan Asiya İnkişaf Bankı ilə yaxından əməkdaşlıq edir. Xüsusən də "Böyük Qayıdış" proqramının gerçəkləşdirilməsi, həmçinin rəqəmsal və yaşıl həllərin önə çıxması bankla əməkdaşlıqda yeni səhifə açır.

Bildirilib ki, struktur islahatları, eləcə də nəticə əsaslı büdcə və proqram idarəetməsi sahələrində əməkdaşlıq imkanları genişdir. Azərbaycanın 2003-cü ildən Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı çərçivəsində əməkdaşlığa böyük töhfə verdiyini deyən V.Qasımlı yeni geosiyasi şəraitdə Orta Dəhlizin infrastrukturunun gücləndirilməsinin vacibliyini də vurğulayıb.

Nümayəndə heyətinin rəhbəri Reyçl Tompson öz növbəsində Azərbaycanla qarşılıqlı əməkdaşlıqdan məmnunluğunu ifadə edib. O, Azərbaycanda daha əvvəllər də müəyyən iş təcrübəsi əldə etdiyini, ölkənin hərtərəfli inkişafı üçün yaradılan şəraitlə yaxından tanış olduğunu bildirib.

AİB-in icraçı direktoru işğaldan azad olunmuş ərazilərdə aparılan sürətli bərpa-quruculuq işləri ilə tanış olmaq məqsədilə Ağdama səfər etdiyini və orada aparılan işləri yüksək qiymətləndirdiyini diqqətə çatdırıb. Xanım Tompson, həmçinin bildirib ki, təmsil etdiyi qurum Azərbaycanla dövlət-özəl tərəfdaşlığı, investisiya qoyuluşları və insan kapitalının inkişafı, eləcə də ətraf mühitin mühafizəsi də daxil olmaqla, bir çox istiqamətlər üzrə əlaqələrin genişləndirilməsində maraqlıdır.

Yeri gəlmişkən, beynəlxalq maliyyə təşkilatı olan Asiya İnkişaf Bankı (AİB) 1966-cı ildə yaradılıb. Əsas məqsədi Asiya məkanında, bütövlükdə Şərq ölkələrində iqtisadiyyatın inkişafına yardım göstərməkdən ibarət olan bankın baş ofisi Filippinin Manila şəhərində yerləşir. Asiya İnkişaf Bankını maliyyələşdirən 67 üzv-ölkə vardır ki, onlardan 48-i Asiya və Sakit Okeanı regionunda yerləşir.

Azərbaycan Respublikası 1999-cu il oktyabrın 20-də Asiya İnkişaf Bankına üzvlüyə qəbul olunub. 2004-cü ilin noyabr ayından etibarən isə təşkilatın ölkəmizdə nümayəndəliyi fəaliyyət göstərir. Azərbaycanın AİB-in səhmlərində payı 0,447 faiz təşkil edir. Hazırda AİB tərəfindən Azərbaycanda 10 texniki yardım layihəsi həyata keçirilir. Bura ölkəmizdə iqtisadi diversifikasiya sektorunun inkişafı proqramının müasirləşdirilməsi üzrə peşə təhsili və təlimin hazırlanması, dövlət–özəl tərəfdaşlığının inkişafı mərkəzi və layihələrin inkişafı fondunun dəstəklənməsi, vergi siyasəti və idarəetmə potensialının gücləndirilməsi, iqtisadi diversifikasiya üçün qeyri-bank maliyyəsi və alternativ maliyyə alətlərinin inkişafı, dövlət sektorunda idarəetmə islahatına dəstək, Naxçıvan Muxtar Respublikasında irriqasiya və drenaj sisteminin inkişafı layihəsi üzrə texniki dəstək, yerli texnoloji startapların inkişafının təşviqi üzrə bilik və dəstək texniki yardımı, daha effektiv iqtisadi siyasət üçün biliyin idarəolunmasının gücləndirilməsi, COVID-19 aktiv müdaxilə və xərclərə dəstək proqramı, eləcə də dəmir yolu tranziti əməliyyatlarına və investisiya planlaşdırılmasına dəstək layihələri daxildir.

Ötən müddətdə Azərbaycan Respublikası AİB-dən ümumi dəyəri təxminən 5,2 milyard dollar olan kredit, qrant və texniki yardımlar əldə edib. Bu layihələr əsasən maliyyə, dövlət sektorunun idarə edilməsi, kənd təsərrüfatı, enerji, səhiyyə, su idarəçiliyi və nəqliyyat sahələrinə aiddir. Hökumətin Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsinə dəstək olaraq AİB-in Azərbaycana qısa və orta müddətli yardımı dövlət sektorunun idarə etməsi, nəqliyyat və enerji, eləcə də şəhər yerlərinin infrastrukturu və özəl sektorun inkişafı sahələrində əməliyyatları ehtiva edəcək.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

# Azərbaycan heyəti Daşkənddə TÜRKSOY-un yubileyində



**TÜRKSOY-un yaradılmasının 30 illiyi münasibətilə Özbəkistanda keçirilən tədbirlərdə iştirak edən Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Daşkənd şəhərindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində olub.**

Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevə həsr olunmuş fotosərgi və Mədəniyyət Mərkəzinin layihələri ilə çap edilmiş kitablar, ulu öndərə həsr edilmiş nəşrlərdən ibarət sərgi ilə tanış olan nazir gerçəkləşdirilən layihələrini önəmini vurğulayıb, bu sahədə işlərin genişləndirilməsinin zəruriliyini bildirib. Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyində bildirilib ki, burada ümummilli liderin həyat və fəaliyyətini əks etdirən eksponatların, fotostendlərin nümayişi ilə yanaşı, müxtəlif tədbirlər də keçirilir.

Nümayəndə heyəti mərkəzdə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə yaradılmış Azərbaycan Dövlətçiliyi və Azərbaycan–Özbəkistan Dostluq muzeylərinə də baxıb, qardaş xalqların ortaq tarixi köklərini, milli-mənəvi dəyərlərini əks etdirən eksponatlar, bu ölkədə tanınmış soydaşlarımızdan bəhs edən aid guşə, "Azərbaycan xalçaları salonu" ilə tanış olub. Nazirə mərkəzdə yaradılmış kitabxana, rəqs və rəsm dərnəkləri, Azərbaycan dili kursları barədə məlumat verilib.

Azərbaycan Mədəniyyət Mərkəzinin kollektivi ilə görüşən nazir mərkəzin fəaliyyətini yüksək qiymətləndirib və işlərində uğurlar arzulayıb.

***

**Azərbaycanın mədəniyyət nümüyəndə heyəti Daşkənddə TÜRKSOY-un 30 illiyi ilə bağlı keçirilən tədbirlərdə də iştirak edib.**

Dövlət Tərbiqi İncəsənət Muzeyində Türk dünyası rəssamlarının və sənətkarlarının "Türk dünyası" adlı sərgidə Özbəkistanın mədəniyyət və turizm naziri Azadbek Nazarbekov, TÜRKSOY-un Baş katibi Sultan Rayev, Azərbaycanın mədəniyyət naziri Adil Kərimli və digər türkdilli dövlətlərin mədəniyyət nazirləri, Özbəkistanın elm, mədəniyyət və incəsənət xadimləri, rəssamlar, sənətkarlar iştirak ediblər.

Muzeyin həyətində təşkil edilən sərgidə Özbəkistanla yanaşı, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Macarıstan rəssamlarının və tətbiqi sənət ustalarının əl işləri nümayiş etdirilib, hər ölkənin milli mətbəxinə dair guşəyə baxış keçirilib. Mətbəx guşəsində Azərbaycan, Özbəkistan, Türkiyə, Qırğızıstan, Qazaxıstan, Türkmənistanın milli yeməkləri təqdim edilib.

Sərginin açılışında Azadbek Nazarbekov TÜRKSOY-un Türk dünyasının mədəniyyət sahəsinin inkişafına böyük töhfələr verdiyini vurğulayıb. Sultan Rayev bildirib ki, TÜRKSOY yarandığı gündən Türk dünyası arasında əlaqələrin genişləndirilməsi istiqamətində çoxlu layihə həyata keçirib. Baş katib deyib ki, bundan sonra da Türk dünyası arasında mədəniyyət sahəsində əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı müxtəlif layihələrin həyata keçirilməsi davam etdiriləcək.

Sonra qonaqlar sərgiyə və muzeyin eksponatlarına baxıblar.

***Qulu KƏNGƏRLİ,***
**Daşkənd**



# Naxçıvan uşaqlarının yubiley töhfəsi



**Naxçıvanda uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri şagirdləri arasında ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ifaçılıq, rəqs və rəsm müsabiqələrinə yekun vurulub.**

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Muxtar Respublika Mədəniyyət Nazirliyinin təşkil etdiyi sənət yarışmasının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Məclis müsabiqə iştirakçılarının əl işlərindən ibarət sərgiyə baxışla başlayıb.

Rəsmi hissədə Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Həsən Kərimov bildirib ki, müsabiqənin məqsədi, əsaslarını ulu öndər Heydər Əliyevin yaratdığı dövlət uşaq siyasətinə uyğun olaraq, istedadlı gənc və yeniyetmələri aşkar edib üzə çıxarmaq, onların yaradıcılıq potensialını inkişaf etdirməkdir. Ümumilikdə, 20 nominasiya üzrə keçirilən müsabiqəyə 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbinin 1000-ə yaxın şagirdi qoşulub.

Mərasimdə qaliblərlə yanaşı, onlara rəhbərlik etmişcvə müsabiqənin təşkilində fərqlənmiş müəllimləədə fəxri fərman və diplomlar təqdim edilib. Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi qalib iştirakçıların sayına görə fərqləndiyi üçün "İlin məktəbi" adına layiq görülüb.

Mərasimin bədii hissəsi müsabiqə qaliblərinin ifasında konsertlə davam edib.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

# Dövlət – din modeli mövzusunda konfrans



**Dünən "Heydər Əliyev İli" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 22 illiyinə həsr olunmuş "Azərbaycanın dövlət-din modeli" mövzusunda konfrans keçirilib.**

Sədr Mübariz Qurbanlı 22 il bundan əvvəl, 2001-ci ilin iyun ayının 21-də Ulu öndər Heydər Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsi məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılması barədə sərəncam imzaladığını bildirib. DQİDK sədri vurğulayıb ki, Ümummilli liderin əsasını qoyduğu dövlət-din siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Komitə sədri diqqətə çatdırıb ki, Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun milli-mənəvi dəyərlərimizin, zəngin tolerantlıq ənənələrimizin ölkədə və beynəlxalq aləmdə təbliği istiqamətində ardıcıl fəaliyyəti dövlət komitəsinin qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsinə əlverişli zəmin yaradır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov çıxışında dini qurumlarla işin qurulması, onların dövlət qeydiyyatına alınması, dinşünaslıq ekspertizasının aparılması, dini maarifləndirmə fəaliyyətinin təşkili, beynəlxalq münasibətlərin, eləcə də ictimaiyyətlə əlaqələrin inkişafından danışıb. O, İslam dininə aid ibadət yerlərində vakant vəzifələrin tutulması ilə bağlı müsahibənin statistikasını açıqlayıb. Onun sözlərinə görə, birinci vakansiya zamanı ümumilikdə 270 sənəd qəbulu olub və onlardan 133-ü müsahibədən keçib. Müvəffəqiyyət qazananların 112-si müvafiq vəzifələrə təyinat alıb. Təşkil edilən ikinci müsahibə zamanı isə 254 müraciətdən 66-sı müsahibədən keçib və 55 nəfəri rəsmi din xadimi kimi fəaliyyətə başlayıb. Ötən müddət ərzində 118 din xadimi işindən uzaqlaşdırılıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Qəmərxanım Cavadlı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev, İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, Alban-udi xristian dini icmasının sədri Robert Mobili və Azərbaycan Bəhailəri Dini Mərkəzinin katibi Ramazan Əsgərli və başqaları DQİDK-nın həm 22 ildə keçdiyi uğurlu yoldan, həm də günün reallıqları çərçivəsində üzərinə düşən vəzifələri yüksək səviyyədə həyata keçirdiyindən danışıblar.

Sonda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaradılmasının 22-ci ildönümünü ilə bağlı dövlət komitəsində qulluq keçən və xidmətdə fərqlənənlər fəxri fərmanla təltif olunublar.

***Q.QASIMOV,***
***"Xalq qəzeti"***

# Çex deputatlar Ağdamda

**Çex Respublikası Parlamentinin Deputatlar Palatasının Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Jan Kubik və Çex Respublikası Parlamentinin Deputatlar Palatasının üzvü Michal Ratiborsky işğaldan azad edilmiş Ağdamda erməni vandalizminin izləri, həmçinin aparılan bərpa-quruculuq işləri ilə tanış olublar. Onları Milli Məclisin deputatı Əliabbas Salahzadə müşayiət edib.**



Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı tərəfindən nümayəndə heyətinə Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi barədə ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb.

Ağdam şəhər Cümə məscidinə gələn qonaqlara ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri barədə məlumat verilib. Bildirilib ki, erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam şəhər Cümə məscididir. Ağdam Cümə məscidi 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabağı tərəfindən tikilib. Ölkə əhəmiyyətli abidələr siyahısında olan bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən söküIüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində də mal-heyvan saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı nifrətlərini nümayiş etdiriblər. Qeyd edilib ki, Ağdam şəhəri işğaldan azad olunduqdan sonra Heydər Əliyev Fondu tərəfindən Cümə məscidində bərpa-restavrasiya işlərinə başlanılıb.

Prezidentin xüsusi nümayəndəliyinin Ağdamdakı düşərgəsində olan qonaqlara Ağdam şəhərinin Baş planı çərçivəsində həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib. Nümayəndə heyəti sonda Ağdam Konfrans Mərkəzi ilə tanış olub.

***"Xalq qəzeti"***

# Bakıda sovet dövründən qalma nişanələr

**Bakıda, o cümlədən mərkəzi küçələrdə SSRİ-nin dövlət simvollarını əks etdirən nişanlar, kiril əlifbası ilə yazılmış bəzi lövhələr, hələ də qalmaqdadır.**



Görkəmli şəxslərin yaşadıqları binalara, oxuduqları təhsil ocaqlarına vurulmuş bəzi barelyeflərdə istifadə olunan əlifba, hələ də dəyişdirilməyib. Belə yazılardan əksəriyyəti məlumat xarakteri daşıyır. Rəsmi olaraq, 1991-ci ildən respublikamız latın qrafikalı Azərbaycan əlifbasına keçid edib. Bu əlifba ilə təhsil almış gənc nəsil isə kiril əlifbasını oxuya bilmir. Belə olan halda məlumat məqsədli qeydlər əhəmiyyətini itirir. Haqlı sual yaranır: kirillə yazılmış lövhələr niyə dəyişdirilmir? Tarixiliyi qorumaq üçün? Yox, bu, sualın cavabı deyil, çünki bəzi abidələrin lövhələrində yazılar latın əlifbasına dəyişdirilib.

Bu barədə Mədəniyyət Nazirliyinə sorğu göndərdik. Bizi bir şəxsdən digərinə yönləndirməklə yanaşı, sorğumuza cavab verməkdən də yayınmağa çalışdılar. Təkidimizdən sonra, nəhayət, cavab verildi. Bildirildi ki, abidənin üzərində həkk edilən yazı onun bir hissəsidir, müəllif ideyasının əks olunmasıdır, bu yazıların dəyişdirilməsi abidəyə müdaxilə hesab oluna bilər.(?!)




Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru, professor Sevinc Əliyeva qeyd etdi ki, abidənin üzərindəki yazı saxlanıla bilər. Lakin nəzərə almaq lazımdır ki, Azərbaycanın dövlət dili latın qrafikalı Azərbaycan dilidir və bu, bütün sahələrdə tətbiq edilməlidir. Məhz buna görə də kiril qrafikası ilə yazılmış abidələrin kifayət qədər yaxınlığında, həmin şəxsin adı və onun haqqında qısa məlumat yazılmış yeni məlumat löhvəsinin qoyulması daha məqsədə uyğundur.

Təəssüf ki, paytaxtda kiril əlifbası ilə yazılmış əksər barelyeflərin yanında heç bir yeni məlumat lövhəsi yoxdur. 2002-ci ildə qəbul edilmiş "Dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununda göstərilir ki, Azərbaycan Respublikasının dövlət dilinin əlifbası latın qrafikalı Azərbaycan əlifbasıdır. Qanunun 15-ci maddəsinin son bəndində o da qeyd olunur ki, Azərbaycan yazı mədəniyyətinin tarixində mühüm rol oynamış ərəb və kiril əlifbalarından xüsusi hallarda (lüğətlərdə, elmi nəşrlərdə ədəbiyyat göstəricisi və s.) istifadə edilə bilər. Bu isə, göründüyü kimi ünvan lövhələrinə barelyeflərə aid deyil.

Təəssüf ki, məsələ təkcə barelyeflərlə bitmir. Araşdırarkən şahidi olduq ki, böyük şəxsiyyətlərimizə qoyulmuş abidələrdə də eyni halla rastlaşırıq. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Səməd Vurğunun heykəllərində yazılar kiril əlifbası ilə olduğu kimi saxlanılıb. Heykəllər şəxsiyyətlərə olan hörmət göstəricisi və incəsənət əsəri olmaqla yanaşı, ölkəmizə gələn qonaqlara bu məmləkət haqqında məlumat vermək məqsədinə də xidmət edir. Odur ki, latın qrafikalı qeydlərlə yanaşı, xarici dillərdə məlumatlar da olmalıdır.

Binalarda olan sovet dövrü nişanlarına da eyni münasibət göstərilir. Yəni, bir hissələri yenilənərkən digər hissələrinə toxunulmur. Misal olaraq, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin binasında ("İsmailiyyə" binası) görülən işləri göstərmək olar. Binanın yuxarı hissəsində kiril əlifbası ilə yazılmış "Azərbaycan SSRİ Elmlər Akademiyası" sözü silinsə də, binaya sonradan sovet dövründə əlavə edilən medalyonlarda beşguşəli qızılı ulduzlar çıxarılmayıb.



Onu da qeyd edək ki, sovet dövrünə aid nişanələrin daha çox saxlanıldığı yer isə Fəxri xiyabandakı bolşevik qəbirləridir. Belə ki, buradakı bolşevik qəbirlərinin üzərindəki yazılarda Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mənsubları, müsavatçılar təhqir edilib. Bu başdaşıların üzərində yazılıb: "Müsavat qatillərinin əli ilə öldürülmüş Mirfəttah Əli oğlu Müsəvi 1891-1919", "Müsavat cəlladları tərəfindən vəhşicəsinə öldürülmüş alovlu bolşevik Əli Bayram oğlu Bayramov 1889-1920". Dövlətçilik və varislik ənənəsini, bayrağını əmanət kimi istifadə etdiyimiz cümhuriyyətin mənsublarının bu cür təhqir edilməsi yolverilməzdir.

Mədəniyyət Nazirliyindən bildirildiyinə görə, bu məsələ onların səlahiyyətində deyil. Bəs kimin səlahiyyətindədir?

***Rüfət MƏHƏRRƏMOV***

# İslamda türklər və türklərin islamı

## *Müsahibimiz Egey Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun yaradıcısı, professor Fikrət Türkməndir*

**Dünyaca məşhur türkoloq, qardaş Türkiyənin İzmir şəhərindəki Egey Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun yaradıcısı və uzun illər rəhbəri olmuş professor Fikrət Türkmən bugünlərdə Bakıda keçirilən beynəlxalq konfransda iştirak etmək, yeni yaradıcılıq əlaqələri qurmaq üçün ölkəmizə gəlmişdi. Səfər proqramının sıxlığına, vaxt azlığına baxmayaraq, Türk dünyasının ünlü xocaları sırasında yer almış Fikrət bəyi redaksiyamıza dəvət edib aktual mövzularda müsahib olduq.**



Hörmətli qonağımız qəzetimizə və "Xalq TV"-yə müahibəsində çağdaş elmi-mədəni düşüncəmizdə önəmli yer tutan "Türklük və İslam", "Türk birliyinin hədəfləri" mövzusunda suallarımızı tarix və müasirlik baxımından cavablandırdı. Professor Fikrət Türkmənin geniş açıqlamasının birinci hissəsini oxucularımıza təqdim edirik.

**– Fikrət bəy, qloballaşan dünyada xristian təəssübkeşliyinin artdığı, əksinə, Qərb ölkələrində İslam dini kanonlarını aşağılamaq meyillərinin səngimədiyi bir şəraitdə Şərqdə İslam həmrəyliyi hərəkatının güclənməsi ilə yanaşı, "Ərəb islamı, "Türk islamı", eləcə də İran-şiə islamı bölgü və meyllərinə də rast gəlirik. Bunlar nədən və haradan qaynaqlanır? Türk islamı anlayışı hansı məna-mahiyyət daşıyır.**

– Türklər islamiyyətə gələnədək böyük bir yol kecmiş, islamı dəyərləri qəbul etdikdən sonra isə bir qızıl dövr yaşamışlar. Tarix sübut edir ki, hələ İslamdan öncə də ulu babalarımız tək Tanrıya inanmışlar. Onlar islamı qəbul etdikdən sonra da sivil türk inanclarını saxlamışlar. Türklərin dünya tarixində qazandıqları böyük uğurların başında həmişə islam dayandı. İslamda Türk inancının mövcudluğu bunun əsası idi.

Belə bir zəmində türk islamı yaradılmış və islamı qəbul edən türklər bu dəyərlərə sayğı və hörmətlə yanaşmışlar. Mən Fransada təhsil aldığım illərdə də türklərin islama nə qədər böyük dəyər verdiyinə şahid oldum. Cümə günlərində Parisdə məşhur məscidə dünyanın çeşidli ölkələrindən ibadətə gələnlərin davranışlarını görmək bəs edirdi ki, türklərin islama nə qədər dərindən yiyələndiyini və hörmətlə yanaşdığını görəsən. Məscidə gələnlər ibadət vaxtı söhbət edir, bəzi hərəkətlər edir, divara söykənir, yatır və s. Mən onda fərq etdim ki, türklər qədər həm maddi, həm də mənəvi və ruhi cəhətdən islama ciddi yanaşan millət yoxdur.

Başqa xalqlarda gördüyüm yabançılıqlar məndə belə fikir yaratdı ki, bunlar, əslində, islamla bağlı deyil və Quranla da heç bir əlaqəsi yoxdur. İslamda da, digər dinlərdə də belə yapışdırmalar, yan gətmələr var. Əməvilər dövründə də bunlar yaşanmış, istədiklərini islam adına qəbul etdirməyə çalışmışlar. Məsələn, deyirlər ki, filan surəni yüz bir dəfə oxusan günahların bağışlanar. Sual yaranır islam bu qədər bəsitdirmi? Bunu bir misal kimi verdim.

Dediyiniz qloballaşan dünyanın, az qala, hər bir nöqtəsində bu gün islam amilindən gen-bol danışılmaqdadır. Hətta Türk islamı, Ərəb islamı idfadələri ilə yanaşı fars islamı ifadəsini də eşitməkdəyik. Əslində, İslamın şiəlik məzhəbi ilə bağlı olan bu anlamı qəbul etmək mümkün deyil. Əvvəla, ona görə ki, şiəlik haqqın, ədalətin müdafiəsinə qalxan bir təlimdir. Amma təəssüflər olsun ki, İranda şiəlik adı ilə elə bir mühit yaradılıb ki, burada cəhalət və ədalətsizlik, insan haqlarının pozulması hökm sürməkdədir. İkincisi, buradakı şiəçilik islami dəyərlərə uzun illərdir yapışmayan yamaqdır və bu ölkədə etnik tayfa olan farsların şovinist ideyalarının vasitəçisi olmaqla islam dini prinsipləri ilə də uyuşmur.

Tarixi reallıqdır ki, farslar islam dinini türklərdən fərqli olaraq zor gücünə qəbul ediblər və hər zaman müsəlmanlara, o cümlədən türklərə qarşı vuruşublar. Müasir dünyada baş verənlər də bunu bir daha təsdiqləyir: Qarabağ savaşında ermənilərin yanında oldular, bu gün də çağdaş vandallarla "sarsılmaz həmrəylik" nümayiş etdirirlər. Bunlar fars islamının, əgər belə bir islam varsa görünən tərəfləridir.

**– Belə bir qənaət də var ki, islam türkləri yüksəltdiyi kimi, türklər də daim islamın bayrağını ucaldıblar.**

– Bu sırada ağılı ön plana çıxaran Əhməd Yasəvidir və mənim nəzərimcə Əhməd Yasəvi türk islamının rəqibsiz timsalıdır. Orta Asiya türkləri arasında islamı yayan, Anadolunun türkləşməsində və müsəlmanlaşmasında böyük rolu olan Əhməd Yasəvi türk islamının lideridir. Ruhən, qəlbən və əqli baxımdan dürüstlük faktı və ağılın önə çıxarılması türk islamının təməlidir. Ağıla uymayanı türk islamı qəbul etmir. Türk altun çağı deyilən XI–XIV yüzilə qədərki türk-müsəlman aliminin hamısı mükəmməl düşüncə sahibləridir. Amma daha sonra başqa şeylər başlayır, dinin içərisinə mənfəət, siyasət daxil olur. Dini siyasətə alət etmək olmaz. Dini öyrətməlisən, amma nağıl yox, ağıl yolu ilə.

Türk islamında Tanrıya qovuşmaq eşqi var, cənnət ümidi və cəhənnəm qorxusu yoxdur. Ərəb islamında öldükdən sonra qəbir evində sorğu-sualdan keçmək və cəhənnəmdən qurtarmaqdan, cənnətə getməkdən danışılır. Yaxud, ərəblər Quranı oxumağa önəm verirlər– anladın-anlamadın oxmaq savabdır. Türk islamında müqəddəs kəlamların başa düşülməsi əsasdır. Musiqi, oyun kimi sənət zövqü haram sayılmır. Ərəb islamı cənnətə düşmək üçün oruc tutmağı, çox namaz qılmağı, Həccə getməyi zəruri hesab edir. Hətta belə bir anlam da var ki, həccə gedənlərin günahları silinir.

Türk islamı bu məsələyə münasibətdə nə deyir?! Burada cənnətə düşməkdən yox, Tanrıya qovuşmanın xoşbəxtliyindən danışılır. Bunun üçün də xoş məramlı və dürüst olmaq, insanlara və bütün yaradılanlara yaxşılıq etmək, pislik etməkdən çəkinmək tövsiyə olunur. İndi özünüz baxın və müqayisə edin. Bir sözlə, türk islamı ağıl və elmlə vəhdətdədir. Tarix də sübut etdi ki, toplumun elmdən və ağıldan ayrı düşməsi ilə bədbəxtliklər baş verib, hətta böyük dövlətlər dağılıb.

İslamın fəzilətləri o qədər böyükdür ki... Amma anlada bilmişikmi? Nədən anlada bilməmişik? Bu sualın cavabını tapmayınca sıxıntılarımız böyük olacaq. Başqaları, yəni müsəlman dünyasını nəzərdə tuturam, islam aləminin başbilənləri bunu özləri anlayıb, topluma da anlada bilirlərmi? Zəngin dövlətlərin islamla əlaqəsi pozulmuş, odur ki, yoxsul ölkələrə çevrilib açlıqla vuruşur. İslam böyük bir çalxantı içərisindədir. Yenə sual yaranır: nədən? Bu nədəni tapa bilən insanlar türk islamı aləmində inanıram ki, var. Amma önləri qapalıdır, çözülməsi lazımdır. Daha sonra, islamın böyüklərini tanımırıq. Məsələn, Maturonu tanımırıq – o, türk islamının yolgöstərənidir. Gedin küçədə soruşun, tanımayacaqlar.

**– Tanıyıb unutmuşuq, yoxsa əvvəldən tanımamışıq?**

– Xeyr, tanımışıq, amma bilərəkdən və qəsdən unutdurublar. Mən bir ara İbn Sinaya daha çox üz tutdum, bir sıra məqalələr də yazdım. Bu adam tibb elmi başda durmaqla, neçə elmi kitablar yazdı, Avropada illərlə öyrənildi, tədris edildi. İslama heç bir şübhəsi olmayıb, amma elmin gücünə arxalanıb. Bunu məktəblərdə öyrətmək yerinə, məktəblərə imam göndəriblər. İmam isə nəinki yetkin deyil, əksinə cahildir.

**– Əsasını vurdu, sümüklər qalxdı, dirildi... İnsan həyatında da, cəmiyyətdə də ağılın məntiqi aparıcı və yetərlidir.**

– Bu bir mifalojidir. Dastanlarda deyilən kimi Battal Qazi bir nərə çəkdi 5 min insan məhv oldu. Bu dinə girməz. Daha sonra din siyasiləşdi. Osmanlı imperatorluğu çökərkən, onun xilasını düşünənlər söylədilər ki, osmanlı vətəndaşı adını ucaltmaqla birliyimizi qoruya bilərik və bu ad ilə osmanlıçılıq ideologiyası ortaya atıldı. Marşlar yazıldı: "Ocmanlıyıq can verərik, can alarıq" və daha nələr. Amma sonra nə oldu, bolqar bolqaram deyə, yunan yunanam, serb serbəm, ərəb ərəbəm deyə ayrıldı.

Baxdılar bu alınmadı, onda dedilər islam milləti yaradaq və panislamizm başlandı. Nə oldu, Türkiyə Avropa ilə ərəblər, altun verən tərəfə sürüşdü, arxadan türkü bıçaqladı. Anladıq ki, musəlmanlıq da ideaoloji olaraq özünü doğrultmadı. Ən sonunda Əli bəy Hüseynzadənin və Ziya Göyalpın ortaya qoyduğu "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideologiyası gündəmə gəldi. Türk millətindənəm, islam ümmətiyəm, qərb mədəniyyətindənəm deyimi şüar halına gəldi və alındı. Biz istiqlal savaşını millətçilik duyğusu ilə qazandıq, bunun yanına islamı da qoyduq. Çanaqqala savaşında da bu birlik qalib gəldi. Mehmet Akif Ersoyun "Çanaqqala şəhidlərinə" məşhur şerində bu birliyin təntənəsi var.

Digər maraqlı bir faktı da söyləyim, böyük Türk şairi və İstiqlal Marşının müəllifi olan Mehmet Akif Ersoy həm də Quranın tərcüməçisidir. 1920–1923-cü illər arasında TBMM-də ilk millət vəkili olaraq iştirak edən Mehmet Akifin adı parlament qeydlərində "Burdur millət vəkili və İslam şairi" olaraq xatırlanır.

**– Yeri gəlmişkən islama qədərki göytanrıçılıqdan danışan türk elm adamları təsdiq edirlər ki, islam ilə türkçülük arasında ciddi bir uyarlılıq var. Ona görə də türklər islamı könüllü və rahat qəbul ediblər.**

– İslamdan öncəki türk dini təriqətlərində – şamanizm, buddizim və başqalarında istifadə edilən ayinlər var. Türklər islamı qəbul edəndə islam sözlüyü və termini yox idi, amma əskidən qəbul edilənlər davam etdirildi, tanrı yerinə allah işlədildi, peyğəmbər yerinə yalvac deyildi. Rəmzlərlə anlaşılmaya çalışıldı. Məsələn, namazı anladanda əlif yazıldı. Əlif adəm deməkdir, dal yazanda adam əyilmiş və səcdəyə gedir yozumları ortaya çıxdı. Buna bənzər yüzlərlə misallar var. Məsələn, ərəb əlifbasındakı hərflərin rəqəmsal dəyərləri var. Allah kəlməsi əlif bir, əlif iki və sairə topladıqda 66 ədədinə uyğun gəlir. Xalq arasında tənbəllik edən birisinə "yenə 66-ya bağladın" deyirlər – yəni Allaha bağladın, allaha həvalə etdin. İslam aləmindəki bütün bayraqlarda hilal var. Anlamı biz hilalın – Allahın lütfü altındayıq, Allahın bayrağı altındayıq mesajıdır.

Tarixdə islam bayrağını ucaldan türk hökmdarları zamanında sevgi və sonra əbədiyyət qazanıblar. Onları da yada salaq...

–Toplumlar tarix səhnəsinə çıxanda uşaqlıq dönəmini yaşar, hər şeyə inanar və qəbul edər. Bu mifoloji dönəmdir. Bundan sonra dastanlarda olduğu kimi epik dönəm gələr. Buna xalqımız dəliqanlılıq dönəmi deyir, adam dəliqanlı olursa qəhrəman olur. Burda din uğrunda mücadilə də var, Battal Qazi kimi, Hüseyn Qazi kimi qazilərin mücadiləsi də.

Türk mədəniyyətində və düşüncə sistemində bunun da önəmli yeri var. Bu dövrdən sonra isə ərənlik gəlir və burada insan da, toplum da tamamən islamiləşir. Əslində, xristan toplumunda da belədir və türklərdə də bu sistem yer almış və davam etmişdir. Amma məqama, mənfəətə meyl edən kimi sistem çalaxalanmağa başlamışdır. Qoruna bilənlər qorunmuş, digərləri isə yıxılmışdır.

– Azərbaycanda da bunlar yaşandı, Rusiyanın işğalından sonra uzun illər nicat yolu axtarıldı, millətin varlığını qoruması üçün mücadilə aparıldı. Axundov islamı bəla kimi qəbul etdi, Avropa maarifçiləri kimi allahsızlığı qəbul etdi. Amma nə İstanbuldan, nə Tehrandən dəstək almadı. Sonra Moskvada universitet təhsili almış Həsən bəy Zərdabi gəldi, ilk milli mətbuatı, teatrı, xeyriyyə cəmiyyətini yaratdı, 15-ə qədər sivil bünövrə qoydu. O anladı ki, bu məmləkətdə islamsız addım atmaq, nəsə bina etmək olmaz.

**–Bəli, bu məsələdə mövqe qoyan ziyalılar hər yerdə oldu. Burada da, İstanbulda da. Amma ya səsləri çıxmadı, ya da gücləri yetmədi. Məsələn Sabir. Niyə harada müsəlmən görürəm, qorxuram deyir?!**

– Sabiri qorxudan türklüyünu və islami düşüncəsini itirənlər idi...

– Heç şübhəsiz belədir. Sabir din adından danışanların ikiüzlülüyünü, mənəviyyatsızlığını görüb, mollanın şarlatanlığını görüb deyirdi bunu. Minbərdə bir şey deyib, həyatda başqa işlərə tuş olanlar qorxuludur. Bizdə son zamanlarda bir imam çıxıb deyir ki, filankəsə səs verənlərin namazı qəbul edilməz. Haradan aldın sən bu əmri? Kimin günahkar olduğunu sən haradan bildin? Bu çox təhlükəlidir. İmanlı insan din yolunu azmamalı, ağıl yolunu tutmalıdır. Çünki dinin təməlində doğruluq, yönləndirmək durur.

Təəssüf ki, qəbul etmək istəməyənlər də var. Bunu söyləmək istərdim ki, bir fransız mütəfəkkir gənclərə xitab edərək yazır: gənclər, siz lobaratoriya və kitabxanaların səssizliyində yaşayın. Axşam yatağınıza girəndə özünüzdən soruşun: bu gün özüm üçün, ailəm üçün, ölkəm və insanlıq üçün nə etdim? Gerçək islam budur. İslamda calışanın haqqı, cinayət edənin cəzası verilir. Ədalət ayaq altına salınanda, layiq olmayana vəzifə veriləndə islama məhəl qoyulmur.

**– İslam sivilizasiyası ilə yanaşı, Şərq mədəniyyəti ifadəsi də işlədirik. Fikir babamız Zərdabinin "Əkinç"də dərc olunmuş bir məqaləsi var: "Şərq nə, Qərb nə?" Cavabı bu olur ki, Qərb hər şeyi Şərqdən götürüb – onu nizama salıb. Şərq isə olanını itirib, indi baxır ki, Qərb sağ ayağını birinci atır, yoxsa sol...**

– Bunu bilirik, onu da bilirik ki, Günəş Şərqdən doğur, Qərbdə batır. Günəş işıqdır, aydınlıqdır, həyatdır, türklər ona istinad edərək təqvim yaratmışlar. Şərq itirdiklərini tapmalı, ağılın gücünə arxalanmalı, ədalətə arxalanmalıdır. Şəhriyar nə deyirdi: "Bizdən qabaqdadır avropalılar. İşi işbilənə tapşırır onlar". Türklərin tarixdə inandıqları, yaşatdıqları islam da bax bunu deyir: ağıl və ədalət! Bu gücün qaynağı ilahi sevgidir.

**Söhbəti apardılar:**
**Namiq QƏDİMOĞLU,**
**Tahir AYDINOĞLU,**
**"Xalq qəzeti"**

# Suraxanıda Abbasqulu Ağa Bakıxanovun ad günü qeyd edildi

**Tədbir iştirakçıları öncə böyük mütəfəkkirin Əmircan qəsəbəsindəki abidəsi önünə tər çiçək dəstələri düzdülər və ruhuna dualar oxudular.**



Sonra qəsəbədəki N.Salamov adına 97 nömrəli tam orta məktəbdə müəllimlərin, şagirdlərin və rayon ictimaiyyət nümayəndələrinin iştirakı ilə geniş ədəbi-bədii tədbir təşkil edildi. Çıxışlardan əvvəl ulu öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildikdən sonra Abbasqulu Ağa Bakıxanova həsr olunmuş videosüjetlər təqdim edildi və şagirdlərin ifasında böyük mütəfəkkirin elm, təhsil, əxlaq və mədəniyyət haqqında kəlamları səsləndirildi.

Məktəbin direktorunun, müəllimlərin və Əmircan qəsəbəsini təmsil edən yaradıcı ziyalıların böyük ədib və tarixçi haqqında səsləndirdikləri fikirlərin hər birində özünəməxsusluq, qədirbilənlik və mənəvi dəyərlərə bağlılıq telləri görünürdü. Natiqlər eləcə də, xalqımıza onlarca görkəmli şəxsiyyət bəxş etmiş Bakıxanovlar sülaləsinin tarixinə nəzər saldılar, Əmircan kəndinə şöhrət gətirən hər kəsin xatirəsinə ehtiram ifadə etdilər.

Qeyd edildi ki, Abbasqulu ağa Bakıxanov 1794-cı il iyun ayının 21-də Bakının Xilə – indiki Əmircan kəndində varlı bir ailədə anadan olmuşdur. Onun atası II Mirzə Məhəmməd xan Bakı xanları nəslindən, anası Sofiya xanım isə müsəlmanlığı qəbul etmiş gürcü qızı idi. Bakıxanov səkkiz yaşına qədər Bakıda yaşamış, uşaqlığının ilk dövrünü Abşeronun Əmircan, Maştağa, Balaxanı kəndlərində keçirmişdir. 1802-ci ildə atası xanlıq taxtı uğrunda vuruşmalarda öz əmisi oğlu Hüseynqulu xana məğlub olduğuna görə məcburiyyət qarşısında qalaraq Qubaya, vaxtı ilə dayısı Fətəli xanın ona bağışladığı Əmsar kəndinə köçməli olmuşdur. Abbasqulu ağa 1819-cu ilədək Qubada, Əmsar kəndində yaşamış, yarımçıq qalan təhsilini davam etdirmişdir. Burada o ərəb və fars dillərini mükəmməl öyrənmiş, bu dillərdə yazılmış xeyli ədəbiyyat oxumuşdur. Şərq dilləri ilə yanaşı ədəbiyyat, ilahiyyat və fəlsəfəni mükəmməl öyrənməyə səy göstərmişdir. 1819-cu ildə Bakıxanov o zamankı Qafqazın baş hakimi general A.Yermolovun dəvəti ilə Tiflisə gəlib Qafqaz Baş Hərbi İdarəsində şərq dilləri üzrə tərcüməçi vəzifəsinə qəbul olunmuş və 26 il bu vəzifədə çalışmışdır. Tiflis mühiti, Avropa və rus şair və ziyalıları ilə görüş onun dünyagörüşündə dərin iz buraxmışdır.

Tədbirdə iştirak edən Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Abbasqulu Ağa Bakıxanov yaradıcılığının milli məziyyətlərindən danışmaqla yanaşı, xalqımızın öz tarixi şəxsiyyətlərinə qarşı nümayiş etdirdiyi qədirbilənlik nümunələrini də yada saldı. Rayon rəhbəri bakıxanovsevərlərə müjdə verdi ki, o böyük elm xadiminin Əmircan qəsəbəsində yaşadığı evin "Bakıxanovun ev muzeyi" kimi bərpa edilməsi üzərində iş aparılır.

Bakıxanovlar nəslinin görkəmli nümayəndəsi, görkəmli sənətkar, Xalq artisti, professor, "Şöhrət" və "Şərəf" ordenli bəstəkar Tofiq Bakıxanov tədbir iştirakçılarına "Bakıxanovlar XIX əsrdə" adlı kitab təqdim etdi. Bəstəkar əlavə etdi ki, Əməkdar jurnalist İttifaq Mirzəbəyli Abbasqulu ağa Bakıxanov haqqında yazılmış bütün fikirləri toplayaraq "Qüdsi əbədiyyəti" adlı mükəmməl kitab ərsəyə gətirmişdir. Həmin kitab artıq ölkənin bütün kitabxanalarına təqdim olunmuşdur.

Tofiq Bakıxanov eləcə də, xatırlatdı ki, həm ümummilli liderimiz Heydər Əliyev, həm də Prezident İlham Əliyev Bakıxanovlar şəcərəsinin bütün görkəmli simalarının yaradıcılığını daim diqqət mərkəzində saxlayırlar.

Sonda məktəbin direktoru Nigar Hüseynova tədbirdə iştirak edən rayon rəsmilərinə, qonaqlara, eləcə də, yerli ziyalılara təşəkkür etdi və bildirdi ki, 97 nömrəli məktəbin bu ənənəsi daim yaşayacaq və şagirdlərimiz məhz dövlət başçımızın tələb etdiyi səviyyədə – azərbaycançılıq məfkurəsi ilə tərbiyə olunacaqlar.

**İ. QAÇAYEV, "Xalq qəzeti"**

TƏQDİMAT

# "Xocalı şəhidləri 613"

**Dünyanın ən dəhşətli soyqırımlarından biri olan Xocalı faciəsi... 1992-ci ilin müdhiş fevral gecəsində Ermənistan silahlı birləşmələrinin Xocalı şəhərində törətdikləri amansız qətliam... Bu qanlı terror hadisəsində 613 nəfər həyatını itirdi. Qətlə yetirilənlərin 63-ü uşaq, 106-sı qadın, 70 nəfəri qoca idi.**



Dünən Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında təqdimatı keçirilən "Xocalı şəhidləri 613" kitabında 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin törətdiyi soyqırımı zamanı həlak olan 613 nəfərin hər biri haqqında məlumat verilir. Kitabın müəllifi, Xocalı soyqırımı dəhşətlərini yaşayan Dürdanə Ağayeva təqdimatdan əvvəl "Xalq qəzeti"nə bildirdi ki, "Xocalı şəhidləri 613"ü yazmaqda məqsədi məhz erməni faşizminin iç üzünü dünyaya tanıtmaq, bəşəriyyətin məruz qaldığı faciəni geniş ictimaiyyətə çatdırmaqdır.

Bundan əvvəl Xocalı faciəsinin dəhşətli hadisələrini özündə əks etdirən "Erməni zindanında 8 gün" və Vətən müharibəsi şəhidinə həsr etdiyi "Yarımçıq qalmış ömür" kitablarının işıq üzü gördüyünü bildirən D.Ağayeva dedi: "Xocalı sakiniyəm. O müdhiş gecənin odu, alovu içindən çıxmağım bir möcüzəyə bənzəyir. Xocalı dəhşətləri ilə bağlı çoxlu kitablar yazılıb, məqalələr dərc edilib, araşdırmalar aparılıb. İstəyirdim ki, başıbəlalı Xocalımızın bütün şəhidləri barədə məlumatlar bir kitabda cəmləşsin".

Təqdimat mərasimində Milli Məclisin deputatı Vüqar İsgəndərov, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev və digərləri çıxış edərək Xocalı soyqırımının acı nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən danışdılar. Bildirildi ki, Xocalı faciəsinə siyasi-hüquqi qiymət ilk dəfə Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra verilib. Ümummilli liderin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Xocalı soyqırımı (genosidi) günü haqqında" Qərar qəbul edilib və fevralın 26-sı ölkəmizdə Xocalı Soyqırımı Günü elan olunub.

Qeyd edildi ki, ermənilərin törətdikləri bu bəşəri cinayətə beynəlxalq miqyasda hələ də adekvat reaksiya verilməyib.

Kitabın müəllifi Dürdanə Ağayeva "Xocalı şəhidləri 613" kitabının Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində nəşr olunduğunu bildirdi. Vurğuladı ki, soyqırımı dəhşətlərini yaşayanlar acı da olsa, öz xatirələrini qələmə almalı, erməni cəlladlarının xalqımızın başına gətirdiklərini hamıya çatdırmalıdırlar.

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

# OPEC+ çərçivəsində ziddiyyətlər nədən qaynaqlanır?

(əvvəli 1-ci səhifədə)

Bu, Moskva ilə Ər-Riyad arasında ciddi gərginlik yaşandığını deməyə əsas verirmi? "Arqumentı i faktı" qəzetində ekspert-energetik Aleksandr Frolov bu suala cavabında belə bir fikir ayrılığının ayrı-ayrı nəşrlərin "uydurma məhsulu" olduğunu bildirir. O, "The Wall Street Journal"ın fəaliyyətini bu baxımdan mənfi dəyərləndirir və belə bir mövqedə olan Amerika nəşrlərinə diqqət yetirməməyi məsləhət bilir. A.Frolov, həmçinin Səudiyyə rəsmilərinin bəyanatlarında da belə bir iddia səslənmədiyini, Ər-Riyadın Moskvanın hərəkətlərindən narazı qalmağa ciddi əsası olmadığını qeyd edir.

Ümumiyyətlə, rusiyalı ekspertlərin sözlərinə görə, Səudiyyə Ərəbistanının, hətta formal da olsa, bu barədə iddia səsləndirməyə heç bir əsası yoxdur. Çünki bu ölkə cari ilin əvvəlində hasilatın 5 faiz azaldığını açıqlamışdı. Bu məqamda o da qeyd edilməlidir ki, Rusiya OPEC+ ittifaqı çərçivəsində belə öhdəliklər götürməyib. Əslində, bu, əvvəlcədən Rusiyanın könüllü qərarı idi.

Bundan əlavə, məlumdur ki, Rusiyanın neft sənayesi də sanksiyalar altındadır. Buna baxmayaraq, hətta 2022-ci ildə bu ölkə tərəfindən demək olar ki, razılaşdırılmış hasilat səviyyəsinə əməl edilib. Cari il mart ayından etibarən hasilat daha da aşağı salınıb, sutkada 9,7 milyon barelə qədər azaldılıb. Qeydə alınan 10,5 milyonluq icazə isə verilən kvota ilə, yeni 800 min barel "çatışmazlıq"la bağlıdır. Rusiyalı ekspertlər tərəfindən belə bir nəticə fonunda ölkələrinə qarşı vurğulanan tənqid sadəcə olaraq kobudluq adlandırılır. Ərəblər isə bu hərəkəti, belə demək mümkünsə, təkrarlamırlar.

Rusiya mediası Amerika nəşrlərinin bu cür yanlış məlumat verməsini Rusiyanın neft sənayesinə informasiya xarakterli də olsa, təzyiqin artması ilə əlaqələndirir. OPEC+ iclasından bir neçə gün əvvəl ABŞ Konqresinin Nümayəndələr Palatasında neft istehsalçıları və ixracatçılarının kartellərini qadağan edən qanun layihəsinə səsvermə keçirilib. Bu, həm də təzyiq alətidir və Vaşinqtonun fikrincə, OPEC+ ölkələrini alyansa üzvlüyün məqsədəuyğunluğu barədə düşünməyə vadar etməlidir. Alyansda heç bir razılaşmanın olmaması ilə bağlı məlumatlar da bu əsasla uyğun gəlir və iki aparıcı ölkə– Səudiyyə Ərəbistanı və Rusiya arasında qıcıq yaranır.

Bəs bununla amerikalılar nəyə nail olmaq istəyirlər? "Arqumentı i faktı" nəşri sualın cavabı ilə bağlı bildirir:

–Onlar ümid edirlər ki, OPEC+ daxilində danışıqlar səngiyəcək, bazar balanssızlaşacaq və neft qiymətləri aşağı düşəcək. Bu, eyni zamanda, Rusiyaya zərbə vuracaq və seçki ilində Vaşinqton üçün son dərəcə vacib olan ABŞ-da inflyasiya ilə mübarizə aparmağa kömək edəcək. Beləliklə, Rusiyaya təzyiq yalnız artacaq...

"Arqumentı i faktı" digər bir suala– Təsəvvür edək ki, Rusiya dünya bazarını tərk etdi, neft ixracını dayandırdı? Sonra nə olacaq? – cavabında yazır:

– Bu, mümkün deyil. Bu, bütün nöqteyi-nəzərdən tamamilə qeyri-real ssenaridir.

Nəşr daha sonra bildirir ki, Risiya tərəfindən real endirim heç vaxt 30 faizə çatmayıb. Bu, yalnız "Argus" agentliyinin hesabladığı və Avropaya çatdırılan Rusiya neftinin maya dəyərinə əsaslanan "kağız" endirimlər ola bilər... İndi heç kim dəqiq qiymətləri bilmir, neft qiymətinin bir barel üçün 60 dollardan nəzərəçarpacaq dərəcədə yüksək və ya hətta 70 dolları keçdiyi açıq-aydın görünür. Endirimlər hələ də qalır, lakin 20 faizdən yüksək deyil və bu, yalnız "Urals" brendinə münasibətdə doğrudur. Digər sortlar isə praktiki olaraq endirimsiz ixrac olunur.

"Arqumentı i faktı" yekunda "benzinin hazırkı bahalaşması neft məhsullarının xaricə tədarükü ilə bağlı deyilmi?"-sualını isə belə cavablandırır:



–Rusiya özünü motor yanacağı ilə tam təmin edir. Ümumi benzin istehsalının 90 faizi daxili istehlak üçündür, onun isə yalnız 10 faizi xarici bazarlara çıxarılır. Belə bir ixrac həcmi daxili bazara köklü təsir göstərə bilməz. "Hər şey çıxarıldı, ona görə də qiymətlər qalxdı" kimi ifadələr isə əsassızdır.

**V.BAYRAMOV, "Xalq qəzeti"**

# Hansı ölkələr İranda casusluqla məşğuldur?

## *Tehranın dost saydığı dövlətlər də bu kampaniyaya qoşulub*

**İran İslam Respublikası İnqilab Keşikçiləri Korpusunun (SEPAH) kəşfiyyat təşkilatının rəhbəri Məhəmməd Kazemi dünyanın 20 ölkəsini baş örtüyü ilə bağlı ölkəsində başlayan kütləvi etiraz aksiyalarını körükləndirməkdə suçlayıb.**

Briqada generalı Məhəmməd Kazeminin açıqladığı siyahıda, hətta Tehranın münasibətləri normallaşdırmağa çalışdığı ölkələrin də adları var: "İslam İnqilabı Keşikçiləri Korpusunun kəşfiyyat xidmətinin apardığı araşdırmalar nəticəsində məlum olub ki, ölkədə təşkil olunan kütləvi iğtişaşlarda 20-yə yaxın ölkə iştirak edib". General bu sıyahıda ABŞ, Böyük Britaniya, BƏƏ, Səudiyyə Ərəbistanı, Fransa, Almaniya, Kanada, Belçika, Avstriya, Albaniya, Avstraliya, İslandiya, İtaliya, Kosovo, Norveç, Bəhreyn, Yeni Zelandiya və İsrailin adlarını çəkib. Maraqlıdır ki, kəşfiyyatın rəhbəri bu zaman 18 ölkənin adını çəksə də, daha iki dövləti nişan verməyib.



Kazeminin sözlərinə görə, İranın bu yaxınlarda diplomatik əlaqələri bərpa etdiyi Səudiyyə Ərəbistanı, eləcə də BƏƏ də anti-İran kampaniyasında yaxından iştirak edirlər. Kəşfiyyat xidmətinin rəhbəri, həmçinin iddia edib ki, İsrail və BƏƏ-nin xüsusi qurumlarının nümayəndələri İrandakı etirazlara necə və hansı formada dəstək veriləcəyini müzakirə etməkdən ötrü ərəb ölkələrindən birində vaxtaşırı görüşüblər. Bundan əlavə, general Səudiyyə Ərəbistanı və Bəhreyni də İrana "düşmən ölkələr" adlandırıb. Kazemi xarici dövlətlərin ölkəsinə cəlb edilmiş kəşfiyyat orqanlarının daxili iğtişaşlarla bağlı məlumat və dəlillər toplamaq üçün əcnəbiləri, o cümlədən əfqan, pakistanlı və iraqlıları casusluq fəaliyyətinə cəlb etdiyini vurğulayıb. O, məhz pozuculuq fəaliyyəti ilə bağlı qonşu ölkələrdən birinin və avropalıların 40-dan artıq vətəndaşının həbs edildiyini də ictimaiyyətin diqqətinə çatdırıb.

Xatırladaq ki, 2022-ci il sentyabrın 17-də Tehranda əxlaq polisinin zorakılığına məruz qalan gənc qızın ölümü İran ictimaiyyətinin səbir kasasını daşdırdı. Xalqın günahkarları cəzalandırmaq və antidemokratik qanunları aradan qaldırmaq tələbinin qarşısını hakimiyyət zorakılığla yatırmağa qərar verdi. İranın bütün şəhər və qəsəbələrini bürümüş etiraz aksiyalarının 200-dən çox iştirakçısı indiyədək edam edilib, 500-dən artıq insan zindanlara salınıb. Bundan başqa, 20 minə yaxın etirazçı həbsdə saxlanılır. 68-i yeniyetmə olmaqla 500-dən çox aksiyaçı etiraz tədbirlərində hərbi-polis qüvvələri tərəfindən qətlə yetirilib.

QEYD: Briqada generalı Məhəmməd Kazemi İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) kəşfiyyat təşkilatının rəhbəri vəzifəsinə təyin edilənə qədər uzun illər kəşfiyyat sektorunda çalışıb, milli təhlükəsizlik məsələlərində böyük təcrübəyə malikdir. Xatırladaq ki, ötən il mayın 22-də İran İslam İnqilabı Keşikçiləri Korpusunun nümayəndəsi polkovnik Səyad Xodai Tehranda öldürülüb. Daha sonra İsrail yüksək rütbəli iranlı zabitin öldürülməsi ilə bağlı ABŞ-ı xəbərdar edib. SEPAH Xodainin qətlini terror aktı kimi qiymətləndirib.

**İ.HƏSƏNQALA, "Xalq qəzeti"**

## "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı

# Xalqımızın misilsiz mənəvi sərvəti



**"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən elmi simpozium dünən işini sessiyalarla davam etdirib.**

"Muğamın toplama, qoruma, arxivləşmə və yayılma problemləri" mövzusunda keçirilən sessiyada azərbaycanlı mütəxəssislərlə yanaşı, Türkiyə, Böyük Britaniya, Özbəkistan və Qazaxıstandan olan alimlər də çıxış ediblər. Gün ərzində "Mətn və musiqi", "Muğam, dəstgah və xanəndə avazı", "Muğamın toplama, qorunma, arxivləşmə və yayılma problemləri", "Məqam musiqisinin ruhani və cismani təzahürləri" və "Məqam musiqisi elmi mənbələr işığında" mövzularında sessiyalar keçirilib.

Qərbi Kaspi Universitetinin dosenti, sənətşünaslıq üzrə elmlər doktoru Alla Bayramova "1920-ci illərdə Cənubi Qafqaz ekspedisiyalarının materiallarında muğam" mövzusunda çıxış edib. "Muğam dünya kolleksiyalarında: mədəni irsin qorunması və müdafiəsi" mövzusunda çıxış edən Qazax Milli İncəsənət Universitetinin sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Fatima Nurlıbayeva bildirib ki, muğam Şərq ölkələrinin klassik xalq yaradıcılığı musiqisinin əsas janrıdır.

Çıxışlarda qeyd olunub ki, xalqımızın milli sərvəti olan Azərbaycan muğamları, aşıq sənəti, ümumilikdə xalq musiqisi və ifaçılıq ənənələri müasir dövrdə mədəniyyətimizi dünya səviyyəsində tanıdaraq, bu möhtəşəm sənət incilərinin inteqrasiya edilməsində olduqca zəruri rol oynayan faktordur. Muğam və xalq musiqisini, eləcə də Azərbaycan bəstəkarlıq məktəbinin dəyərli nümunələrini ifa edən və beynəlxalq arenada tanıdan məşhur və istedadlı ifaçılar nəsli yetişdirən müasir dövrümüzün ustad sənətkarları xəzinəmiz olan muğamları gələcək nəslə ötürərək qoruyub saxlanılmasında böyük rol oynayır.

Simpoziumda Azərbaycan mütəxəssisləri ilə yanaşı, ABŞ, Böyük Britaniya, Fransa, Hindistan, İsrail, Kanada, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə və Yaponiyadan alimlər iştirak edirlər. Simpoziumun məqsədi yeni tədqiqat istiqamətləri, maqam əsaslı musiqinin müasirləşdirilməsi, populyarlaşdırılması və qorunması üzrə məhsuldar müzakirələr üçün əlverişli mühit yaratmaqdır.

"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində keçirilən elmi simpozium iyunun 22-dək davam edəcək.

***"Xalq qəzeti"***

**Yaxın gələcəkdə dünya nə birqütblü, nə də çoxqütblü olacaq. Dünyada hökümranlıq edən dövlətlər deyil, texnologiya şirkətləri olacaq. Bu fikirləri amerikalı politoloq Yan Bremmer "Foreign Policy" üçün yazdığı məqaləsində açıqlayıb.**

# Dünya daha nə birqütblü, nə də çoxqütblü olacaq

## *Bəs qaydaları kim müəyyənləşdirəcək?*



Müəllif qeyd edib ki, "biz artıq birqütblü, ikiqütblü və ya çoxqütblü dünyada yaşamırıq. Niyə? Çünki artıq bizim hərtərəfli gücə malik fövqəldövlətlərimiz - bütün sahələrdə qlobal gücə malik olan ölkələr yoxdur. Bəli, ABŞ və Çin bu gün fövqəlgüclər deyil, ən azından bu termin həmişə işlətdiyimiz mənanı ehtiva etmir. Fövqəlgüclərin olmaması isə vahid qlobal nizamın olmaması deməkdir. Əvəzində bu gün bizdə çoxlu ayrı-ayrı, lakin bir-biri ilə kəsişən dünya nizamları var.

Birincisi, biz birqütblü təhlükəsizlik qaydaları görürük. ABŞ dünyanın istənilən yerinə əsgər, dənizçi və hərbi texnika göndərə bilən yeganə ölkədir. Qalanları heç ona yaxın da deyil. Amerikanın təhlükəsizlik sistemindəki rolu 10 il əvvəl olduğundan daha vacibdir və əslində daha dominantdır.

Çin Asiyada hərbi potensialını sürətlə inkişaf etdirir, lakin bu miqyas yalnız o regionda mümkündür. Bu, ABŞ-ın təhlükəsizlik çətirinə həmişəkindən daha çox arxalanan onun Hind-Sakit Okean, regionundakı müttəfiqlərini daha çox narahat edir. Rusiya-Ukrayna münaqişəsi də eyni şəkildə Avropanı. ABŞ başda olmaqla NATO-dan daha çox asılı vəziyyətə salıb".

Müəllif haqlı olaraq qeyd edir ki, "sahib olduğu hərbi güc" nə qədər böyük olur-olsun, bu, "Vaşinqtona qlobal iqtisadiyyatda qaydaları müəyyən etməyə imkan vermir, çünki iqtisadi nizam çoxqütblüdür. ABŞ hələ də dünyanın ən böyük, ən güclü və ən dinamik iqtisadiyyatına malikdir, lakin burada qlobal gücü çoxları bölüşür".

Politoloq yazır ki, tezliklə hökumətləri hakimiyyətdən kənarlaşdıracaq texnologiya şirkətlərinin rəhbərlik etdiyi rəqəmsal sifarişlər daha çox təsirə malik olacaqlar. Məhz texnologiya şirkətləri sosial şəbəkələrin köməyi ilə siyasətdə daha mühüm rol oynamağa başlayıblar. Bundan əlavə, korporasiyalar insanın identikliyini müəyyənləşdirirlər: axı, insanın davranışında təkcə genetika və tərbiyə yox, həm də fərdin niyə yaşadığını və nəyə inandığını müəyyən edən alqoritmlər rol oynayır.

Yan Bremmer yazır: "Texnologiya şirkətlərinin topladığı ağlasığmaz miqyasda güc onları müstəqil geosiyasi oyunçulara çevirib. Bu, kommersiya subyektləri artıq, uzun müddət cəmiyyətin, iqtisadiyyatın və milli təhlükəsizliyin dövlətin müstəsna səlahiyyətində olan həmin aspektlərinə nəzarət edirlər".

Məhz korporasiyaların qərarları bütün dünyada insanların qarşılıqlı fəaliyyətinə, düşüncə tərzinə və həyatlarına təsir göstərir. Bundan əlavə, texnologiya şirkətləri hökumətlərin fəaliyyət göstərdiyi qlobal mühiti formalaşdırır. Bremmerə görə, belə olan halda hadisələrin inkişafının üç ssenari var. Birincisi, ABŞ və Çin arasında texnoloji soyuq müharibədir ki, bu, dünyanı iki yerə böləcək. Nəticədə qloballaşma dağılmağa və hissələrə ayrılmağa başlayacaq.

İkinci ssenari şirkətlərin qlobal böyümə strategiyasını əsas götürəcəkləri, fiziki və rəqəmsal rəqabət arasında boşluğu qoruyacaqlarını nəzərdə tutur. Bu, yeni qlobal rəqəmsal nizama gətirib çıxaracaq.

Politoloq fikrini davam etdirərək yazır: "Texnoloji nəhənglər, əsasən, mənfəət üçün bir-biri ilə rəqabət apararaq, rəqəmsal məkanda suverenliklərini qoruyub saxlayacaq, hökumətlərlə isə geosiyasi güc uğrunda rəqabət aparacaqlar".

Əgər nəhəng dövlətlər rəqəmsal məkanda rəqabət apararsa və onların hakimiyyəti zəifləməyə davam edərsə, o zamn texnologiya şirkətləri üstünlüyü ələ keçirəcək ki, bu da rəqəmsal nizamın hökmranlığına səbəb olacaq.

"Bu baş verərsə, o zaman taleyinə XXI əsrin geosiyasətində mərkəzi oyunçu rolunu oynamaq düşən texnologiya şirkətlərinin texno-qütb nizamı – post-Vestfaliya dünyası yaranacaq ", – deyə Bremmer əlavə edib.

Onun fikrincə, hər üç ssenari inandırıcıdır. Onlardan hansının faktiki həyata keçəcəyi indiki strukturlardakı dəyişikliklərdən asılı olacaq.

**Hazırladı: İLQAR, "Xalq qəzeti"**

# "Avropa öz səmasını qorumalıdır"



**Fransa prezidenti Emmanuel Makron bir daha müstəqil Avropa müdafiə sisteminin yaradılmasına çağırıb. Parisdə keçirilən konfransda o deyib ki, Avropa İttifaqı öz hava məkanını qorumaq üçün strategiya hazırlamalıdır. Fransa liderinin fikrincə, bu yolla ABŞ-dan asılılığı azaltmaq olar: "Biz bilməliyik ki, təhlükə nədir... Bəs biz – avropalılar – nə istehsal etməyə qadirik? Bizə nə lazımdır. Lakin "rəflərdə olan hər şeyi dərhal almamalıyıq ".**

Konfransda müzakirələr dron əleyhinə və raketdən müdafiə sistemlərindən gedib. İştirakçıların fikrincə, Rusiyanın Ukraynaya hərbi müdaxiləsi və döyüş əməliyyatlarının gedişi bu cür texnikanın etibarlığını, həm də qüvvələrin əlaqəli fəaliyyətinin nə qədər vacib olduğunu göstərdi.

Bundan başqa, müzakirələrdə nüvə təhlükəsinin qarşısının alınması da gündəmdə olub. Tədbirdə Almaniya, Böyük Britaniya, İsveç, Polşa, Slovakiya, Macarıstan, NATO və Avropa İttifaqının nümayəndələri iştirak ediblər.

Makron deyib ki, ABŞ-ın daha çox hərbi texnikanı standartlaşdırılması Avropanın bu ölkədən asılılığını artırıb: "Amerikalılar bizdən daha çox hərbi məhsulları standartlaşdırıblar, onların federal agentlikləri istehsalçılarına böyük subsidiyalar verir. Hazırda Fransa və İtaliya tərəfindən hazırlanmış "Mamba" zenit-raket kompleksi Ukraynada yerləşdirilib və fəaliyyət göstərir, əsas obyektləri və insanların həyatını qoruyur. Bu, Avropanı qoruyan, Avropanın özüdür". Onun sözlərinə görə, "Mamba" sistemi artıq NATO-nun inteqrasiya edilmiş hava və raket hücumundan müdafiəsinin bir hissəsidir.

Qeyd edək ki, Fransa Almaniyanın Avropanın hava hücumundan müdafiə sistemini gücləndirmək planlarını açıq şəkildə tənqid edir. Keçən ilin sonlarında başlanan "European Sky Shield " layihəsinə Fransa istisna olmaqla 17 Avropa ölkəsi, o cümlədən Böyük Britaniya daxildir. Fransa hökuməti hesab edir ki, o, Avropanın strateji suverenliyinin möhkəmlənməsini təmin etmir. Çünki ABŞ və İsrailin hərbi sənayesinə arxalanır.

Çox güman ki, NATO-nun hava və raketdən müdafiə sistemlərinə inteqrasiya olunmaq istəyən İsrailin "Arrow 3" sistemi və ABŞ-ın "Patriot"u da tezliklə "European Sky Shield" layihəsinə qoşulacaq.

**Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"**

# Türkiyə və Azərbaycan ortaq “HAKİM” Hava Komandanlıq İdarəetmə Sistemi layihəsini həyata keçirir



**Azərbaycan Hərbi Hava Qüvvələri Komandanlığı real vaxt rejimində taktiki və operativ komanda və idarəetmə fəaliyyətini həyata keçirə biləcəyi beynəlxalq standartlara malik komanda və idarəetmə sistemidir.**

Komanda və idarəetmə sistemində sülh vaxtından başlayaraq həm öz hava məkanımıza nəzarət və idarə etmək, həm də qonşu dövlətlərin hava fəaliyyətini müşahidə etmək üçün xəbərdarlıq radarları, nəqliyyat radarları və silah radarları ilə aşkar edilən hava obyektlərinin identifikasiyası fəaliyyətləri, həyata keçirilir və Recognized Air Picture-THR (Recognized Air Picture- The yaradılması RAP) böyük əhəmiyyət kəsb edir.

HAKİM Hava Komandanlıq və İdarəetmə sistemi müxtəlif növ radarlardan alınan məlumatları birləşdirərək hava obyektlərinin aşkarlanmasında dəqiq THR yaratmaq üçün ehtiyat infrastrukturu və mikro xidmət arxitekturası ilə fasiləsiz fəaliyyət göstərə bilən bir quruluşa malikdir.

THR yaradarkən – diaqnostika alqoritmləri ilə Hava Tapşırığı Sifarişi-HGE (Hava Tapşırığı Sifarişi-ATO), Hava Məkanına Nəzarət Sifarişi-HSKE (Hava Məkanına Nəzarət Sifarişi-ACO) və Uçuş Planı-UP (Uçuş Planı-FP) istifadə edilərək avtomatik və ya əl ilə diaqnoz qoyula bilər. Nəzarət və Hesabat Mərkəzi-KIM (CRC) bütün ölkə üzrə THR ilə bağlantılar vasitəsilə qonşu KIM-lər və Birləşmiş Hava Əməliyyatları Mərkəzi-BHHM (Azərbaycan üçün MKM) qarşısında məsuliyyəti altında olan trek istehsalı sahəsində THR-ə məlumat verə bilər. Eyni zamanda THR, həm SAM sistemləri, həm də təyyarələrlə inteqrasiya olunmuş şəkildə link vasitəsilə paylaşaraq işlənə bilər.

Hava məkanına nəzarət və idarəetmə alqoritmləri sayəsində intensiv hava fəaliyyəti zamanı istifadəçinin müəyyən edəcəyi qaydalara uyğun xəbərdarlıq sahələri yaradılır.

Aşkar edilmiş təyyarənin düşmən olduğu təsbit edilərsə, təhdid qiymətləndirməsi aparıla, silah seçimi üçün istifadəçiyə yerdə və havada SAM sistemləri və döyüş təyyarələri arasında ən uyğun seçim təklif edilə bilər.

O, digər qüvvələr tərəfindən keçidlər üzərində alınacaq hava və səth izlərini əlaqələndirərək birgə mühit şəkili (JEP) yarada bilər.

Çevik dizayn edilmiş istifadəçi interfeysləri, istifadəçiyə iş mühitini öz ehtiyaclarına uyğun tənzimləməyə imkan verir.

“ASELSAN” mühəndisləri tərəfindən hazırlanmış HAKİM Hava Komandanlıq İdarəetmə Sistemi – yeni nəsil proqram təminatı və infrastruktur texnologiyalarından istifadə edir,



Təhdid qiymətləndirməsi nəticəsində müvafiq silah sisteminə keçid əmri göndərilə, müvafiq silah və radar sisteminin imkanlarına uyğun olaraq silah vəziyyəti və nişanlanma nəticələri izlənilə bilər.

İnteqrasiya olunduğu planlaşdırma sistemlərindən aldığı HSKE-ləri göstərə bilər və diaqnostik alqoritmlərdə HGE və UP-lərdən istifadə edə bilər.

istifadəçi dostudur, günün əməliyyat ehtiyaclarına uyğun qərar qəbul etmək alqoritmlərini ehtiva edir, müxtəlif ölkələrin silah, radar, planlaşdırma, elektron müharibə və kəşfiyyat sistemləri ilə inteqrasiyada işləmək qabiliyyətinə malikdir. O, həmçinin inkişaf etdirilə bilən strukturu ilə operativ və taktiki sahədə istifadə olunur, real vaxt rejimində idarə olunan komanda və idarəetmə sistemidir.

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *təhsil müəssisələri üçün dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə*

## TENDER ELAN EDİR

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz manat) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər:

**Təşkilat – Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı – “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin Sənaye filialı**
**Kod – 805603**
**VÖEN – 9900001881**
**M/h–AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h– AZ88IBAZ38030019441856517211**
**VÖEN– 1500016711**

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- qeydiyyatdan keçdiyi ölkə (təqdim olunması məcburidir. Dövlət reyesterindən çıxarış və VÖEN notarial qaydada təsdiq edilib, PDF formatında əlavə edilməlidir.)
- nizamnamə (təqdim olunması məcburidir. Notarial qaydada təsdiq edilmiş sənəd PDF formatında əlavə edilməlidir.)
- rekvizitlər (təqdim olunması məcburidir. Müvafiq sənəd PDF formatında əlavə edilməlidir.)
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (təqdim olunması məcburidir. Son dəfə aldığı təsdiq olunmuş arayışı təqdim etməlidir. Bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti təqdim edilməlidir. Notarial qaydada təsdiq olunmuş sənəd PDF formatında əlavə edilməlidir.)
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (təqdim olunması məcburidir. Əgər bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı təqdim edilməlidir. 2023-cü il iyunun 1-dən sonra alınmış arayış PDF formatında əlavə edilməlidir.)
- iddiaçının 2022-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (təqdim olunması məcburidir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir.)
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin arayışı təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir.)
- vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış (təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il iyunun 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir.)
- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (təqdim olunması məcburidir. Uçotda olduğu vergi orqanından alınmalıdır. Notarial təsdiq edilməsi mütləqdir. 2023-cü il iyunun 1-dən sonra alınmış arayış qəbul ediləcəkdir.)
- tender təklifini və satınalma müqaviləsini imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə təqdim edilməlidir. Sənəd PDF formatında əlavə edilməlidir.)
- iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş sənəd təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir. Təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir.)
- iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya “ASAN xidmət” mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir, təsdiqedici sənəd PDF formatında əlavə edilməlidir.);
- iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun ”Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna aid məlumat” cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (əlavə 1) (təqdim olunması məcburidir. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə məlumatlar və müvafiq sertifikatlar əlavə edilməlidir. Tələb olunan təsdiqedici sənədlər əlavə olunmaqla təqdim edilməlidir.)
- tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;
- iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təkifinin tərkib hissəsi kimi sayılaraq təqdim olunmalıdır);
- iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir).

İcraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırmasını, markalanmasını və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 90 (doxsan) təqvim günü ərzində icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.

Sənədlər Azərbaycan dilində, tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda qeyd olunan sənədləri 2 avqust 2023-cü il saat 16.00-dək, tender təklifi və tender təklifinin bank təminatını isə 10 avqust 2023-cü il 16.00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 11 avqust 2023-cü il saat 16.00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender komissiyası**

# “İDEAL TİBB ŞİRKƏTİ” MMC-nin

## 2022-ci il dekabrın 31-nə birləşdirilmiş (konsolidə edilmiş) Maliyyə Hesabatları

(manatla)

| Göstəricilər | 2022-ci il | 2021-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Uzunmüddətli aktivlər** | | |
| Qeyri-maddi aktivlər | 20 693.92 | 22 893.92 |
| Torpaq, tikili və avadanlıqlar | 2 062 369.61 | 2 268 410.95 |
| Daşınmaz əmlaka investisiyalar | | |
| Bioloji aktivlər | | |
| Təbii sərvətlər | | |
| İştirak payı metodu ilə uçota alınan investisiyalar | 8 489 375.07 | 8 704 916.76 |
| Təxirə salınmış vergi aktivləri | | |
| Uzunmüddətli debitor borcları | | |
| Sair uzunmüddətli maliyyə aktivləri | | |
| Sair uzunmüddətli aktivlər | | |
| **Cəmi uzunmüddətli aktivlər** | **10 572 438.60** | **10 996 221.63** |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 11 253.49 | 67 217.16 |
| Qısanmüddətli debitor borcları | 191.00 | 35 196.76 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 78 623.54 | 285 402.18 |
| Sair qısamüddətli maliyyə aktivləri | 0.00 | 0.00 |
| Kapitallaşdırma üçün aktivlər | 0.00 | 0.00 |
| Sair qısamüddətli aktivlər | 0.00 | 742 240.51 |
| **Cəmi qısamüddətli aktivlər** | **90 0068.03** | **1 130 056.61** |
| **Cəmi aktivlər** | **10 662 506.63** | **12 126 278.24** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **Kapital** | | |
| Ödənilmiş nominal (nizamnamə) kapitalı | 100.00 | 100.00 |
| Emissiya gəliri | | |
| Geri alınmış kapital (səhmlər) | | |
| Kapital ehtiyatları | | |
| Xalis mənfəət (ödənilməmiş zərər) | 1 160 146.57 | 275 736.21 |
| **Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət** | 0.00 | 0.00 |
| **Cəmi kapital** | **1 160 246.57** | **275 836.21** |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | 4 814 525.23 | 5 148 007.10 |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 126 129.06 | 97 185.27 |
| Uzunmüddətli kreditor borcları | 0.00 | 0.00 |
| Sair uzunmüddətli öhdəliklər | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **4 940 654.29** | **5 245 192.37** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər(avanslar) | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | |
| Qısanmüddətli kreditor borcları | 277 445.17 | 63 882.85 |
| Sair qısamüddətli öhdəliklər | 4 284 160.60 | 6 541 366.81 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **4 561 605.77** | **6 605 249.66** |
| **Cəmi öhdəliklər** | **9 502 260.06** | **11 850 442.03** |
| **Cəmi kapital və öhdəliklər** | **10 662 506.63** | **12 126 278.24** |

### Mənfəət və zərər haqqında hesabat

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəliri | **3 967 266.97** | **2 886 427.87** |
| Satışın maya dəyəri | **(3 199 916.31)** | **(2 571 486.20)** |
| **Ümumi mənfəət (zərər)** | **767 350.66** | **314 841.67** |
| Sair əməliyyat gəlirləri | 2 809 451.85 | |
| Amortizatsiya xərcləri | (546 957.24) | (187 195.00) |
| Kommersiya xərcləri | (2 405 694.83) | (2 295 032.88) |
| İnzibati xərclər | (18 500.97) | (1 959.67) |
| Maliyyə xərcləri | (128 286.21) | (43 422.92) |
| Sair əməliyyat xərcləri | (100 477.06) | (43 755.38) |
| Fəaliyyətin dayandırılmasından mənfəətlər (zərərlər) | | |
| Azad olmalar və güzəştlər | | 0.00 |
| **Əməliyyat mənfəəti (zərəri)** | **767 350.66** | **314 814.67** |
| Maliyyə mənfəəti (zərəri) | | |
| Asılı və birgə müəssisələri mənfəətlərində (zərərlərində) pay | | |
| Keçmiş illərin zərəri | | 0.00 |
| **Vergiqoymadan əvvəl mənfəət (zərər)** | **767 350.66** | **314 814.67** |
| Mənfəət vergisi | (153 470.13) | (62 988.33) |
| Adi fəaliyyətdən mənfəət (zərər) | | |
| Fövqəladə mənfəət (zərər) | | |
| **Hesabat dövrünün xalis mənfəəti (zərəri)** | **613 880.53** | **251 826.34** |
| Hər bir səhmin mənfəəti | | |
| Qoşulmuş hər bir səhmin mənfəəti | | |

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Hesabat dövründə xalis mənfəət və ya zərər | **613 880.53** | **251 826.34** |
| Aşağıdakı maddələr üzrə düzəlişlər: | | |
| Əsas vəsaitlərin daxil olması | (338 715.83) | (290 135.84) |
| Kapitallaşdırma üçün aktivlər | | 0.00 |
| Amortizatsiya xərcləri | 546 957.24 | 187 195.00 |
| qeyri-pul maddələri üzrə gəlirlər və xərclər | | |
| Bölüşdürülməmiş mənfəət üzrə artma/azalma | 0.00 | 0.00 |
| Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər: | | |
| Ehtiyatların (artması) azalması | 55 963.67 | 82 536.75 |
| əməliyyat debitor borcları və gələcək dövrlərin xərcləri (artması) azalması | 35 005.76 | (33 262.92) |
| əməliyyat kreditor borcları və hesablaşmaların artması (azalması) | (333 481.87) | (148 205.00) |
| Kapital ehtiyatları üzrə artma/azalma | 0.00 | 0.00 |
| Digər öhdəliklər üzrə artma/azalma | (2 257 206.21) | 2 986 388.81 |
| Sair aktivlər üzrə artma/azalma | 1 470 818,07 | (2 788 692,62) |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | **(206 778.64)** | **247 650.52** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Komisyon yığımları və ödənilmiş digər oxşar məbləğlər daxil olmaqla uzunmüddətli qeyri-maliyyə aktivlərinin əldə edilməsi üçün, eləcə də, uzunmüddətli qeyri-maliyyə aktivlərinə aid edilən kapitallaşdırılmayan məsrəfləri ilə əlaqədar pul vəsaitlərinin xaricolmaları | | |
| Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | | |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borclar üzrə pul vəsaitlərinin xaricolmaları | | |
| Digər tərəflərə verilmiş qısamüddətli və uzunmüddətli borcların geri qaytarılmasından yaranan pul vəsaitlərinin daxilolmaları | | |
| Törəmə müəssisələrdə və təsərrüfat vahidlərində mövcud olan pul vəsaitləri çıxılmaqla həmin qurumların əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin xaricolmaları | | |
| Fyuçers, forvard, opsion və svop müqavilələrindən yaranan pul vəsaitlərinin daxilolmaları | | |
| Dividendlərin və gəlirin digər oxşar növləri şəklində pul vəsaitlərinin daxilolmaları | 2 798 331.11 | |
| Alınmış faizlər şəklində pul vəsaitlərinin daxilolmaları | | |
| investisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | 11 120.74 | |
| **investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | **2 809 451.85** | |
| Səhmlərin və digər oxşar alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | 2 798 331.11 | |
| Müəssisənin öz səhmlərinin və digər oxşar alətlərinin geri alınması məqsədilə pul vəsaitlərinin xaricolmaları | | |
| Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları | | |
| Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | |
| Məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | |
| Məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | |
| Maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | |
| Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | |
| Faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlərlə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar | 11 120.74 | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətlərlə əlaqədar fövqəladə xaricolmalar və daxilolmalar** | | 0,00 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **(206 778.64)** | **247 650.52** |

### Pul vəsaitləri və onların ekvivalentlərinin hərəkəti

| | | |
|---|---|---|
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | **285 402.18** | **37 751.66** |
| İl ərzində xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | |
| **Bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan məbləği** | **78 623.54** | **285 402.18** |

### Kapitalda dəyişikliklər haqqında hesabat

| Göstəricilər | Ödənilmiş nizamnamə kapitalı | Xalis mənfət | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | CƏMİ |
|---|---|---|---|---|
| **2022-ci il yanvarın 1-nə qalıq** | **100.00** | **275 736.21** | **0.00** | **275 836.21** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | |
| **2022-ci il yanvarın 1-nə düzəlişlərdən sonra qalıq** | **100.00** | **275 736.21** | **0.00** | **275 836.21** |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | |
| Məzənnə fərqləri | | | | |
| **Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər** | | | | |
| Hesabat dövründə artma /azalma (zərər) | **100.00** | **1 160 146.57** | **0.00** | **1 160 246.57** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | |
| **Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 2022-ci il dekabrın 31-nə qalıq** | | | | |
| Kapitalın maddələr arasında köçürülmələri | | | | |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **100.00** | **1 160 146.57** | **0.00** | **1 160 246.57** |
| **2022-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | |
| **2022-ci il yanvarın 1-nə qalıq** | **100.00** | **1 160 146.57** | **0.00** | **1 160 246.57** |
| Uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | |
| **2022-ci il yanvarın 1-nə düzəlişlərdən sonra qalıq** | | | | |
| Aktivlərin yenidən qiymətləndirilməsi | | | | |
| Məzənnə fərqləri | | | | |
| **Mənfəət və zərər haqqında hesabatda tanınmamış gəlirlər və xərclər** | | | | |
| Hesabat dövründə artma azalma (zərər) | | | | |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | |
| **Kapitalın maddələr arasında köçürülmələrindən əvvəl 2022-ci il dekabrın 31-nə qalıq** | **100.00** | **1 160 146.57** | **0.00** | **1 160 246.57** |
| Kapitalın maddələr arasında köçürülmələri | | | | |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **100.00** | **1 160 146.57** | **0.00** | **1 160 246.57** |
| **2022-ci il üzrə kapitalda dəyişikliklərin cəmi** | **100.00** | **1 160 146.57** | **0.00** | **1 160 246.57** |

### Rəy

Mən **“İDEAL TİBB ŞİRKƏTİ”” MMC**-nin 2022-ci il yanvarın 1-dən dekabrın 31-dək maliyyə vəziyyəti, mənfəət , zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət **birləşdirilmiş (konsolidə edilmiş) maliyyə** hesabatlarının auditini apardım.

Məncə, əlavə edilmiş birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları cəmiyyətin 2022-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

### Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq audit standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir.Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Məncə, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi su yektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə rəhbərlik məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

### Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq istifadəçilərin maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab olunur.

# Taekvondo Federasiyasına yeni vitse-prezident seçilib

**Azərbaycan Taekvondo Federasiyasının İdarə Heyətinin növbəti iclası keçirilib.**

İclasda cari məsələlər müzakirə olunub. Həmçinin ATF-nin fəaliyyətinin yüksəldilməsi və idarəetmədə səmərəliliyin artırılması məqsədilə Azərbaycan Taekvondo Federasiyasının prezidenti, İdarə Heyətinin sədri Kəmaləddin Heydərov qurumun vitse-prezidentlərinin say tərkibinin artırılmasını və Hikmət Səmədovun vitse-prezident vəzifəsinə namizədliyini təklif edib. Federasiyanın ümumi yığıncağında təkliflər səsə qoyularaq qəbul edilib.

# “Tikinti Quraşdırma ANKZ-3” ASC səhmdarlarının nəzərinə!

24 iyul 2023-cü il saat 10.00-da “Tikinti Quraşdırma ANKZ-3” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Səhmdar cəmiyyətin nizamnaməsinə əlavələrin və dəyişikliklərin edilməsi.
2. Seçkili orqanların yenidən formalaşdırılması.
3. Xüsusi əhəmiyyətli əqdin bağlanılması.

Səhmdarlar gündəlikdəki məsələlərə aid sənədlərlə tanış olmaq üçün həftənin iş günləri saat 10.00-dan 13.00-dək cəmiyyətin icra orqanının rəhbərinə müraciət edə bilərlər.

**Əlaqə telefonu** - 0124249601.

**Ünvan** - Bakı şəhəri, Nizami rayonu, Oqtay Vəliyev küçəsi 9.

# Günərzi qayğı mərkəzlərinə tələbat artır

**Sosial Xidmətlər Agentliyinin sifarişi ilə icra olunan layihələr əsasında ötən ay fəaliyyətə başlayan Günərzi qayğı mərkəzlərinə 630 uşaq cəlb olunub. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat veriblər.**

Qeyd olunan layihələr uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması, çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədini daşıyır.

Verilən məlumata görə, 21 şəhər və rayonda (Ağsu, Ağdaş, Bərdə, Cəlilabad, Gəncə, Xaçmaz, İmişli, Qax, Qazax, Qobustan, Qəbələ, Quba, Lənkəran, Masallı, Oğuz, Samux, Sabirabad, Şabran, Şəmkir, Şirvan, Ucar şəhər və rayonları) qurulan Günərzi qayğı mərkəzlərində 3 yaşdan 12 yaşadək və həssas qruplara aid olan uşaqların sosial reabilitasiyası işləri aparılır.

Qeyd edək ki, bu mərkəzlərdə uşaqlar korreksiya, abilitasiya və reabilitasiya xidmətlərinin təşkili istiqamətində yarımstasionar formada sosial xidmətlərlə təmin edilir. Onlara sosial psixoloji, nevroloji, pedaqoji və digər xidmətlərlə yanaşı, ailələrinə hüquqi məsləhət xidmətləri də göstərilir.

**Z.HÜSEYNOVA, “Xalq qəzeti”**

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 131 (30247) 22 iyun 2023-cü il, cümə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Jokeyimiz Fransada qalib oldu

**Fransanın Jardin şəhərində CDİ3* kateqoriyalı atçılıq idmanının dresaj növü üzrə beynəlxalq yarışda Azərbaycan təmsilçiləri Karina və Aqata Zəhrabəyovalar uğurla çıxış ediblər.**



Almaniya, Fransa, Belçika, Böyük Britaniya, Niderland kimi 20-dən çox ölkədən idmançıların iştirak etdiyi mötəbər yarışa Aqata "RM Golden Showman", Karina isə "Ein Stern" və "Delicato 2" atları ilə qatılıblar. Gərgin keçən mübarizədə Karina Zəhrabəyova həftəyə 74 faizdən çox xalla yekun vuraraq "Junior Freestyle" yarışının qalibi olub. Aqata Zəhrabəyova isə üç yarışda 70 faizdən çox xal toplayaraq ilk üçlükdə qərarlaşıb.

Tədbirin sonunda qaliblər pul mükafatı, medal və kuboklarla təltif ediliblər.

## "Berlin-2023"də gimnastımız medal qazandı



**Almaniyanın Berlin şəhərində keçirilən Ümumdünya Xüsusi Yay Olimpiya Oyunları çərçivəsində bədii gimnastika üzrə yarışlara yekun vurulub.**

Azərbaycan gimnastika tarixində ilk dəfə olaraq Oyunlarda ölkəmizi təmsil edən bədii gimnast Mehriban Tağıyeva çıxış etdiyi divizionda topla hərəkətlərdə qızıl medal qazanıb. Gürzlər və halqa ilə hərəkətlərin icrasında, eləcə də çoxnövçülük proqramında isə idmançımız bürünc medallara yiyələnib.

## "Krakov-2023":

KRAKÓW MAŁOPOLSKA EG2023

**Polşada keçirilən üçüncü Avropa Oyunlarının atletika yarışlarında Azərbaycan yığması qrup birincisi olub.**

Üçüncü divizionda yer alan millimiz kişilərin 4x100 metr məsafəyə estafet yarışında mübarizə aparıb. Aleksey Əliəkbərov, Əli Abdıyev, Qədir Qurbanov və Kəsgin Abbaszadədən ibarət komandamız məsafəni 42,63 saniyəyə qət edərək B qrupunda birinci olub.

Beləliklə, yığmamız mövsümdə özünün ən yaxşı nəticəsinə imza atıb. Beləliklə, yığmamız mövsümdə özünün ən yaxşı nəticəsinə imza atıb.

Qeyd edək ki, üçüncü Avropa Oyunları çərçivəsində atletika üzrə komandalararası Avropa çempionatı keçirilir. Yarışda yığmalar üç divizionda mübarizə aparırlar.

*L.SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri

WhatsApp

## "WhatsApp" bizi dinləyib, yoxsa səhv edib?

**Uzun müddətdir ki, proqramların və ya texnologiya istehsalçılarının insanların danışıqlarını dinləmələri və onların məlumatlarından istifadə iddiaları gündəmdədir. Belə şayiələrdən biri də "WhatsApp" tətbiqi ilə bağlı yayılıb.**

İstifadəçilər iddia ediblər ki, "WhatsApp"dan istifadə etmədikləri müddətdə də proqram mikrofona daimi giriş edib. Bunun sübutları yayıldıqdan sonra proqramı kütləvi silmə kampaniyaları başlayıb. Bundan sonra İlon Mask "Twitter"də "WhatsApp"ın etibarsız olduğunu yazıb.

Lakin "Google" şirkəti bunun android əməliyyat sistemindəki səhv olduğunu açıqlayıb. Yeni məlumatların yalnış oxunması səbəbindən tətbiq məxfiliyi pozan göstəricilər və bildirişlər yaradır. Həmçinin şirkət bu cür çaşqınlığa səbəb olduğu üçün "WhatsApp"dan üzr istəyib və problemin sadə bir yeniləmə ilə aradan qaldırılacağını bildirib.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

## "YouTube"dan əhəmiyyətli dəyişikliklər gözlənilir

**İstifadəçilər uzun illərdir ki, "YouTube" platformasından maddi qazanc əldə edirlər. Bu istiqamətdə şirkətin çox ciddi qaydaları mövcuddur. Lakin "YouTube" monetizasiya (xidmət hesabına gəlirin əldə edilməsi prosesi) şərtlərində əhəmiyyətli dəyişikliklər etməyi qərara alıb.**

YouTube

İndiyə qədər "YouTube" ortaqlığına daxil olmaq üçün son 1 ildə 1000 abunəçi, 4 min saatlıq video və ya son 3 ayda 10 milyon qısa video baxışı tələb olunurdu. Bu isə, təbii olaraq yeni kanallar üçün çətin həddir. Lakin yeni strategiya ilə abunəçilərin sayı artıq 500, bir ildə ən az 3000 saat video və ya son 3 ayda ən azı üç milyon qısa video izlənməsi lazım olacaq.

Yeni dəyişikliklər ilk olaraq ABŞ, Böyük Britaniya, Kanada, Tayvan və Cənubi Koreyada tətbiq ediləcək. Şirkət bu yolla məzmun istehsalçılarının daha çox səy göstərəcəyini düşünür.

*Ə.MƏHƏMMƏDLİ, "Xalq qəzeti"*

Müharibənin acı statistikası

## 71 milyon insanın həyatına son qoyan 2191 günlük müharibə

**Bu gün Hitler Almaniyasının SSRİ-yə hücumundan 82 il keçir. Bəşər tarixinin ən qanlı savaşı sayılan İkinci Dünya Müharibəsi 1939-cu il sentyabrın 1-dən 1945-ci il sentyabrın 2-nə kimi davam edib. Bu qırğında 61 dövlət, 1,7 milyard insan iştirak edib. Hərbi əməliyyatlar 40 ölkənin ərazisində aparılıb. 71 milyondan artıq insan həlak olub.**



Statistikanın acı rəqəmləri: müharibənin hər ilində 11,8 milyon nəfər dünyasını itirib. Bu, 1 gündə 32 min, 1 saatda 1300, bir dəqiqədə 22, hər 3 saniyədə isə 1 insan həyatı deməkdir.

Sovet-alman cəbhəsində Almaniya ordusunun 85 faizi vuruşub. Müharibədə həlak olan 13,6 milyon alman əsgərinin 10 milyondan çoxu bu cəbhənin payına düşür.

* Amerikan–ingilis qoşunları müharibədə əsaslı dönüşdən sonra – 1944-cü il iyunun 6-da ikinci cəbhəni açıblar.

* Almaniyanın rəsmi müharibə elan etdiyi yeganə ölkə ABŞ olub.

* 1945-ci il mayın 1-də Almaniyanın Demmin şəhərinin 1000-dən çox sakini sovet qoşunlarının yaxınlaşdığını görüb kütləvi şəkildə intihar edib.

* İkinci Dünya Müharibəsi nüvə silahının tətbiq olunduğu yeganə müharibədir.

* Azərbaycandan 600 min insan İkinci Dünya Müharibəsində iştirak edib. Cəbhəyə yollanan hər iki soydaşımızdan biri geri qayıtmayıb.

* "Fanta" içkisi ilk dəfə İkinci Dünya Müharibəsi zamanı alman ixtiraçısı tərəfindən hazırlanıb.

*"Xalq qəzeti"*

Premyera

## "Sevənlərindir dünya"



**Azərbaycan Dövlət Akademik Musiqili Teatrında yazıçı-dramaturq Əmir Pəhləvanın "Sevənlərindir dünya" əsəri əsasında hazırlanan ikihissəli məzhəkə-tamaşanın premyerası oldu.**

Səhnə əsərində azərbaycanlı və özbək gəncin sevgi tarixçəsindən bəhs olunur. Real həyat hekayəsinə əsaslanan məişət komediyasının quruluşçu rejissoru Elməddin Dadaşovdur.

Tamaşanın baletmeysteri Kamilə Əliyeva, səhnə tərtibatı və geyim üzrə quruluşçu rəssamı Sənan Fətullazadə, musiqi tərtibatçısı Məhəmməd Məmmədov, rejissor assistenti Tamilla Aslanovadır.

Rolları Əməkdar artistlər Nadir Xasiyev, İqrar Salamov, aktyorlar Telli Hüseynova, Əliməmməd Novruzov, Rəsmiyyə Nurməmmədova, Elçin İmanov, Hüseyn Əlili, Gülnarə Əzizova, Ruslan Mürsəlov, Güldanə Əzimova, Emin Zeynallı, Nəzrin İsmayılzadə, Cəlal İsayev, Ayan Qurbanova, Ofeliya Məmmədova, Nərmin Əliyeva, Eleanora Abbasova, Murad Əliyev, Cəbrayıl Cəbrayılov ifa edirlər.

Tamaşada, həmçinin teatrın xor və balet truppasının üzvləri də iştirak edirlər.

*Fidan SALMANOVA, Elşən AĞALAR (foto), "Xalq qəzeti"*

## Şagirdlərimizin uğuru

**Almaniyanın Hannover şəhərində Avropa Fizika Olimpiadası təşkil edilib.**

Təhsil İnstitutundan bildirilib ki, 5 məktəbli ilə təmsil olunan komandamız yarışda uğurla çıxış edib. Bakı şəhəri fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Murad Abdulkərim gümüş medala, Türkiyə Dəyanət Vəqfi



Bakı türk liseyinin XI sinif şagirdi Uğur Əzim bürünc medala, Quba rayonu Fizika, riyaziyyat və informatika təmayüllü liseyin X sinif şagirdi Murad İsmayılov həvəsləndirici mükafata layiq görülüb.

*S.RZAYEVA, "Xalq qəzeti"*

Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 22-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 17-21°, gündüz 24-28° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 50-55 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 21-22° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 23-24° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir güclənən şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20° , gündüz 25-30° , dağlarda gecə 7-12°, gündüz 13-18° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## Susuzluğu nə yatırır?

**Havanın yüksək temperaturu və həddindən artıq tərləmə susuzluğa səbəb olur ki, bu da qəbizlik, yorğunluq, baş ağrıları, ümumi nasazlıq yaradır. Mütəxəssislərin fikrincə, çox susuz qalmaq beyin, ürək və böyrəklərə ciddi zərər vura bilər.**

İsti havalarda qəbul etdiyimiz içkiləri daha diqqətlə seçməliyik. Çünki, bəzi mayelər daha çox susuzluq yaradır.

Qazlı içkilərin əksəriyyətində kofein var ki, bu da orqanizmdən daha çox suyun çıxmasına səbəb olur.

Şərab, pivə və digər spirtli içkilər bədəndə rütubəti daha çox itirir.

Alkoqolun istidə qəbulu təhlükəli ola bilər, çünki bədəni tez susuzlaşdırır. Bu susuzluq, başgicəllənmə, yorğunluqla başlayır, hətta qıcolmalara səbəb olur.

Energetik içkilər kofein və digər kimyəvi maddələrlə boldur.

Bəs, nə içmək olar? Bunun cavabı sadə və aydındır – su! Sudan başqa süd də nəmləndiricidir. Çünki süddə mədənin boşalması prosesini azaldan yağlar və zülallar var.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin rəhbərliyi və kollektivi Rasim Abdullayevə anası

**LEYLA ABDULLAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qusar rayonundan Şair Alxasov Baş nazirin birinci müavini Yaqub Eyyubova bacısı

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Asif Əsgərov AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə əzizi

**HÜSEYN MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5171
SİFARİŞ 1557
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00